Vidadi Muradov

# NAXÇIVAN XALÇAÇILARI

- 12828 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı - "ELM" - 2013

85.125(5Azə=ƏMax)
M 84

**Müəllif:** Vidadi Muradov
dekorativ-tətbiqi sənət üzrə professor
"Azər-İlmə"-nin rəhbəri

**Elmi redaktor:** İsmayıl Hacıyev
akademik,
Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin sədri

**Redaktorlar:** Kübra Əliyeva
sənətşünaslıq doktoru, professor
AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun elmi işlər üzrə direktor müavini

Ülviyyə Məmmədova
türkoloq

**Foto:** Tural Bahadurov

**Dizayn:** Faiq Əliyev

**Kitabın ərsəyə gəlməsində göstərdiyi köməkliyə görə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə minnətdarlığımızı bildiririk.**

Kitabda Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin xəritələrindən və Azərbaycan Respublikası Milli Məclisinin "Azərbaycan Respublikasının inzibati ərazi bölgüsü" məlumat toplusundan istifadə olunmuşdur.

**Vidadi Muradov. Naxçıvan xalçaçıları. Bakı -"Elm"- 2013. 156 səh.**

**Çap evi:** San Ofset. - Ayazağa Mah. Kemerburgaz Cad. No:13 Sisli - İstanbul

Kitab "Azərbaycan xalçaları bütün məktəbləri ilə" adlı böyük layihənin davamıdır. Kitabda bütövlükdə Naxçıvanın tarixi inkişafı və mədəni nailiyyətləri nəzərdən keçirilmiş, Naxçıvan xalçalarının ümumi xarakteristikası, Naxçıvan xalçaçıları haqqında məlumat və fotoşəkillər, dünyanın bir sıra şəxsi kolleksiyalarında saxlanılan Naxçıvan xalçaları təqdim olunmuşdur.

Kitab Azərbaycan dili ilə yanaşı, ingilis və rus dillərində də işıq üzü görüb. Bu nəşr xalçaçılıq sahəsində çalışan mütəxəssislər, tələbələr, xalça həvəskarları, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Bütün hüquqlar qorunur. Müəllifin rəsmi icazəsi olmadan kitabın və ya onun hər hansı hissəsinin surəti çıxarıla, informasiya bazasında və axtarış sistemində qrafik, elektron və ya mexaniki vasitələrlə yenidən çoxaldıla və ya istifadə edilə bilməz.

**Kitabın üz qabığında:** Naxçıvan xalçaları Qarabağlar türbəsi biçimində. **Rəssam:** Nərmin Xankişiyeva.

ISBN 978-9952-8223-9-7

655(07)-2013

©Vidadi Muradov

# MÜNDƏRİCAT

**Müəllifdən** ..... 4
**İ.Hacıyev. Naxçıvan: qədim Şərq sivilizasiyalarının qovuşduğu məkan** ..... 8
Naxçıvan toxuçuları ..... 22
Babək rayonu ..... 24
Şərur rayonu ..... 42
Ordubad rayonu ..... 68
Culfa rayonu ..... 84
Kəngərli rayonu ..... 98
Sədərək rayonu ..... 112
Şahbuz rayonu ..... 118
**Şəxsi kolleksiyalarda saxlanılan Naxçıvan xalçaları** ..... 134
**Naxçıvanı MR-in xalçaçılıq məntəqələri** ..... 150

# Müəllifdən

Böyük ustalıq tələb edən xalq yaradıcılığının məcmusu, bədii təsviri sənətin unikal nümunəsi olan xalçaçılıq Azərbaycan xalqının rəmzinə çevrilmiş bir sənət sahəsidir. Azərbaycan orijinal yaradıcılıq üslubuna malik olan xalçaçılıq mərkəzlərindəndir. Milli xalçalarımız xalqımızın tarixinin, mənəvi-əxlaqi normalarının, həyat tərzinin təzahürü olmuş, çoxsaylı funksiyalar yerinə yetirmiş, zəngin koloriti, təkrarsız naxışları, orijinal kompozisiyaları ilə fərqlənmişdir.

Azərbaycan xalçaçılığının ən böyük nailiyyətlərindən biri onun inkişafına göstərilən dövlət qayğısıdır. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə (1969-1982, 1993-2003) bütövlükdə mədəniyyətin, o cümlədən xalçaçılığın inkişafına daim diqqət yetirilib. Ümummilli Liderin dövlətçilik siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı əsasında xalçaçılığın inkişafının qanunvericilik bazası yaradılmışdır. Bu məqsədlə 2004-cü il dekabrın 7-də "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikasının qanunu təsdiq olunmuş, 2005-ci il fevralın 7-də isə həmin qanunun tətbiq edilməsi barədə fərman verilmişdir. Prezident İlham Əliyevin iştirakı ilə 2008-ci il may ayının 15-də Bakı Dənizkənarı Milli Parkının ərazisində unikal memarlıq elementlərini özündə ehtiva edən Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin təməli qoyulmuşdur.

Müasir mərhələdə Azərbaycan xalçaçılığının qazandığı nailiyyətlərin dünyada təbliği sahəsində Heydər Əliyev fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri var. Mehriban xanımın rəhbərliyi ilə dövlət müstəqilliyimizin iyirmi illiyi münasibətilə Londonda (Böyük Britaniya), Parisdə (Fransa), Berlində (Almaniya), Moskvada (Rusiya), Romada (İtaliya) və Vatikanda keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti günləri çərçivəsində təşkil edilən xalça sərgiləri geniş tamaşaçı auditoriyasının marağını qazanıb. Məhz bu təbliğata yönəlik layihələr 2010-cu il noyabrın 16-da Azərbaycan xalçasının YUNESKO-nun Bəşəriyyətin Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsinin qanunauyğunluğunu bir daha təsdiq etdi.

1994-cü ildə yaranmış "Azər-İlmə" xalçaçılıq şirkətinin fəaliyyəti də məhz Azərbaycanda xalçaçılığın təbliği və inkişafı sahəsində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə yönəldilib. Elmi-təcrübi tədqiqat və təbliğat işlərində uğurlar qazanan şirkət daxili potensialına əsaslanaraq, "Azərbaycan xalçaları bütün məktəbləri ilə" adlı fundamental layihə üzrə araşdırmalarını davam etdirir. Bu layihə çərçivəsində Bakı, Şirvan, Gəncə, Quba, Qarabağ, İrəvan, Qazax-Borçalı, Naxçıvan, Təbriz xalça məktəblərinə aid broşürlər nəşr olunmuş, rus, ingilis, alman, fransız, ərəb dillərinə tərcümə edilərək, dünyanın bir sıra nüfuzlu muzey və kitabxanalarına göndərilmişdir.

Bu qəbildən olan və Naxçıvan Dövlət Xalça Muzeyində təqdimatı gerçəkləşən "Azərbaycan xalçaları Naxçıvan qrupu" broşürü də ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. Xalçaçılıq bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da diqqət mərkəzində saxlanılan sənət sahələrindəndir. 1998-ci ildə yaradılan Naxçıvan Dövlət Xalça Muzeyi 2010-cu ilin əvvəllərinə qədər Naxçıvan şəhərinin Xan dikindəki (Qala məhəlləsi) 200 illik tarixə malik "Xan Sarayı"nda fəaliyyət göstərib. Naxçıvanlılar, o cümlədən muzey əməkdaşları 1999-cu ildə bu mədəniyyət ocağına baş çəkən Ulu Öndər Heydər Əliyevin xeyir-duasını, tövsiyələrini unutmurlar. 2010-cu il martın 19-da şəhərin Heydər Əliyev prospektində Naxçıvan Dövlət Xalça Muzeyinin yeni binasının istifadəyə verilməsi Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbovun bu mədəniyyət ocağına və ümumilikdə xalçaçılığa göstərdiyi diqqət və qayğının təzahürüdür.

Hazırda Muzeydə müasir mühafizə standartlarına uyğun şəraitdə qorunan nümunələrin sayı 300-dən çoxdur. Burada Naxçıvan qrupuna aid 109 xalça nümayiş etdirilir. "Azər-İlmə" tərəfindən dünyanın müxtəlif ölkələrindəki şəxsi kolleksiyalardan əldə olunmuş 29 xovlu və xovsuz xalça, xalça məmulatları – üç məfrəş, xurcun, duz torbası muzeyə hədiyyə olunub.

"Azər-İlmə" Xalçaçılıq Şirkəti Naxçıvanda xalçaçılığa olan marağı və qayğını nəzərə alaraq, bu regionda xalçaçılığın inkişaf tarixini tədqiqata cəlb etmişdir. İndiyədək Azərbaycan xalçalarına dair tədqiqatlarda bu sahə üzrə müxtəlif lokal qruplar və məktəblər (Qarabağ, Quba, Şirvan, Bakı, Gəncə, Qazax, İrəvan, Təbriz) fərqləndirilirdi. Azərbaycanın qədim tarixi-coğrafi bölgələrindən biri olan Naxçıvan xalçaçılığının əsas inkişaf meylləri Qarabağ xalçaçılığı ilə vəhdətdə tədqiqata cəlb olunurdu. Təəssüf ki, bu yanaşma tərzi də çox vaxt Naxçıvan xalçaçılığını kölgədə qoyurdu. Bu səbəbdən də onun bədii-texniki xüsusiyyətləri, özünəməxsus ənənələri fundamental şəkildə araşdırılmamışdı. "Azər-İlmə"nin tədqiqat prosesində Naxçıvan xalçaçılığının daha obyektiv mənzərəsini yaratmaq üçün ayrıca "Naxçıvan qrupu"nun təsnifatlaşdırılması zərurəti meydana çıxdı.

Naçxıvanın istər xovlu, istərsə də xovsuz xalça məmulatları özünəməxsus inkişaf mərhələləri ilə xarakterizə olunur.

Naxçıvanda xovsuz xalçalar xovlu xalçalara nisbətən daha çox toxunub. Döşəmələrin örtülməsində, otaqların isidilməsində və bəzədilməsində çox əlverişli olan Naxçıvan kilimləri həm rənginə, həm də bədii xüsusiyyətlərinə görə Qarabağ kilimlərinə çox oxşasa da, bəzi özünəməxsusluqları ilə fərqlənirlər.

Mürəkkəb dolama texnikası ilə toxunan Naxçıvan zililəri şəddə və vərniyə nisbətən daha çox təkmilləşmişdir.

Keçəçilik Şahbuz və Şərurun kəndlərində tarixən inkişaf etmiş sənət sahələrindən biri olub. Keçədən alaçıqların, dəyələrin üstünün və yanlarının örtülməsində, yaşayış evlərinin döşənməsində, bəzədilməsində geniş istifadə edilib. Habelə yapıncı, papaq, dolaq, uzunboğaz çəkmə, corab, əba, qapılıq, heybə, çul, çuval, yük heyvanı üçün tərlik, palan, yəhər örtüyü, yük keçəsi hazırlanmasında və digər məişət ehtiyaclarının ödənilməsi üçün keçə əvəzsiz məmulatdır.

Naxçıvanda xalça istehsalında müxtəlif qoyun cinslərindən, keçi və dəvə yunundan başqa, ipəkdən də geniş istifadə olunub. İpək iplərdən toxunmuş cecim, palaz və kilimlər indi də bir çox kolleksiyaları bəzəyir.

Xalça toxuculuğunda pambıq sənayesinin də böyük rolu olmuşdur. Belə ki, Naxçıvanda yundan, qəzildən olan kilimlərlə bərabər, pambıq kilimlər də toxunmuşdur.

Naxçıvan xalçalarının bədii tərtibatında geniş yayılmış "çərxi-fələk" (dörd ünsür) təsviri e.ə II-I minilliklərə aid maddi-mədəniyyət abidələri üzərində də aşkar edilib. "Çərxi-fələk", adətən iri ölçülü medalyonların mərkəzində təsvir olunur. "Çələbi" kompozisiyalı Naxçıvan xalçalarında da bu element qabarıqdır.

Naxçıvan xalçalarının rəng palitrası da çeşidlidir. Mənbəyini xalq ənənəsindən, el yaddaşından və ulu diyarın əsrarəngiz təbiətindən götürən açıq və tünd rənglərin təzadı Naxçıvan xalçalarına xüsusi ahəngdarlıq bəxş edir.

Şərurda toxunan əksər xovlu və xovsuz xalçaların ərişi qara rəngli yundan olardı. Bu bölgədə həm xovlu, həm də xovsuz "Namazlıq" xalçalarına da tez-tez rast gəlinir. Burada toxunan, adətən kiçik ölçülü "Namazlıq"ları mavi, sürməyi və qırmızı rənglərin kolorit həlli, naxışların bədii quruluş üslubu səciyyələndirir. "Namazlıq"ların kənar haşiyəsi və ara sahəsi "buta"larla bəzədilərdi.

Boyaqçılıq sənəti bu qədim diyarın şöhrət qazanmış sahələrindəndir. Naxçıvanda və Ordubadda boyaqxanalar fəaliyyət göstərib. Sarı rəngi sarıçöp, sarıgül və əncir yarpaqlarından, qırmızı və çəhrayı rəngləri boyaqotundan (marena), qırmız böcəyindən (koşenil), noxudu və şəkəri rəngləri soğan və alma qabığından, palıdı rəngi qoz qabığından, sürməyi və göy rəngləri xaricdən gətirilən təbii indiqodan alırdılar. Bu səbəbdən də xalçaların rəngləri işləndikcə daha təravətli və isti tonlarla əvəz olunurdu. Peşəkar boyaqçılar təbii rənglərin davamlılığını artırmaq məqsədi ilə onların tərkibinə zəy, duz kimi bərkidici maddələr əlavə edirdilər. Naxçıvanda Əhməd, Babəkin Nehrəm kəndində Səfər, Cəhri kəndində Zərif, Mətanət kimi boyaqçıları toxucular yaxşı tanıyırdılar. Xalçaçı-tacirlərdən isə Şahbuzun Kolanı kəndində yaşayan Teymur Rüstəmovun adı çəkilir.

Şərur rayonundan Aşağı Aralıq, Yuxarı Aralıq, Qarxun, Tənənəm, Axura, Danyeri, Dəmirçi, Havuş, Şahbulaq, Yuxarı Yaycı, Dərvişlər; Babək rayonundan Sirab, Zeynəddin, Naxışnərgiz, Kərimbəyli, Qahab, Qoşadizə, Nehrəm, Güznüt, Kültəpə, Yeniyol, Məmmədrza Dizə, Xalxal, Cəhri, Vayxır, Çeşməbasar; Culfa rayonundan Camaldın, Ərəfsə, Ərəzin, Əbrəqunus, Ortakənd, Xoşkeşin, Əlincə, Başkənd, Teyvaz, Xanəgah, Qazançı, Milax; Kəngərli rayonundan Xincab, Xok, Yurdçu, Çalxanqala, Qarabağlar, Şahtaxtı, Qıvraq, Qabıllı, Təzəkənd; Ordubad rayonundan Qoşadizə, Darkənd, Tivi, Biləv, Aza, Azadkənd, Kələntər Dizə, Vənənd, Əylis, Gənzə, Aşağı Əylis, Nüsnüs; Sədərək rayonundan Sədərək qəsəbəsi, Kərki; Şahbuz rayonundan Kolanı, Aşağı Qışlaq, Yuxarı Qışlaq, Biçənək, Qızıl Qışlaq, Güney Qışlaq kəndləri Naxçıvan MR-in əsas xalçaçılıq məntəqələridir.

Bu xalçalar Azərbaycanın bütün bölgələrində olduğu kimi, Gördəst (türkbaf) üsulu ilə toxunur. Bu qrupun xovlu xalçalarında ilmə sıxlığı bir kv.dm-də 22x32, 25x25, 26x29, 28x35, 29x35, 24x28, 23x31, 27x28, 28x30, 26x30, 28x34, 27x35, 22x30, 22x24, 24x36, 24x26, 29x30, 33x34, 30x33, 23x24, 28x35-ə, xovsuz xalçalarda isə bir kv. dm-də 20x34, 31x45, 20x39, 30x40, 25x45, 24x40, 70x80, 60x80, 60x70-ə qədər olur. Xovun hündürlüyü 6 mm-dən 10 mm-ə qədər dəyişir. Əksər hallarda böyük ölçülü, uzunsov, bəzən isə kiçik ölçülü bu xalçalar üzərində təsvir olunan elementlər – şaquli istiqamətli zolaqlar, romblar, qarmaqlı həndəsi detallar, nəbati ornamentlər xalqın genetik yaddaşından süzülən inanc və təsəvvürlərlə bağlıdır. Sıxlığının orta və yaxud az olmasına baxmayaraq, bu xalçalar möhkəmliyi, qalınlığı və davamlılığı ilə seçilirlər. Naxçıvanın orijinal naxış kompozisiyasına malik xalça və xalça məmulatları Azərbaycanda və dünyanın bir sıra ölkələrinin muzeylərində, o cümlədən, şəxsi kolleksiyalarda saxlanılır.

Bu gün xalçaçılığın inkişafı məqsədi ilə tədris ocaqları yaradılıb. Yeni bina ilə təmin olunmuş Naxçıvan Dövlət Xalça muzeyi isə zəngin eksponatları ilə qonaqların ixtiyarına verilib. Burada Naxçıvan qrupuna aid çoxlu sayda əntiq xovlu və xovsuz xalça məmulatları saxlanılır.

"Azər-İlmə"nin tədqiqatçılarının gərgin və səmərəli axtarışlarının nəticəsi olan "Naxçıvan xalçaçıları" kitabı bu sahənin bir çox qaranlıq məqamlarına aydınlıq gətirir. Azərbaycan, rus və ingilis dillərində nəşr ediləcək bu nəfis tərtibatlı kitabı ekspedisiya materialları, Muxtar Respublikanın 7 rayonunun 68 kəndindən 254 toxucu haqqında məlumatlar daha da zənginləşdirir. Kitabda Şahbuzdan 31, Şərurdan 58, Babəkdən 49, Culfadan 37, Sədərəkdən 8, Kəngərlidən 35, Ordubaddan 36 toxucunun həyat və fəaliyyəti, habelə qədim abidələrdən, Gəmiqaya qayaüstü təsvirlərindən, şəxsi fantaziyalardan, yerli adət-ənənələrdən, inanclardan qaynaqlanan naxış-ornament, kompozisiya üslubu, təcrübəsi işıqlandırılıb. Şəxsi kolleksiyaları bəzəyən Naxçıvan şəhərindən 5, Babəkdən 5, Culfadan 5, Kəngərlidən 3, Ordubaddan 6, Sədərəkdən 4, Şahbuzdan 6, Şərurdan 10 xalça nümunəsi də oxuculara təqdim edilir.

"Azər-İlmə"nin ictimaiyyətə qürurla təqdim etdiyi layihələrindən biri olan "Azərbaycan xalçaları. Naxçıvan qrupu" adlı telefilmdə (Azərbaycan, rus və ingilis dillərində) Naxçıvanda xalçaçılıq sənətinin inkişafının səciyyəvi cəhətlərindən, rəngarəng ənənələrindən söhbət açılır.

"Azər-İlmə" hal-hazırda bu böyük zəhmət, maraqlı və rəngarəng axtarışlar tələb edən layihənin reallaşdırılması, Azərbaycan xalçaçılıq tarixinin öyrənilməmiş səhifələrinin araşdırılması yönündə gərgin yaradıcılıq işlərini davam etdirir.

**Vidadi Muradov**
dekorativ-tətbiqi sənət üzrə professor,
"Azər-İlmə"-nin rəhbəri

# AZƏRBAYCAN RESPUBLİKASI
# NAXÇIVAN
# MUXTAR RESPUBLİKASI




## ŞƏRTİ İŞARƏLƏR

YAŞAYIŞ MƏNTƏQƏLƏRİ

**NAXÇIVAN** — Naxçıvan Muxtar Respublikasının paytaxtı

**CULFA** — Rayon mərkəzləri

*Göydərə* — Digər yaşayış məntəqələri

SƏRHƏDLƏR

- Dövlətlərin
- Rayonların

NƏQLİYYAT YOLLARI

- Dəmir yolları
- Magistral
- Sair
- Yerli əhəmiyyətli avtomobil yolları

DİGƏR ŞƏRTİ İŞARƏLƏR

- ·3118 Yüksəklik göstəriciləri
- × Aşırımlar
- ✈ Aeroportlar

# NAXÇIVAN:

## QƏDİM ŞƏRQ SİVİLİZASİYALARININ QOVUŞDUĞU MƏKAN

Qədim tarixə, zəngin mədəniyyətə və çoxəsrlik milli dövlətçilik ənənələrinə malik türk-oğuz yurdu olan Naxçıvan diyarı əzəli və əbədi Azərbaycan torpağı, bəşər sivilizasiyasının beşiklərindən biri, Şərqin məşhur ticarət, sənətkarlıq, elm və mədəniyyət mərkəzlərindəndir. Naxçıvan qədim şərq sivilizasiyaları ilə sıx bağlı olmuş, tarixi inkişafın gedişində dərin iz qoymuşdur. Bu diyarda Azərbaycan xalqının zəngin tarixi, elmi və mədəni irsi formalaşmışdır.

Naxçıvan ərazisində aşkar edilən daş və tunc dövrü abidələri, Gəmiqayada sərt qayalar üzərində iki minə qədər müxtəlif quruluşlu işarə və təsvirlər, yüksək sənətkarlığı ilə seçilən boyalı qablar mədəniyyəti, qədim şəhərsalma mədəniyyətinin izləri bu yurdun ilkin sivilizasiya beşiklərindən biri olduğunu təsdiq edir.

Tədqiqatlar Naxçıvan ərazisində insanların son buzlaşma dövründən məskunlaşdıqlarını sübut edir. Naxçıvanın tarixi Urmiya gölü hövzəsi və Mesopotamiyada yaranan sivilizasiya ilə bağlı olmuşdur. Naxçıvan ərazisində 500-300 min il bundan əvvəl yaşamış ulu əcdadlarımız zəngin təbiətli çay vadilərində, dağ yamaclarında, mağaralarda məskunlaşmışlar. Qazma, Kilit, Daşqala, Ərməmməd mağaraları, I Kültəpə, Sədərək, Ovçulartəpəsi, Xələc, Duzdağ, Şahtaxtı, Nəhəcir kimi yaşayış yerləri bu ərazidə Neolit dövründən etibarən məskən salmış ibtidai insanların izlərini qoruyur. Gəmiqaya abidəsi, Əshabi-Kəhf dini və tarixi-memarllıq kompleksi Naxçıvanın ilkin məskunlaşma, eləcə də zəngin mədəniyyət mərkəzlərindən biri kimi əhəmiyyətini daha da artırır. Təsadüfi deyil ki, ilkin şəhər mədəniyyəti nümunəsi, bölgənin iri yaşayış məskəni olan Naxçıvan beş min il bundan əvvəl şəhər kimi formalaşmağa başlamışdır.[1] Bu ərazidə daş dövrü mədəniyyətinin izlərinə Batabat yaylağında, Naxçıvançay və Əlincəçay vadilərində, İlandağın cənub ətəyində, Qazma və Kilit mağaralarında, Ovçulartəpəsi yaşayış yerində və digər ərazilərdə, abidələrdə rast gəlinir.

Naxçıvan ərazisində Paleolit, Neolit və Eneolit dövrünə aid arxeoloji abidələr aşkar edilmişdir. İbtidai icma cəmiyyətinin sonrakı mərhələlərində (e.ə. XII-I minilliklərdə) Azərbaycanın Günortacı adlanan bu ərazisində davamlı və intensiv yaşayış olmuşdur. Məhz bu dövrdə yerli əhalinin kaspi antropoloji tipi formalaşmışdır.

E.ə. IV-II minilliklərdə Naxçıvan ərazisində meydana gələn iri tayfa ittifaqları Azərbaycan xalqının soykökünün formalaşması prosesində mühüm rol oynamışlar. Bunlar, başlıca olaraq, türk mənşəli kaspi, kadusi və naxçı tayfa ittifaqları idi. Mənbələrdə Urmiyadan Naxçıvana qədər olan ərazilərdə yaşayan mehran tayfası haqqında da məlumatlar vardır. Burada meydana gəlmiş tayfa birlikləri Azərbaycanın etnik-siyasi tarixində mühüm rol oynamışlar.

Naxçıvan diyarı Azərbaycanın ən qədim şəhər məskənlərindən biridir. Bu diyarın baş şəhəri olan Naxçıvan isə Şərqdə və bütün dünyada ən qədim şəhərlərdən biri hesab olunur.[2] Beş min ildən artıq tarixə malik olan Naxçıvan şəhəri sonralar Azərbaycanın iqtisadi, siyası və mədəni mərkəzlərindən birinə çevrilmişdir.[3]

Orta Tunc dövründə Naxçıvanda güclü tayfa ittifaqları formalaşmış, şəhər-dövlətlər yaranmışdır. Qədim Naxçıvan şəhərinin yaxınlığında e.ə. II minilliyin əvvəllərində mövcud olmuş Şahtaxtı, Qızılburun və Qarabağlarda şəhər tipli yaşayış yerlərinin[4] sakinləri Cənubi Qafqazın qonşu regionları, eləcə də Ön Asiya və Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələr yaratmışlar. Daxili və beynəlxalq ticarət əlaqələri e.ə. II-I minilliklərdə Naxçıvanın hərtərəfli inkişafına, digər mərkəzlərin qala-şəhərlərə çevrilməsinə gətirib çıxarmışdır.

"Naxçıvan" adının mənası barədə mütəxəssislər arasında hələlik yekdil fikir yoxdur. Bu ərazi müxtəlif tarixi dövrlərdə "Naksuana", "Naxç", "Nəşəva", "Nəxçəvan", "Nəqşi-cahan" və s. adlandırılmışdır. Xalq arasında geniş yayılmış bir rəvayətə görə, "Naxçıvan" toponimi Nuh peyğəmbərlə, daha doğrusu, "Dünya tufanı" ilə bağlı olmuş, "Nuhçuvan – "Nuh tərəfdarlarının məskəni" mənasını verir. Son illərin tədqiqatları da bu fikri təsdiq edir.

Naxçıvanın əlverişli geostrateji mövqeyi, mühüm karvan yollarının, o cümlədən "İpək yolu"nun üzərində yerləşməsi, habelə zəngin ticarət, sənətkarlıq mərkəzi olması, bölgənin məhsuldar torpaqları hələ eramızdan əvvəl qonşu dövlətlərin diqqətini cəlb etmişdi. Ona görə də Naxçıvan uzun illər ərzində bir-birini əvəz edən Manna, Midiya, Atropatena, Parfiya, Sasanilər, Ərəb xilafəti, Səlcuq və s. dövlətlərin tərkibində olmuş, bu dövlətlərin ən inkişaf etmiş əyalətlərindən birinə çevrilmişdir.

Naxçıvan e.ə. IX-VII əsrin sonlarına qədər Azərbaycan Manna dövlətinin tərkibində olmuşdur. Manna dövləti qonşu Assuriya və Urartu dövlətlərinə qarşı mübarizədə öz müstəqilliyini qoruyub saxlamışdır. Urartuya qarşı mübarizə e.ə. 820-810-cu illərə aid edilən İlandağ yazısında əks olunmuşdur. E.ə.820-600-cü illərdə Şərurda mərkəzi Oğlanqala olan qədim dövlət yaranmışdır. Manna dövlətinin süqutundan sonra Naxçıvan əvvəlcə Midiyanın (e.ə.VII əsrin sonları – e.ə.550-ci il), sonra isə Əhəməni imperiyasının (e.ə. 550-e.ə.330-cu illər) tərkibinə daxil olmuşdur. Əhəmənilər imperiyası Makedoniyalı İsgəndər (e. ə 336- e.ə. 323) tərəfindən süquta yetirildikdən sonra Naxçıvan yeni yaranan Atropatena dövlətinin tərkibində



qaldı. Ölkənin cənubunda Atropatena, şimalında isə Albaniya dövləti yarandı. Azərbaycan xalqının təşəkkül tarixində Atropatena dövləti mühüm bir mərhələ olmuşdur. Naxçıvan bu dövlətin əsas əyalətlərindən, iqtisadi və mədəni mərkəzlərindən biri idi.[5]

Antik dövrdə və eramızın ilk əsrlərində Naxçıvanda ictimai-iqtisadi, mədəni tərəqqi daha da sürətləndi. Şəhər xeyli genişlənərək Azərbaycanın əsas ticarət mərkəzlərindən biri olmuşdur. Antik dövrdə Naxçıvanla yanaşı, Gilan şəhəri də məşhur sənətkarlıq və ticarət mərkəzi olmuşdur. Oğlanqala, Govurqala, Qazançı qalası və s. qala-şəhərlər diyarın iqtisadi, siyasi, mədəni həyatında, xüsusilə Naxçıvana yadelli basqınlarının qarşısının alınmasında çox böyük rol oynamışdır.

E.ə.150-ci ildən eramızın III əsrinədək Naxçıvan Parfiya hökmdarlarının aramsız təzyiqinə qarşı rəşadətlə müqavimət göstərmişdir. E.ə. I əsrdə romalılar Cənubi Qafqaza yiyələnmək üçün parfiyalılarla müharibələr aparan zaman Naxçıvana böyük zərbə dəymiş, çoxlu yaşayış məntəqələri dağıdılmışdır. Bu dövrdə Naxçıvan barədə Roma və yunan müəlliflərinin əsərlərinə də məlumatlar daxil edilmişdir. İosif Flavi (e.ə. I əsr) və Klavdi Ptolemey (II əsr) öz əsərlərində Naxçıvan adını xatırladırlar.

Eramızın III əsrində İran Sasani dövləti (224-651) güclənməyə başladı. Regionda üstünlüyü ələ keçirmək uğrunda Sasani, Roma, sonra isə Bizans imperiyaları arasında dağıdıcı müharibələr baş verdi. Sasani dövləti Naxçıvanı ələ keçirdi. Bu dövrdə Naxçıvan torpaqları İran-Roma, sonralar isə Bizansla müharibələrdən xeyli əziyyət çəkdi, dağıntılara məruz qaldı.[6] Buna baxmayaraq, Naxçıvanın hərbi-strateji mövqeyi və ticarət yollarının üzərində yerləşməsi onun inkişafına təkan verdi. Sasanilər Naxçıvanı işğal etdikdən sonra naxçıvanlılardan ibarət hərbi dəstələri ləğv etmədilər. Onları yeni növ silahlarla təchiz etməyə başladılar. Yeni növ silahlar yerli sənətkarlar tərəfindən istehsal edilmiş silahlarla birgə istifadə edilirdi. Sasanilər Naxçıvanın Şərqi Roma imperiyasına coğrafi baxımdan yaxın olmasını nəzərə alaraq, dağıtdıqları qalaları yenidən bərpa etmək məcburiyyətində qaldılar. Onlar Şahbuz ərazisindəki qalanı bərpa edərək "Şapurqala" adlandırdılar.[7]

Sasanilərlə Roma arasındakı müharibə yeni müqavilə ilə nəticələndi. Bağlanmış sülh müqaviləsi nəticəsində Sasani qoşunları Naxçıvanı tərk etməli oldular. 387-ci ildə bağlanmış müqaviləyə görə, Naxçıvan yenidən Sasanilərin əlinə keçir. Burada Sasani mərzbanlarının iqamətgahı yerləşir, Sasani şahları adından sikkələr zərb olunurdu. Naxçıvan zərbxanası Azərbaycanda mövcud olmuş qədim zərbxanalardan sayılırdı. Burada "naxç" işarəsi ilə Sasani sikkələri zərb olunmuşdur.[8] Həmin dövrdə Naxçıvan şəhərində 30 minə qədər yaşayış evi və 150 min əhali vardı.[9]

VII əsrin I yarısında Bizans qoşunları Naxçıvan şəhərini mühasirəyə alsa da, şəhəri işğal edə bilmədi. Lakin Bizans ordusunun 625-ci ildə Naxçıvan üzərinə yürüşü faciəli oldu. Bizans ordusu şəhəri dağıtdı, Dəbili ələ keçirdi, Gənzədəki məşhur atəşgahı viran qoydu. Lakin bir müddətdən sonra Naxçıvan yenidən Sasanilərə qaytarılır.[10]

Ərəb xilafətinin yaranması dünya tarixində böyük dəyişikliklərə səbəb oldu. Ərəb istilası və islamın yayılması Azərbaycanın da həyatının bütün sahələrinə ciddi təsir göstərdi. VII əsrdə Cənubi Qafqazın digər regionları kimi, Naxçıvan da ərəb xilafətinin işğalına məruz qalmışdı. Ərəblərin Naxçıvan ərazisinə ilk hücumu plansız basqın xarakteri daşısa da, nəticə etibarilə ağır idi: kəndlər, obalar qarət edilmiş, əhalinin bir hissəsi öldürülmüş, bir hissəsi didərgin salınmışdı.[11] Naxçıvanın ərəblər tərəfindən işğalı mərhələli xarakter daşımış, Xilafət qüvvələri bu əraziyə bir neçə dəfə hücumlar etmişlər.[12]

Ərəblərin Naxçıvana hücumu Dəbilin (Dvinin) yenidən tabe edilməsindən sonra baş vermişdi. Həbib ibn Məsləmənin başçılığı ilə ərəb ordusu Naxçıvanı tutmuş və Ərəb xilafətinin tərkibinə daxil etmişdi. Ərəb sərkərdəsi Naxçıvan şəhərini ələ keçirərkən şəhər əhalisi qarşısında götürdüyü öhdəliklər barədə xüsusi müqavilə imzaladı.[13] "Rəhmli və mərhəmətli Allahın adı ilə. Bu fərman verilir Həbib ibn Məsləmə tərəfindən Nəşəva (Naxçıvan) şəhər əhalisinə onun şahid və qayib olan məzdi (atəşpərəstlik) və yəhudilərinə ki, mən sizin nəfsiniz, mallarınız, kilsələriniz, məbədləriniz və şəhər divarlarınızın təhlükəsizliyini təmin edəcəyəm. Siz amandasınız. Siz müqaviləni yerinə yetirib cizyə və xəracı ödəyənədək biz əhdə vəfa edəcəyik. Allahın şahidliyi ilə. Onun şahidliyi kafidir. Həbib ibn Məsləmə tərəfindən xətm olunmuşdur (möhürlənmişdir)".[14]

İslam dininin yayılması, ticarət və mədəniyyətin inkişafı üçün əlverişli şəraitin meydana gəlməsi Naxçıvanın da tərəqqisinə təsir göstərdi. Xəlifə I Müaviyənin hakimiyyəti dövründə (661-680) Naxçıvan şəhəri bərpa edildi. Naxçıvan şəhəri Ərəb xilafətinin Bizansa qarşı əsas dayaq məntəqələrindən biri idi. Ərəb işğalı dövründə Naxçıvanın bir neçə kəndinə köçürülən ərəb ailələri çox çəkmədən buranı tərk etdilər. Ərəb xilafətinin hakimiyyəti dövründə inzibati-ərazi bölgüsü baxımından bəzi dəyişikliklər baş versə də, Naxçıvan Azərbaycanın tərkib hissəsi olaraq qalmaqda idi. Bilindiyi kimi, ərəblər dövründə tarixi Albaniya ərazisi "Arran" adlanırdı. Ərəb müəllifi əl-İstəxri Arranın hüdudlarının Bab əl-Əbvabdan (Dərbənddən) Tiflisə, oradan isə Naxçıvan adlı ərazi də daxil olmaqla Araz çayına kimi uzandığını xəbər verir.[15]

Azərbaycanın qədim şəhəri olan Naxçıvanın özlərinə məxsus olduğunu iddia edən erməni "tədqiqatçıları" məsələni dolaşıq yollarla öz xeyirlərinə həll etməyə cəhd göstərirlər. Onlar Moisey Kalankatlının 698-ci ildə Məhəmməd ibn Mərvan tərəfindən Ermənistan ərazisində Bizans-erməni qoşunlarının məğlubiyyətə uğradılması və 80 erməninin Naxçıvana gətirilib kilsədə yandırılması faktına[16] əsaslanaraq, bu hadisənin guya Azərbaycan Naxçıvanında baş verdiyini və beləliklə həmin ərazinin ermənilərə məxsus olduğunu sübut etməyə çalışırlar. Əslində isə, Moisey Kalankatlının xatırlatdığı Naxçıvan Azərbaycan Naxçıvanı deyil, ondan daha qərbdə, Qars vilayətinin Kağızman mahalında Ani, Alyam, Mren yaşayış məskənləri yaxınlığında mövcud olan Naxçıvan, daha doğrusu, Qars Naxçıvanıdır. Azərbaycan Naxçıvanı ərəb inzibati ərazisinin birinci (həm də "Nəşəva" kimi tanınırdı), Qars Naxçıvanı isə üçüncü bölgəsinə daxil idi.[17]

Yadelli əsarətini qəbul etməyən Azərbaycan xalqı ərəblərin işğalçılıq siyasətinə qarşı azadlıq mübarizəsinə qalxdı. Babəkin başçılıq etdiyi azadlıq müharibəsinin (816-837) əsas mərkəzlərindən biri də Naxçıvan oldu.[18] Bu azadlıq müharibəsi Ərəb xilafətinin əsaslarını zəiflətdi.

IX əsrin sonlarına doğru Ərəb xilafətinin zəifləməsi nəticəsində Naxçıvan torpaqları əvvəl Sacilər (879-930), sonra isə Salarilər (941-981) dövlətlərinin tərkibinə daxil olmuşdu. Əsrin sonlarına yaxın ölkədə yaranmış siyasi vəziyyət zəminində Naxçıvanda müstəqil, yaxud yarımmüstəqil dövlət qurumu – "Naxçıvanşahlıq" meydana gəlir. 80 ilə yaxın mövcud olmuş bu dövlət qurumu Əbu Düləfilər tərəfindən idarə edilmişdir. Akademik N.Vəlixanlı qeyd edir ki, "Naxçıvanşahlıq" müstəqil dövlət yox, Şəddadilər dövlətinin tərkibində bir əmirlik olmuşdur.[19] Əbu Düləf dövlət başçısı deyil, yalnız Naxçıvanın hakimi – əmiri olmuşdur.[20] Naxçıvanşahlıq Salarilər dövlətinin son vaxtlarında meydana gəlmiş və Rəvvadilər dövləti ilə eyni vaxtda mövcud olmuşdur. Müasir Ordubad ilə Əylis arasında yerləşən Qoltan əmirliyinin hakimi Əbu Düləf 982-ci ildə Salarilərin son nümayəndəsi Dvin hakimi ibn İbrahimi məğlub edərək, Dvin (Dəbil), Naxçıvan və s. şəhərləri tutur və Vaspurakan da daxil olmaqla həmin ərazilərdə möhkəmlənməyə çalışır. Lakin o, buna nail ola bilmir. Onun nəvəsi Əbu Düləf sonralar Dvini yenidən tutur və "Naxçıvanşah" titulu qəbul edib şahlığı idarə edir. Azərbaycan şairi Qətran Təbrizinin qəsidələrindən göründüyü kimi, Naxçıvanşah Əbu Düləf Azərbaycan hakimi Rəvvadi Bəhsudan ilə dost olub onunla hərbi ittifaqa girmiş və müttəfiq qoşunlar Bizansa, eləcə də başqa düşmənlərə qarşı birgə vuruşmuşlar.

Azərbaycan xalqının ən möhtəşəm qəhrəmanlıq eposlarından biri olan "Kitabi-Dədə Qorqud"un yayıldığı tarixi-coğrafi ərazidə Naxçıvan özünəməxsus yer tutur.[21] Dastanın bir sıra qolları, bu qəhrəmanlıq eposunda cərəyan edən bir çox hadisələr bilavasitə Naxçıvanla bağlıdır.[22] "Kitabi-Dədə Qorqud"da adı çəkilən çoxsaylı toponimlərin Naxçıvanda və Naxçıvanın əhatəsindəki Qərbi Azərbaycan torpaqlarında olması bu diyarın ən qədim oğuz-türk torpaqlarından biri olduğunu göstərir. "Kitabi-Dədə Qorqud"da Naxçıvanda və bütövlükdə Qərbi Azərbaycan torpaqlarında ermənilərlə bağlı heç bir toponimə rast gəlinmir. Bu faktın özü də ermənilərin bu yerlərə çox sonralar köçüb gəldiklərini sübut edir. "Kitabi-Dədə Qorqud" dastanlarının misilsiz əhəmiyyətini nəzərə alan ümummilli lider Heydər Əliyev 1997-ci il aprelin 20-də bu qəhrəmanlıq eposunun 1300 illiyinin keçirilməsi haqqında fərman vermiş, yubiley beynəlxalq miqyasda qeyd olunmuşdur. Naxçıvanda "Dədə Qorqud" meydanı salınmış, abidə ucaldılmışdır.

Səlcuq hökmdarı Sultan Toğrulun (1038-1063) Böyük Səlcuq imperiyasını yaratması ilə dünya tarixində böyük dəyişikliklər baş verdi. Səlcuq hökmdarı Toğrul bəyin varisi Alp Arslan (1063-1072) Azərbaycanın cənub vilayətlərində Rəvvadilər sülaləsinin hakimiyyətinə son qoyduqdan sonra, 1064-cü ildə Naxçıvana yiyələnmişdir. Alp Arslanın oğlu Məlik şah və vəziri Nizam əl-mülk tərəfindən Naxçıvan qalaları fəth edilmiş və burada əmirlik yaradılmışdır.[23] Alp Arslan Naxçıvan şəhərində özünə xüsusi iqamətgah tikdirir. Səlcuqların Azərbaycandakı canişini Naxçıvanda yerləşirdi.[24]

Səlcuqları tədricən siyasi və iqtisadi qüdrət kəsb edən ayrı-ayrı atabəy sülalələri əvəz etdi. Böyük Səlcuq imperiyasının süqutundan sonra Azərbaycan ərazisində Eldəniz (1136-1175) tərəfindən əsası qoyulan Azərbaycan Atabəylər-Eldənizlər dövləti (1136-1225) yarandı.[25] 1146-cı ildə ölkədəki vəziyyətdən istifadə edən Atabəy Eldəniz Naxçıvan vilayətini öz torpaqlarına birləşdirir və həmin dövrdən etibarən Naxçıvan şəhəri və onun vilayəti Eldəniz nəslinin irsi iqtasına çevrilir. Eldənizlər dövlətinin tərkibinə Azərbaycan, Arran, Naxçıvan, Fars (Əcəm) İraqı, Rey, Həmədan və s. vilayətlər daxil idi. Naxçıvan, sərhəd vilayəti kimi, xüsusi rejimdə idi. Naxçıvan vilayəti "divan əl-xassə" və ya "divan əl-əla" adlanan Ali divana tabe idi. Atabəylərin xəzinəsi həmişə atabəyin olduğu yerdə saxlanılırdı. Əsas xəzinə isə Naxçıvan yaxınlığındakı Əlincə qalasında mühafizə olunurdu. Azərbaycan Atabəyləri dövlətinin mərkəzi şəhəri, paytaxtı XII əsrin 30-70-ci illərində Naxçıvan şəhəri olmuşdur. Eldənizlər dövlətinin banisi Şəmsəddin Eldənizin hakimiyyətinin ilk dövründən dövlətin siyasi, "padşahlıq" iqamətgahı Naxçıvan şəhərində yerləşmişdir. Azərbaycan hökmdarı Məhəmməd Cahan Pəhləvanın dövründə (1175-1186) Naxçıvan



hakimi Qızıl Arslan, onun ölümündən sonra isə arvadı Zahidə xatın idi. Cahan Pəhləvanın oğlanları Əbubəkr (1191-1210) və Özbəyin (1219-1225) hakimiyyəti dövründə paytaxt Təbriz olsa da, Naxçıvan iqtisadi və mədəni mərkəz kimi mühüm rol oynamışdır. Naxçıvan öz əhalisinin sayına görə Yaxın Şərqin tanınmış iri şəhərləri ilə eyni səviyyədə olmuşdur. Naxçıvan şəhərində, təxminən, 150-200 min əhali yaşamışdır. Məhəmməd Naxçıvani şəhərin bu dövrü haqqında yazır ki, "Təbrizdən və Bağdaddan sonra Naxçıvan kimi cəlallı və əzəmətli şəhər yox idi".[26] Naxçıvan Azərbaycanın iqtisadi, siyasi və mədəni mərkəzlərindən biri kimi dünya miqyasında şöhrət qazanmışdı. Şəhərin mərkəzi hissəsində Möminə xatın türbəsi inşa edilmişdi. Buradakı meydanın ətrafında bir sıra binalar kompleksi – hökmdarın sarayı, Böyük Cümə məscidi və ticarət binaları yerləşirmiş. Memar Əcəminin ucaltdığı Yusif Küseyir oğlu və Möminə xatın türbəsi Şərq memarlığının nadir inciləri sayılır. Naxçıvan memarlığı Atabəylər dövründə xüsusi məktəbə çevrildi. Onun banisi Əcəmi ibn Əbu Bəkr ən Naxçıvani idi. Onun yaratdığı Möminə xatın türbəsi nəinki Azərbaycan, hətta dünya memarlığının nadir incilərindən hesab olunur. Türbənin qurşağında aşağıdakı yazı həkk olunmuşdur: "Mərhəmətli və rəhmli Allahın adı ilə! Bu məqbərəni dünyanın ədalətli hökmdarı Əzəmətli, qalib Şəmsəddin, Nüsrət Əl-islam vəl-müslimin Cahan Pəhləvan Atabəy Əbu Cəfər Məhəmməd ibn Atabəy Eldəniz Dünyanın və dinin böyüklüyü, islamın və müsəlmanların paklığı, Möminə xatın (xətrinə) – hər şeydən yüksək Allah ona rəhm etsin! Beş yüz səksən ikinci ilin məhərrəm ayında (24.III – 22.IV-1186-cı il) tikildi".

Naxçıvan haqqında məlumat verən XIII əsr qiymətli mənbələrindən birində – "Əcaib-əd-Dünya"da ("Dünyanın qəribəlikləri") deyilir: "Naxçıvan – Azərbaycanda şəhərdir, böyükdür və əhalisi çoxdur, hündür yerdə yerləşir, çox möhkəmləndirilmişdir. Çoxlu saraylar, şəhərkənarı qəsrlər – köşklər və təmtəraqlı eyvanlar tikilib; şəhərin yanında daşdan qala tikiblər, qalada mədrəsə, məscid inşa ediblər; qalada şirin sulu bulaq var. Deyirlər ki, yer üzündə bundan çox əhalisi olan şəhər yoxdur; bütün tikililər gəcdən və bişmiş kərpicdəndir. Köşklərin çoxu qalalar kimi üç və dördmərtəbəlidir. Şəhərətrafı (savad) çox gözəldir, axar suyu, bağları və yaşıllığı çoxdur. Araz çayı şəhərin hüdudlarından axır. Əlahəzrət Eldənizin mübarək zamanında şəhər özünün ən yüksək əzəmətinə çatdı. Orada hökmdarın iqamətgahı (dar əl-mülk) və hökumət binaları (dövlətxanalar) tikildi".[27]

Monqolların yürüşü (1221) nəticəsində zəifləyən Atabəy-Eldənizlər dövlətini Xarəzmşah Cəlaləddin süquta yetirdi. Naxçıvan Xarəzmşah tərəfindən işğal olundu. Bu, 1231-ci elədək davam etdi. Monqolların ikinci yürüşü (1231-1239) ilə Azərbaycanda monqol ağalığı bərqərar oldu. Naxçıvan XIII-XIV əsrlərdə Azərbaycanda və ümumiyyətlə, Şərqdə gedən siyasi-iqtisadi, mədəni proseslərin mərkəzlərindən birinə çevrilir. Hülakülərin, Çobanilərin, Cəlairilərin nüfuz dairələrində olan Naxçıvan siyasi həyatda fəal iştirak edir.

Beşinci monqol ulusu Hülakülər dövləti yarandıqda (1256) Azərbaycan dövləti bu torpaqların tərkibinə daxil edildi.[28] Naxçıvan o zaman Azərbaycanın cənub torpaqlarının inzibati-ərazi baxımından bölündüyü doqquz tüməndən biri idi. Həmdullah Qəzvini (1282-1345) həmin tümənlərdən səkkizinin – Təbriz, Ərdəbil, Pişkin, Xoy, Sarab, Marağa, Mərənd və Naxçıvan tümənlərinin adını çəkir və onların hər biri barədə müfəssəl məlumat verir.[29] Çoxmənalı "tümən" termini ilə orta əsrlərdə on min döyüşçünü birləşdirən hərbi bölüm, on min dinara bərabər pul vahidi və on min əsgər verə biləcək inzibati-ərazi vahidi nəzərdə tutulurdu. Naxçıvan bölgəsi Azərbaycanın bir tüməni idi və dövlətə on min döyüşçü vermək qüdrətinə malik idi. Naxçıvan tüməninə Azərbaycanın 27 iri şəhərindən 5-i – Naxçıvan, Ordubad, Azad, Əncan və Makuyə şəhərləri daxil idi.

Naxçıvan tüməni geniş ərazini – Araz çayının şimal və cənub tərəflərini əhatə edirdi. Naxçıvan diyarı Makudan Qafan dağlarına kimi olan geniş ərazini əhatə edir və Xoy, Mərənd, Pişkin tümənləri və Qarabağla hüdudlanaraq Göyçə gölünə qədər uzanırdı. Maku və Qafan əraziləri də Naxçıvan tüməninə daxil idi. Naxçıvanın qərb hüdudlarına Dvin şəhəri də daxil idi. Ərəb coğrafiyaşünası Yaqut Həməvinin (1179-1229) yazdığına görə, Dvin "Arran vilayətində, Azərbaycanın uzaq hüdudlarında" yerləşir.[30] Fəzlullah Rəşidəddinin (1247-1318) məlumatına görə, Qafan ərazisi də Naxçıvan tüməninə daxil idi.[31]

Yazılı mənbələrdə Naxçıvan ərazisində və ətrafında, adı çəkilən şəhərlərdən başqa, bir sıra toponimlərin adlarına da təsadüf olunur. Vənənd, Qarabağlar, Giran, Culahə, Şahbuz, Şərur, Əlincə, Sürməli, Gərni, Tazmap, Fəqnan və s. kimi yaşayış məskənləri, qalalar və istehkamlar, Əshabi-Kəhf mağarası, Araz çayı, Xudafərin və Ziyaülmülk körpüləri və i.a. barədəki qeydlər diqqəti cəlb edir.

Naxçıvanda və onun ətrafında Əlincə, Sürməli, Gərni, Tarmap, Fəqnan və s. kimi qala və istehkamlar mövcud olmuşdur. Öz möhtəşəmliyi, strateji mövqeyi, təbii şəraiti ilə fərqlənən Əlincə XIII-XIV əsrlərdə Azərbaycanda fəaliyyət göstərmiş dövlətlərin tarixində, eləcə də xalqımızın azadlıq mübarizəsində əvəzolunmaz rol oynamışdır. XIV əsrin sonuncu rübündə baş verən siyasi hadisələrin mərkəzində Əlincənin xüsusi yeri vardır. Bu, Teymurun hücumları və qalanın müdafiəsi ilə bağlıdır. Həmin dövrdə qa-

lanın hakimi sultan Tahir Cəlairi, qala kutvalları (sərkərdələri) isə Xacə Cövhər, Əmir Altun və sonra Əhməd Oğulşayi olmuşlar. Qala 14 il (1387-1401) Teymur qoşunlarının həmlələrinə sinə gərmişdir. Qalaya 4 dəfə (1387, 1393, 1397, 1400-cü illərdə) kəskin hücumlar olmuşdur. Lakin hər dəfə Teymurun qoşunu məyus halda geri dönməli olmuşdur. Teymurilərə qarşı mübarizədə hürufilər mühüm rol oynayırdı. Hürufiliyin banisi, böyük Azərbaycan mütəfəkkiri Fəzlullah Nəimi 1394-cü ildə Teymurun oğlu Miranşah tərəfindən Naxçıvanda öldürüldü. On dörd illik qəhrəmanlıq mübarizəsindən sonra Əlincə qalası da daxili çəkişmələr nəticəsində süquta uğradı. Bu hadisədən bir müddət sonra Teymur Təbrizdən Naxçıvana gəlib Əlincə qalasının başına çıxaraq onu seyr etmiş və qalanın əzəməti onu heyran qoymuşdu.[32]

Naxçıvan XIII-XIV əsrlərin mürəkkəb tarixi şəraitinə baxmayaraq, sosial-iqtisadi və mədəni cəhətdən inkişaf edirdi. Kənd təsərrüfatı, sənətkarlıq və ticarət sahələrində mühüm irəliləyişlər nəzərə çarpırdı. Həmin dövrdə Naxçıvan, Ordubad, Culfa şəhərləri Azərbaycanın həyatında mühüm yer tuturdu. Naxçıvanda görkəmli dövlət, elm və mədəniyyət xadimləri fəaliyyət göstərirdi. Əslən naxçıvanlı olan görkəmli Azərbaycan alimi Nəsirəddin Tusi dünyanın elm korifeyləri sırasında layiqli yer tutmuşdur.[33]

XV əsrdə Naxçıvan diyarı türk mənşəli Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin, XVI əsrdə 230 ilə qədər Azərbaycan Səfəvilər dövlətinin tərkibinə daxil olmuşdur. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ərazisi Ərəb İraqı, Əcəm İraqı, Azərbaycan, Kürdüstan, Diyarbəkir, Luristan, Fars, Kirman və b. vilayətlərlə yanaşı, Ermənistanı da əhatə edirdi. Naxçıvan bu dövrdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olmuşdur. Bəhs olunan dövrdə Ermənistan ərazisi "Çuxur-Səd" adı ilə tanınır. Çuxur-Səd geniş ərazini – Araz çayı vadisinin hər iki tərəfini – şimal-qərbdə Suragöl, şimal-şərqdə Göyçə gölü, cənub-qərbdə Qars, cənub və cənub-şərqdə Sürməli, Naxçıvan, Maku və bəzən də Bəyazid ərazisini əhatə etmişdir.[34]

Orta əsrlərdə Azərbaycanın ən geniş əraziləri əhatə etdiyi dövr Səfəvilərin hakimiyyəti illərinə təsadüf edir. 280-300 min kv.km-lik Azərbaycan ərazisi inzibati-ərazi bölgü baxımından 4 bəylərbəyliyə bölünmüşdü: Şirvan, Qarabağ, Təbriz və Çuxur-Səd. Naxçıvan 1501-ci ildə Səfəvilər dövlətinin tərkibinə daxil olaraq, Azərbaycanın mühüm iqtisadi, siyasi və mədəni mərkəzlərindən biri kimi tanınmışdır.[35] Azərbaycan Səfəvi dövlətində "Naxçıvan ölkəsi" əvvəllər Təbriz bəylərbəyliyinin, sonra isə Çuxur-Səd bəylərbəyliyinin tərkibində olmuşdur. Səfəvi şahları Naxçıvan ölkəsinin idarəsini ən güclü dayaqlarından biri olan türk-qızılbaş tayfası – Ustacluların bir qolu olan Kəngərli tayfası başçılarına həvalə etmişdilər. Kəngərli tayfa başçıları XIX əsrin 20-ci illərinə qədər Naxçıvanın irsi hakimləri olmuşdur. Naxçıvan Səfəvi-Osmanlı müharibələri dövründə dağıdıcı təsirə məruz qaldı. XVI əsrin 50-ci illərində Naxçıvan şəhəri Osmanlı qoşunları tərəfindən qarət edilmiş və yandırılmışdır.[36] II Şah İsmayılın hakimiyyəti dövründə (1576-1577) Naxçıvan şəhəri Səfəvilərin hakimiyyəti altında olmuş, XVI əsrin sonlarında yenidən Osmanlı qoşunlarının hücumlarına məruz qalmışdır. 1590-cı ildə Səfəvilərlə Türkiyə arasında sülh müqaviləsi bağlandı. Azərbaycanın bir sıra şəhərləri ilə birlikdə Naxçıvan da müvəqqəti olaraq Osmanlı imperiyasının hakimiyyəti altında qaldı. I Şah Abbas (1587-1629) həmin torpaqları İranın tərkibinə qaytarmaq uğrunda mübarizəyə başladı. Yenidən genişlənən Səfəvi-Osmanlı müharibələri Naxçıvanın həyatına ağır zərbə vurur. 1605-ci ildə Osmanlı dövləti I Şah Abbasa qarşı böyük ordu göndərdi. Bu vaxt İran şahı zorakılıqla Naxçıvan əhalisini Dizmar və Qarabağ vilayətlərinə, Culfa əhalisini isə İsfahana köçürmüşdür. Naxçıvan ölkəsindən 70 mindən çox adam sürgün edilmişdir.[37] Bu faciəli hadisə tarixdə "Böyük sürgün" adlandırılmışdır.

Yalnız 1639-cu il sülh müqaviləsi bərpa işlərinə imkan yaratdı. Sülh müqaviləsindən sonra – 1647-ci ildə Naxçıvan şəhərinə Rzaəddin, 1678-ci ildən Şərif xan, 1691-ci ildən Məhəmmədrza xan hakim təyin edildi. Hələ I Şah Abbas Naxçıvan və digər Azərbaycan torpaqlarını osmanlılardan geri almağa nail olmuşdu.

I Şah Abbasın dövründə vəzir təyin edilmiş Hatəm bəy Ordubadi böyük Səfəvi imperiyasının idarə olunmasında mühüm rol oynamışdı. I Şah Abbas 1606-cı ildə Ordubada səfərindən sonra şəhəri soyurqal kimi ona bağışlamış, Hatəm bəy isə burada geniş quruculuq işləri aparmışdı. I Şah Abbasın fərmanı ilə (1607) ordubadlılar vergilərdən azad edilmişdilər.[38] Həmin fərmanın kitabəsi indiyədək qalmaqdadır.

Rus imperatoru I Pyotrun Cənubi Qafqaza yürüşü Osmanlı imperiyasını da fəallaşdırır. Osmanlı imperiyası 1723-cü ilin yazından öz ordularını Cənubi Qafqaza və Qərbi İrana yeridir. 1723-cü ilin sentyabrında osmanlılar Naxçıvan, sonra isə Ordubad şəhərini ələ keçirirlər. Naxçıvan torpaqları 1735-ci ilədək Osmanlı Türkiyəsinin hakimiyyəti altında qalır. Osmanlı inzibati-ərazi bölgüsünə əsasən, Naxçıvan "Naxçıvan sancağı" adı ilə tanınır. Naxçıvan ərazisinin çox hissəsi Naxçıvan sancağına daxil idi. Osmanlılar ilhaq etdikləri ərazilərdə əhalinin və onun gəlirlərinin müfəssəl siyahısını tərtib edirdilər. O cümlədən, 1727-ci ildə Naxçıvan sancağının iki nüsxədən ibarət "Müfəssəl dəftəri" tərtib olunur. Burada Naxçıvanın inzibati-ərazi bölgüsü, vergilərin miqdarı, əhalinin sayı və s. haqqında mötəbər məlumatlar verilir. Həmin məlumatlarda Naxçıvan sancağının Naxçıvan, Əlincə, Sair Məvazi, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürgüt, Sisyan və Dərələyəz nayihələrinin adları çəkilir. Osmanlılar Səfəvilər dövründə Naxçıvanın tərkibində olan Zor, Zəbil və Şərur nahiyələrini sancağın tərkibindən çıxararaq, İrəvan əyalətinə birləşdirmişdilər.[39] Naxçıvan sancağının 9.788 nəfər vergi verən əhalisi xəzinəyə hər il 2.629.059 axça ödəyirdi.[40] O dövrdə Naxçıvan sancağı 315 yaşayış məntəqəsini əhatə edirdi. Buraya indiki Naxçıvan MR-in ərazisi, Ermənistan Respublikasının Yexeqnadzor rayonu, Cermuk rayonunun yarısı, Sisyan rayonunun böyük bir hissəsi, Mehri də daxil olmaqla rayonun bir neçə yaşayış məntəqəsi aid idi.

XVIII əsrin 30-cu illərində İranda Nadirin nüfuzu artır. Azyaşlı III Şah Abbas 1736-cı ildə öldürülür. Elə həmin il Nadir Muğanda özünü şah elan edir və bundan sonra Azərbaycanın bütün ərazisini vahid Azərbaycan vilayətində birləşdirir. Naxçıvanda Kəngərli tayfası Nadir şaha itaətsizlik göstərdiyindən, bu tayfanın bəzi nümayəndələri Əfqanıstana köçürüldülər. Naxçıvan diyarının idarəsi iki nəfərə tapşırıldı; onlardan biri "hakimi-ölkəye Naxçıvan", digəri "hakimi-tümən-i Naxçıvan" adlandırıldı.[41]

1747-ci ildə Nadirin öldürülməsi ilə imperiya dağıldı. Naxçıvan, faktiki olaraq, müstəqil feodal-dövlətə – xanlığa çevrildi. Həmin il Kəngərli tayfasının başçısı Heydərqulu xan özünü Naxçıvan diyarının müstəqil hakimi elan etdi.

Naxçıvan xanlığının ərazisi indiki Naxçıvan Muxtar Respublikasının ərazisindən xeyli böyük olub, Dərələyəz və Zəngəzur torpaqlarının da çox hissəsini əhatə edirdi. Xanlığın tərkibində 7 mahal (Əlincə, Əylis, Bəlləv, Dəstə, Dərələyəz, Xok, Ordubad) və 2 şəhər (Naxçıvan, Ordubad) vardı. Xanlıqlar dövründə ara müharibələri, çəkişmələr, hakimiyyət uğrunda mübarizələr ənənəvi hal almışdı. Qonşu dövlətlərin müdaxiləsi, habelə xanlıqda hakimiyyəti ələ keçirmək uğrunda ara verməyən saray çəkişmələri Naxçıvan xanlığının zəifləməsinə səbəb oldu. Yalnız Kalbalı xanın (1787-1820) hakimiyyəti dövründə xanlıqda müəyyən sabitlik yarandı. Naxçıvan xanlığının sonrakı taleyi İran-Rusiya münasibətləri zəminində müəyyənləşdi və nəhayət, 1828-ci il fevralın 10-da bağlanmış Türkmənçay sazişinə görə, xanlığın ərazisi Rusiyaya ilhaq olundu.

1828-ci il martın 21-də çar I Nikolayın fərmanı ilə, keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "erməni vilayəti" adlanan uydurma inzibati ərazi vahidi yaradıldı. "Erməni vilayəti"ni qərargahı İrəvanda yerləşəcək rus generalı idarə etməli idi. Ehsan xan Kəngərli Naxçıvanın naibi kimi 1840-cı ilə qədər bu diyarı idarə etdi. 1840-cı ildə Ehsan xan özünün bütün imtiyazlarını və Kəngərli süvari alayının başçısı vəzifəsini saxlamaqla, naiblikdən istefa verdi.

Bu, I Nikolayın real vəziyyəti nəzərə almadan, ənənəvi ermənipərəst siyasətə əsasən erməni dövləti yaratmaq istəyinin nəticəsi idi. Lakin çarizm Rusiya imperiyası daxilində belə bir siyasətin özünü doğrultmadığına tezliklə əmin oldu.[42] 1840-cı ilin aprelində çar hökuməti Zaqafqaziyada inzibati islahata dair qanun verdi. 1841-ci il yanvarın 1-dən qüvvəyə minən bu qanuna əsasən, komendant üsul-idarəsi ləğv olundu və burada ümumi Rusiya inzibati sistemi tətbiq edildi. Buna uyğun yaradılan Naxçıvan qəzası Ordubad mahalı ilə birlikdə Gürcüstan-İmeretiya quberniyasının tərkibinə daxil edildi. Bu zaman Naxçıvan qəzasının sahəsi 4378 kv.km, əhalisi isə 86.878 nəfər idi. Qəza Naxçıvan, Ordubad, Dərələyəz, Culfa, Şahbuz və s. kimi yaşayış məntəqələrindən ibarət idi.

Çar Rusiyasının geosiyasi məqsədlərinə müvafiq olaraq, Naxçıvan qəzası 1849-cu ildə Qərbi Azərbaycandakı İrəvan quberniyasına birləşdirildi. Bununla belə, İrəvan quberniyasının tərkibində də Naxçıvana müstəqil idarəçilik statusu verilmişdi. Şərur-Dərələyəz ərazisi və Ordubad dairəsi də yeni yaradılan İrəvan quberniyasına birləşdirilmişdi. 1870-ci ildə İrəvan quberniyasının tərkibində, əhalisinin demək olar ki, hamısı azərbaycanlılardan ibarət olan Şərur-Dərələyəz qəzası təşkil edildi. Azərbaycanın tarixi əraziləri olan İrəvan, Naxçıvan, Göyçə, Şərur-Dərələyəz, Yeni Bəyazid əraziləri İrəvan quberniyasının tərkibində idi.

Göründüyü kimi, tarixi Naxçıvan torpaqları çar Rusiyası tərəfindən dəfələrlə inzibati-ərazi dəyişikliyinə məruz qalmış, keçmiş xanlıq torpaqlarının böyük bir hissəsi Naxçıvan qəzasına daxil edilmişdir. Eyni zamanda, Naxçıvan ərazisinin məqsədyönlü şəkildə erməniləşdirilməsi siyasəti həyata keçirilirdi. İran və Türkiyədən ermənilər Azərbaycanın qədim torpaqlarına, o cümlədən, Naxçıvana köçürülür, əhalinin etnik tərkibi qəsdən dəyişdirilirdi. Lakin Naxçıvan əhalisi bu qəddar siyasətə qarşı qəhrəmanlıqla mübarizə aparır, ermənilərin doğma torpaqlarında möhkəmlənməsinə yol vermirdilər.

Rusiya imperiyasının köçürmə siyasəti nəticəsində Naxçıvanda ermənilərin sayı artsa da, əhalinin əksəriyyəti yenə də azərbaycanlılardan ibarət idi. Köçürülən ermənilər Naxçıvan əyalətinin 6, Ordubad dairəsinin 11 kəndində məskunlaşdırıldı. Naxçıvan şəhərində 416 ailə, Əbrəqunusda 36, Bənəniyarda 43, Qazançıda 22, Xəlillidə 24, Kültəpədə 70, Nehrəmdə 208, Cəhridə 151, Ayrıncda 31, Qarabağlarda 24, Külüsdə 13, Nursudə 30, Şahbuzda 20, Gecəzurda 14, Məzrədə 22, Əylisdə 37, Aza, Dar, Dizə və Dırnısda 182 ailə yerləşdirildi. Köçkünlərdən 2285 ailə əyalətin Naxçıvan mahalında, 226 ailə isə Ordubad mahalında yerləşdirildi.[43] Rusiya imperiyasının köçürmə siyasəti nəticəsində Naxçıvan dairəsinin mahalları üzrə 1830-cu illərdə əhalinin etnik tərkibi belə idi: Əlincə mahalı üzrə

azərbaycanlılar 400 təsərrüfat, 1830-cu ildən əvvəl köçürülüb gətirilən ermənilər 120, həmin ildən sonra köçürülənlər də 120 təsərrüfat idi. Dərələyəz üzrə bu rəqəmlər, müvafiq olaraq 1283, 58, 731; Naxçıvan mahalı üzrə 1884, 309,1207; Naxçıvan şəhəri üzrə 905,156, 269 idi. Xok mahalında azərbaycanlılar 292, ermənilər isə cəmi 43 təsərrüfat idi.[44] Ordubad dairəsinə və Şərura aid olan məlumatlar da təsdiq edir ki, göstərilən bütün cəhdlərə baxmayaraq, Naxçıvan əhalisinin etnik tərkibini ermənilərin xeyrinə dəyişdirmək mümkün olmamışdı.

Naxçıvan bölgəsi əhalisinin sayı 1917-ci ildə 170.142 nəfər idi. Onlardan 122.208 nəfəri Naxçıvan qəzasında, 40 min nəfəri Şərurda, 8.934 nəfəri isə Naxçıvan şəhərində yaşayırdı.[45]

I rus inqilabı illərində Rusiyada yaranmış vəziyyət çar hökumətini millətlərarası münasibətləri qızışdırmağa sövq etdi. Azərbaycanın müxtəlif şəhərlərində ermənilər azərbaycanlılara qarşı soyqırım siyasətinə başladılar. Nəticədə naxçıvanlılar kütləvi qırğınlara və zorakılıqlara məruz qalmış, erməni quldurlarına və onların himayəçisi olan çar hakimiyyəti dairələrinə qarşı qəhrəmancasına mübarizə aparmışdılar. Naxçıvan tarixinin bu qanlı faciələri, ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımlar əslən Naxçıvandan olan böyük Azərbaycan yazıçısı M.S.Ordubadinin "Qanlı illər" kitabında konkret faktlarla əks olunmuşdur.[46]

I Dünya müharibəsi illərində bütün Azərbaycan torpaqları kimi Naxçıvan diyarı da tarixin ən ağır sınaqları ilə üz-üzə qaldı. Naxçıvan öz hərbi-siyasi mövqeyinə görə böyük dövlətlərin maraq dairəsinə daxil idi. Digər tərəfdən, "böyük Ermənistan" xülyasına düşən erməni millətçiləri Şərqi Anadolu ilə yanaşı, Naxçıvan da daxil olmaqla, bütün Şimali Azərbaycanı ələ keçirməyə çalışırdılar.

1917-ci il fevral inqilabının qələbəsindən sonra Naxçıvanda da müvəqqəti hökumətin orqanları təşkil edildi. Eyni zamanda Naxçıvan şəhərində, Culfa, Şahtaxtı dəmiryolu stansiyasında və s. yerlərdə bolşeviklərin yeni hakimiyyət orqanları – sovetlər yaradıldı. İmperiyanın bir çox əyalətlərində olduğu kimi, Naxçıvanda da ikihakimiyyətlilik mövcud idi. Zaqafqaziyanı müvəqqəti olaraq idarə etmək üçün Xüsusi Zaqafqaziya Komitəsi yaradıldı.[47] Mərkəzi Tiflis şəhəri, beş nəfər üzvündən yalnız biri azərbaycanlı olan hökumətin böyük bir regionu idarə etmək imkanı yox idi. Həmin hökumətin Naxçıvandakı yerli komitəsi də diyarı idarə etmək və bu ərazidə əmin-amanlığı qorumaq iqtidarında deyildi. 1917-ci ilin oktyabrında Rusiyada baş verən bolşevik çevrilişi və rus ordularının diyarı tərk etməsindən sonra bölgədə vəziyyət sürətlə pisləşməyə, ictimai-siyasi sabitlik pozulmağa başladı. Naxçıvan diyarının müsəlman-türk əhalisi silahlanmış, yaxşı təşkil olunmuş təcavüzkar əhvali-ruhiyyəli ermənilər, quldur daşnak dəstələri ilə üz-üzə qaldı.

Çar Rusiyasının on illər boyu düşmən gözü ilə baxdığı, hərbi xidmətdən kənarlaşdırdığı müsəlman türklərindən fərqli olaraq, Qafqazın erməni əhalisi çar ordusunda xidmət edirdilər. 1918-ci ilin əvvəllərində və sonrakı iki ildə xarici imperialistlərin, erməni daşnak hökumətinin maddi və mənəvi köməyi ilə ermənilər Naxçıvan bölgəsində azərbaycanlılara qarşı dəhşətli qırğınlar törətdilər. Arxiv materiallarından məlum olur ki, 1918-1920-ci illərdə erməni cəlladları 73 mindən artıq müsəlman sakini qətlə yetirmişdir. Naxçıvanda Müsəlman Milli Şurasının katibi olmuş Mirzə Bağır Əliyev 1918-1920-ci illərin hadisələrindən bəhs edən gündəlik yazmış və həmin gündəlik "Qanlı günlərimiz" adı ilə kitab kimi çap edilmişdir.[48]

1918-ci il may ayının 28-də Azərbaycan xalqı öz dövlət müstəqilliyini bərpa edərək müsəlman Şərqinin ilk demokratik respublikasını – Azərbaycan Xalq Cümhuriyyətini yaratdı. AXC dövründə ölkədə və onun ətrafında siyasi vəziyyət çox mürəkkəbləşdi. 1918-ci ilin iyununda Andranik Ozanyanın quldur dəstələri Naxçıvana basqın edərək dinc əhaliyə qarşı vəhşiliklər törətdilər. Silahlı erməni quldurları təkcə Gilançay və Əlincəçay vadisində 80-dən artıq kəndi viran qoymuş, əhalini amansızlıqla qətlə yetirmişdilər. Müsəlman Milli Şurası, onun Cəfərqulu xan, Rəhim xan, Kamran xan, Kalbalı xan kimi qəhrəman üzvləri və yerli əhali igidliklə mübarizə aparmış, kömək üçün Osmanlı Türkiyəsinə müraciət etmişdilər. 1918-ci il iyulun əvvəlində qəhrəman türk generalı Kazım Qarabəkir paşanın qoşunları yerli əhali ilə birlikdə erməni cəlladlarını məğlub edib Naxçıvandan qovdular. Lakin I Dünya müharibəsində məğlub olan Türkiyə Mudros barışığına (30 oktyabr, 1918) əsasən, öz qoşunlarını Cənubi Qafqazdan, eləcə də Naxçıvandan çıxarmağa məcbur oldu. Türk qoşunlarının diyarı tərk etməsindən sonra – 1918-ci ilin noyabrında Naxçıvanda paytaxtı Naxçıvan şəhəri olan Araz-Türk Respublikası yaradıldı. Onun ərazisi 8,6 min kv.km, əhalisi isə 1 milyon nəfərə yaxın idi.[49] Bu respublikanın hüdudları Naxçıvan, Şərur-Dərələyəz qəzalarını, Ordubad mahalını, habelə Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və s. əraziləri əhatə edirdi.[50] Cümhuriyyətin Nazirlər Şurasının sədri Əmir bəy Əkbərzadə, Hərbi naziri isə İbrahim bəy Cahangiroğlu idi. Araz-Türk Respublikası bölgəni və onun əhalisini erməni basqınlarından qorumaq məqsədi ilə silahlı dəstələr yaratmış və düşmənə qarşı fəal hərbi əməliyyatlar keçirmişdir. Düşmən əhatəsində qalmış Araz-Türk Respublikası özünü Azərbaycan Xalq Cümhuriyyətinin tərkib hissəsi hesab edir və Bakı ilə əlaqələr yaratmaq üçün bütün imkanlardan yararlanırdı.

1919-cu ilin əvvəllərində daşnak hökumətinin təhriki ilə ingilislər Naxçıvana daxil oldular və burada ingilis general-qubernatorluğu elan etdilər.[51] İngilislər tərəfindən sıxışdırılan Araz-Türk Respublikası 1919-cu ilin martında süqut etdi. Bu Respublika az yaşasa da, mühüm tarixi xidmətləri ilə əbədiləşdi. Araz-Türk Respublikası bölgənin azərbaycanlı əhalisinin qüvvələrini düşmənlərə qarşı səfərbər etməkdə mühüm rol oynamış, əhalinin daşnaklar tərəfindən məhv edilməsinin qarşısını almış, ən başlıcası isə bölgənin ermənilərin əlinə keçməsinə imkan verməmişdi.

İngilislər Naxçıvanı Ermənistana "vermək" istəyirdilər. Naxçıvan Müsəlman Milli Şurası ermənilərlə ümumxalq mübarizəsinə qalxdı. Kalbalı xanın rəhbərliyi ilə xalq qoşunu ermənilərə sarsıdıcı zərbə vurdu və avqustun 30-da (1919-cu il) ermənilər Naxçıvandan qovuldu. Bundan sonra AXC hökuməti Səməd bəy Cəmillinskini Naxçıvan bölgəsinin general-qubernatoru təyin etdi. Səməd bəy dərhal idarəetmə strukturları yaratmağa başladı. Bu zaman Naxçıvanda Amerika general-qubernatorluğunun yaradılmasına təşəbbüs edilsə də, yerli əhali buna imkan vermədi. Zəngəzurun itirilməsi (23 noyabr, 1919) Naxçıvanı çətin vəziyyətə salsa da, onu erməni işğalından qorumaq mümkün oldu.

1920-ci il aprelin 28-də Azərbaycanın Rusiya tərəfindən işğalı ilə Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. İyulun 28-də Naxçıvanda Sovet hakimiyyəti quruldu. M.Bəktaşov, A.Qədimov, F.Mahmudbəyov, Q.Babayev və b-dan ibarət Hərbi İnqilab Komitəsi yaradıldı. HİK-nin 1920-ci il avqustun 10-da Azərbaycan SSR XKŞ-nın sədri N.Nərimanova göndərdiyi məktubda deyilirdi: "Naxçıvan diyarı zəhmətkeşlərin böyük əksəriyyətinin arzu və tələblərini nəzərə alaraq, özünü Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi elan etmişdir".[52]

1920-ci ilin sentyabrında Naxçıvana daşnak hərbi hissələrinin hücumu başladı. Naxçıvanlılar erməni hücumlarının qarşısını aldılar. Sentyabrın 18-də Ordubad, noyabr-dekabr döyüşləri nəticəsində isə Şərur azad edildi.

Sovet Rusiyası da Naxçıvanı Ermənistana birləşdirmək üçün bütün vasitələrdən istifadə edirdi. İ.Stalin, Q.Orconikidze, S.M.Kirov, G.Çiçerin və b. bu istiqamətdə gərgin iş aparırdılar. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra Naxçıvan üçün təhlükə daha da artdı. Naxçıvan əhalisinin inadlı müqaviməti və mübarizəsi sayəsində antiazərbaycan siyasəti baş tutmadı. Nəticədə, Ermənistan Hərbi İnqilab Komitəsi 1920-ci il dekabrın 28-də Naxçıvanı müstəqil sovet respublikası kimi tanıdı və daşnaklar bu ərazi ilə əlaqədar iddialarından imtina etdiklərini bəyan etdilər.[53]

Öz daşnak xələfləri kimi, erməni bolşevikləri də Moskvadakı havadarlarının köməyilə Naxçıvana qarşı ərazi iddiaları irəli sürməkdə davam edirdilər. Burada da Naxçıvanın tarixi müqəddəratını qəti olaraq həll edəcək son qərarı yerli əhali və Türkiyə dövləti verdi.

Naxçıvanın və Zəngəzurun Ermənistan ərazisinə qatılması barədə Ermənistan hökuməti ilə sovet Rusiyası arasında razılaşma əldə edilmişdi. Ermənistan SSR hökuməti Naxçıvanı ilhaq etmək üçün yeni cəhdlər göstərirdi. Lakin 1921-ci ilin yanvarında Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə keçirilmiş rəy sorğusunda Naxçıvan əhalisinin 90%-dən çoxu Naxçıvan mahalının muxtariyyət statusunda Azərbaycan SSR-in tərkibində qalmasına razılığını bildirdi.[54]

1920-ci ilin aprel ayından başlayaraq Türkiyə ilə Rusiya arasında münasibətlərdə mülayimləşmə hiss olunurdu. Bundan istifadə edən Türkiyə hökuməti həm XIX əsrin 70-ci illərində itirilmiş torpaqları geri qaytarmağı, həm də Rusiyanın yardımından faydalanaraq istiqlal mübarizəsində qalib gəlməyi düşünürdü. Bu məqsədlə də Rusiya ilə danışıqlar aparmaq üçün Bəkir Sami bəyin başçılığı ilə nümayəndə heyəti Moskvaya göndərilmişdi. Bir qədər sonra Yusif Kamal bəyin başçılığı ilə Moskvaya daha bir nümayəndə heyəti göndərildi. Hər iki danışıqda Naxçıvan məsələsinə də xüsusi əhəmiyyət verilmişdi. Danışıqlarda Azərbaycan SSR-in RSFSR-dəki fövqəladə və səlahiyyətli nümayəndəsi B.Şahtaxtinskinin də mühüm xidmətləri olmuşdu.[55] Nəticədə 1921-ci il martın 16-da iki ölkə arasında "Dostluq və qardaşlıq haqqında" Moskva müqaviləsi imzalandı. Müqavilə 16 maddədən və 2 əlavədən ibarət idi. Müqavilənin 3-cü maddəsində deyilirdi: "Razılığa gələn hər iki tərəf Naxçıvan vilayətinin hazırkı Müqavilənin I (C) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın protektoratlığı altında muxtar ərazi yaratmasına razıdırlar, o şərtlə ki, Azərbaycan bu protektoratlığı üçüncü dövlətə güzəştə getməməlidir".[56] Bu maddə Naxçıvanın taleyinin həll edilməsində tarixi əhəmiyyətə malik oldu. Naxçıvan məsələsi özünün ədalətli həllini tapdı və Azərbaycan ərazisinin bütövlüyü, qismən də olsa, qorunmuş oldu.

Moskva müqaviləsinin şərtləri 1921-ci il oktyabrın 13-də Rusiya nümayəndəsinin iştirakı ilə Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan arasında bağlanmış Qars müqaviləsi ilə daha da möhkəmləndirildi. Müqavilədə yenə də Naxçıvanın Azərbaycanın tərkibində saxlanılması və ona muxtariyyət verilməsi məsələsi təsbit olunmuşdur. Lakin Moskva müqaviləsindən fərqli olaraq, Qars müqaviləsinin 5-ci maddəsində Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflər müəyyən edilmişdir. Bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri idi.[57]

1920-1922-ci illərdə Azərbaycan, formal da olsa, müstəqil idi. 1922-ci ilin martında Zaqafqaziya Respublikalarının Federativ İttifaqı yarandı. Həmin ilin dekabrında isə Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR ZSFSR-də birləşdi. Dekabrın 30-da hər üç respublika ZSFSR tərkibində SSRİ-yə daxil oldu. Bununla Azərbaycan SSR-in suveren hüquqları məhdudlaşdırıldı. Naxçıvanın Azərbaycan SSR tərkibində muxtariyyətinin təsbit edilməsi, ləng də olsa, həyata keçirildi.

1922-ci il yanvarın 25-də Naxçıvan diyarının I Sovetlər Qurultayı Naxçıvan İnqilab Komitəsini ləğv etdi, Naxçıvan İcraiyyə Komitəsi və Naxçıvan SSR Xalq Komissarları Soveti yaratdı. 1923-cü il fevralın 27-də III Ümumnaxçıvan Sovetlər Qurultayı Naxçıvan SSR-in muxtariyyət hüquqları əsasında Azərbaycan SSR tərkibinə daxil edilməsi haqqında qərar qəbul etdi və Azərbaycan MİK-ə müraciət ünvanladı. Azərbaycan MİK-in III sessiyası bu müraciəti təsdiq etdi.

1923-cü ilin 16 iyunundan Naxçıvan SSR-in statusu məhdudlaşdırıldı və o, Naxçıvan Muxtar Diyarına çevrildi.[58] 1923-cü ilin sonunda Naxçıvan Muxtar Diyarının Muxtar Respublikaya çevrilməsi məsələsi irəli sürüldü. Azərbaycan MİK 1923-cü il dekabrın 31-də bu barədə qərar qəbul etdi. Zaqafqaziya MİK-in 1924-cü il yanvarın 8-də keçirilən I Plenumu bu qərarı təsdiqlədi. 1924-cü il yanvarın 18-də Naxçıvan MSSR-in hakimiyyət orqanları təşkil edildi.[59]

1924-cü il fevralın 9-da Azərbaycan SSR MİK-nin dekreti ilə Naxçıvan Muxtar Diyarı Naxçıvan MSSR-ə çevrildi. Beləliklə, ermənilərin Naxçıvanın Azərbaycandan qoparılmasına yönəlmiş düşmənçilik niyyətləri boşa çıxdı, Naxçıvanın Azərbaycanın ayrılmaz tərkib hissəsi olması və onun Azərbaycan dövlətçiliyindəki yeri öz ədalətli hüquqi qiymətini aldı.

Naxçıvan Muxtar Respublikasının sahəsi tarixi Naxçıvan ərazisinin yalnız 5.988 kv. km-ni əhatə edirdi. 1929-1930-cu illərdə və bundan sonra Kreml rejimi Moskva və Qars müqavilələrinin qərarlarına zidd olaraq Naxçıvana qarşı ermənilərin yeni ərazi iddialarını həyata keçirdi. Nəticədə Muxtar Respublikanın ərazisi daha da azaldıldı. Təkcə 1929-cu ildə Zaqafqaziya MİK-in qərarı ilə Naxçıvanın 657 kv. km ərazisi – Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzası Şahbuz nahiyəsinin Oğbin, Ağxaç, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qorçevan, habelə Kilit kənd torpaqlarının bir hissəsi Ermənistana verildi.[60] Hazırda Naxçıvan Muxtar Respublikasının ərazisi 5,5 min kv. km-dir.[61] Bu, Azərbaycan Respublikası ərazisinin 6,2%-idir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycan Respublikası Konstitusiya Komissiyasının 1998-ci il yanvarın 14-də keçirilən iclasında demişdir: "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün, ona xidmət edən böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq".[62]

Sovet hakimiyyəti illərində Naxçıvan əhalisi olduqca ağır siyasi, sosial-iqtisadi və mədəni problemlərlə üzləşmişdir. Hələ 1925-ci ilin martında Naxçıvan MSSR-in hakimiyyət srtukturlarındakı "xan-bəy elementlərinin" fəaliyyətini araşdırmaq üçün Xalq Daxili İşlər Komissarı M.Bağırovun rəhbərliyi ilə Naxçıvana xüsusi komissiya göndərilmişdi. "Qara siyahıya" adı düşən 50 məsul işçidən 48-i repressiyaya məruz qalmışdı. Komissiyanın qərarı ilə, 13 rəhbər işçi partiyadan xaric edildi, 40 nəfər həbs edilərək xüsusi vaqonda Bakıya aparıldı və cəzalandırıldı, bir neçəsi güllələndi.[63]

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev qeyd etmişdir ki, "bizim xalqımız XX əsrdə çox faciələrlə rastlaşıbdır. Bunların içərisində Naxçıvanın başına gələn bəlalar, bəlkə, Azərbaycanın başqa bölgələrindən daha da dəhşətli, faciəli olubdur... Azərbaycan hakimiyyəti tərəfindən Naxçıvana qarşı ədalətsizliklər də olubdur... Naxçıvanın hüquqlarını daim məhdudlaşdırmaq istəyiblər".

1920-30-cu illər Naxçıvan tarixinin ağır dövrlərindəndir. Həmin illərdə Naxçıvanın idarə edilməsi ilk vaxtlar Azərbaycan MİK-in 1924-cü ilin aprelində qəbul etdiyi Əsasnamə ilə tənzimlənirdi. Həmin əsasnamə 1926-cı il aprelin 18-də Ümumnaxçıvan Sovetlər Qurultayının qəbul etdiyi Naxçıvan MSSR-in birinci Konstitusiyasınadək qüvvədə olmuşdur. Sonra isə SSRİ və Azərbaycan SSR Konstitusiyalarının dəyişdirilməsi ilə əlaqədar olaraq, 1937-ci il sentyabrın 17-də Naxçıvan MSSR-də yeni Konstitusiya qüvvəyə minmişdir.

Naxçıvan MSSR 1941-1945-ci illlər müharibəsi dövründə faşizm üzərində qələbəyə layiqli töhfələr vermişdir.[64] Keçmiş ittifaqın digər xalqları kimi Naxçıvan torpağının 30 mindən çox yetirməsi də sinələrini sipər edərək Hitler ordusuna qarşı mərdliklə döyüşmüş, onlardan 15 mindən çoxu bu döyüşlərdə öz həyatlarını qurban vermişdir; yüzlərlə naxçıvanlı döyüşçü müharibənin ön cəbhələrində rəşadətlər göstərmiş, əsgəri şöhrət qazanmış, üç nəfər – Qəzənfər Əkbərov, Nəcəfqulu Rəfiyev, Abbas Quliyev Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, minlərlə igid müharibə cəbhələrində faşizmə qarşı şərəflə vuruşmuşdur. Azərbaycan xalqının, eləcə də naxçıvanlıların II Dünya müharibəsində faşizm üzərində qələbəyə göstərdiyi tarixi xidmətlərə baxmayaraq, ölkənin mənəvi-siyasi həyatında ciddi dəyişikliklər baş vermədi. Sovet hökuməti Azərbaycana qarşı ədalətsiz siyasətini, biganəliyi davam etdirdi. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən – öz ata-baba torpaqlarından deportasiyası həyata keçirildi. 1968-1969-cu illərdə ermənilər Azərbaycana qarşı yeni ərazi iddiaları irəli sürdülər. Lakin Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev ermənilərin bu planlarının reallaşdırılmasına imkan vermədi.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər respublikanın, o cümlədən Naxçıvanın həyatında yüksəliş dövrü kimi xarakterizə olunur. Bu illərdə Naxçıvan diyarı yenidən quruldu, tikildi, inkişaf etdi. Naxçıvan MSSR qabaqcıl sənaye, kənd təsərrüfatı, elm və mədəniyyət mərkəzinə çevrildi. Naxçıvanın sosial-iqtisadi, siyasi və mədəni həyatında böyük dirçəliş baş verdi. Bu dövrdə SSRİ və Azərbaycan SSR Konstitusiyalarına uyğun olaraq, Naxçıvan MSSR-in də yeni Konstitusiyası (1978-ci il) qəbul edildi. Böyük inkişafın nəticəsi idi ki, 1980-ci ilin sonuna yaxın Muxtar Respublikada məhsul istehsalı 1924-cü ilə nisbətən 180 dəfədən çox artmışdı. Mənzil tikintisi sahəsində də irəliləyiş müşahidə olunurdu. Belə ki, təkcə Naxçıvan şəhərində 45 min nəfər əhalinin yaşadığı yeni yaşayış massivləri salınmışdı.

Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsində ermənilərin Azərbaycandan, o cümlədən Naxçıvan Muxtar Respublikasından yeni ərazilər qoparmaq planları baş tutmadı. Lakin Heydər Əliyev Azərbaycan rəhbərliyindən uzaqlaşdırıldıqdan sonra, 1985-ci ildə bu bədnam niyyət baş tutdu: digər Azərbaycan əraziləri ilə birlikdə Naxçıvan torpaqlarının bir qismi də Ermənistan SSR-ə verildi.

XX əsrin 80-ci illərinin sonlarında respublikada siyasi vəziyyət xeyli mürəkkəbləşdi. Sovet imperiyasının süqut etməkdə olduğu bir vaxtda İttifaq rəhbərliyinin ikiüzlü siyasəti, ermənilərin təcavüzkar meyllərini dəstəkləmələri milli münaqişələrə rəvac verdi. Moskvanın bu himayədarlığından yararlanan erməni daşnakları bir tərəfdən Dağlıq Qarabağ Muxtar Vilayətini "mənimsəmək", Ermənistana qatmaq üçün açıq-aşkar mübarizəyə başladılar, digər tərəfdən isə azərbaycanlıları öz ata-baba yurdu olan, indi "Ermənistan" adlandırılan Qərbi Azərbaycandan zorla, silah gücünə, vəhşiliklə qovdular. Bu hadisələr zamanı qovulan azərbaycanlıların bir hissəsi də Naxçıvanda yerləşdirildi. Qeyd etməliyik ki, Heydər Əliyevin SSRİ-nin ali rəhbərliyindən uzaqlaşdırılmasından dərhal sonra Dağlıq Qarabağın Azərbaycandan qoparılması uğrunda aqressiv separatçılıq hərəkatı başlandı.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun Bakıda dinc əhaliyə divan tutmasından bir neçə saat əvvəl Naxçıvan erməni təcavüzkarlarının hücumuna məruz qaldı. Qanlı Yanvar günlərində Azərbaycan ilk şəhidlərini Naxçıvanda verdi. Kərki kəndi ermənilər tərəfindən işğal edildi. SSRİ rəhbərliyinin riyakar mövqe tutması səbəbindən, xalqın tələbi ilə Naxçıvan MSSR Ali Soveti o zaman üçün misli-bərabəri olmayan cəsarətli bir qərar qəbul etdi – Naxçıvan MSSR-in SSRİ tərkibindən çıxdığı elan edildi! Moskvada isə 1990-cı il 20 Yanvar qırğınına ilk düzgün siyasi qiyməti həmin faciənin səhəri gün Ulu Öndər Heydər Əliyev verdi.

Vətənin dar günündə özünü Bakıya yetirən və Kreml rejiminə yarınan Azərbaycan rəhbərliyinin xəyanəti nəticəsində paytaxtda qala bilməyən Heydər Əliyev 1990-cı il iyulun 22-də Naxçıvana gəldi. Ulu Öndərin Naxçıvana qayıtması əhalinin böyük sevincinə və ruh yüksəkliyinə səbəb oldu. Uzaqgörən siyasətçi 1990-1993-cü illərdə Naxçıvanı ermənilərin işğal təhlükəsindən xilas etdi. Sovet İttifaqının dağılmasından sonra Naxçıvan Muxtar Respublikasının Ermənistanın təcavüzündən müdafiəsində, son dərəcə çətin vəziyyətdə bölgənin idarə olunmasında Heydər Əliyevin Naxçıvan dövrü fəaliyyəti müstəsna əhəmiyyət kəsb edir. Bu dövrdə böyük əhəmiyyət daşıyan qərarların qəbul edilməsi tariximizin ən parlaq səhifələrindəndir. Heydər Əliyevin sədrliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan MR Ali Məclisinin I sessiyası məhz onun təşəbbüsü ilə Naxçıvan MSSR-in adından "Sovet" və "Sosialist" sözlərini çıxardı, diyarın bundan sonra "Naxçıvan Muxtar Respublikası" adlandırılması qərara alındı, Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ildə qəbul etdiyi dövlət bayrağı Naxçıvan MR-in Dövlət bayrağı kimi təsdiqləndi, Bakıda baş vermiş 1990-cı ilin 19-20 yanvar hadisələrinə siyasi qiymət verildi, 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edildi və s.

Naxçıvanda fəaliyyət göstərən Heydər Əliyev, eyni zamanda, bütün Azərbaycanın ümid çırağı idi. Onun 1991-ci ilin fevralında Ali Sovetin sessiyasında çıxışı, SSRİ-nin saxlanılmasına dair referendumun Naxçıvanda keçirilməməsi buna parlaq sübutdur. 1991-ci il sentyabrın 3-də, şəxsi etirazlarına baxmayaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Heydər Əliyevi sədr seçdi. Naxçıvanda sovet hakimiyyəti ləğv edildi. Azərbaycan Respublikası prezidenti seçkilərini Naxçıvanda keçirməmək haqqında qərar qəbul olundu. Ali Məclisin 5 sentyabr tarixli iclasında Muxtar Respublikanın xalq təsərrüfatında yaranmış gərgin vəziyyəti normallaşdırmaq və böhrandan çıxarmaq tədbirləri müzakirə edildi;[65] Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası tarixinin məna və mahiyyətinə görə bir-birindən kəskin surətdə fərqlənən iki dövrü bir-birindən ayrıldı – sovet dövrü başa çatıb, xalqın arzusunda olduğu müstəqillik dövrü başlandı. Naxçıvanda yeni Azərbaycanın quruculuğu prosesi gedirdi. Bu tarixi prosesə Ulu Öndər Heydər Əliyev başçılıq edirdi.

Müstəqillik hər bir xalqın ən böyük arzusudur. Azərbaycanın yenidən istiqlaliyyət əldə etməsi xalqın böyük nailiyyəti idi. Hakimiyyət çəkişmələri və siyasi hərc-mərcliyin baş alıb getdiyi Bakıdan fərqli olaraq, Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvan istiqlal mübarizəsi və yeni həyat quruculuğunun önündə gedirdi. Məhz ilk dəfə Naxçıvanda SSRİ-nin tərkibindən çıxmaq haqqında qərar qəbul olunmuş, SSRİ-nin saxlanılması haqqında referenduma etiraz edilmişdi. Yeni, müstəqil Azərbaycanın qurulması prosesi Naxçıvanda uğurla davam etdirilirdi. Rəsmi Bakı isə Heydər Əliyev dühasından, Naxçıvan təcrübəsindən faydalanmaq

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

əvəzinə, Naxçıvana təzyiq göstərmək, Muxtar Respublikanın hüquqlarını məhdudlaşdırmaq yolunu tutmuşdu. Bu dövrdə Azərbaycan Respublikası Konstitusiyasının 112-ci maddəsinin Naxçıvan MR Ali Məclisinin Sədrinə aid bəndinin çıxarılmasına, ümumiyyətlə, Naxçıvanın muxtariyyətinin ləğv edilməsinə cəhdlər göstərilmişdi. Lakin bütün bu cəhdlər uğursuzluqla nəticələnmişdi. Naxçıvan Muxtar Respublikası tarixin bu mürəkkəb sınaq mərhələsində də Heydər Əliyevin müdrikliyi və qətiyyəti sayəsində öz muxtariyyətini qoruyub saxlaya bildi. Və bu, sonralar 1998-ci il Konstitusiyasında təsbit olundu.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Bakıda hakimiyyət çəkişmələri şəraitində siyasi hərc-mərclik və xaosun baş alıb getdiyi halda, Naxçıvanda sabit hakimiyyət formalaşmışdı. Blokada şəraitində yaşayan Naxçıvanda sosial-iqtisadi və mədəni sahələrdə qazanılmış nailiyyətlər qorunur, müstəqillik şəraitində onlara yeni məzmun vermək uğrunda qətiyyətli mübarizə gedirdi. Ulu Öndərin rəhbərliyi ilə Muxtar Respublikanın idarəçilik sisteminin təkmilləşdirilməsi, sosial-iqtisadi islahatların hazırlanması və həyata keçirilməsi, blokadanın aradan qaldırılması üçün həmsərhəd ölkələr, xüsusilə Türkiyə ilə münasibətlərin yeni səviyyədə qurulması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilirdi. 1992-ci il mayın 28-də Sədərəkdə Naxçıvanla Türkiyə arasında körpünün açılışı xüsusilə böyük əhəmiyyətə malik idi. Heydər Əliyev bu körpünü "arzu və ümidlərimizin körpüsü" adlandırmışdı. Ulu Öndərin möhkəm iradəsi, qətiyyəti, dövlətçilik təcrübəsi sayəsində Naxçıvanın ərazi bütövlüyü qorunub saxlanıldı, sərhədlərinin təhlükəsizliyi təmin edildi. Artıq 1993-cü ilin yayına doğru Naxçıvan möhkəm dövlətçiliyin, siyasi sabitliyin hakim olduğu bir bölgə idi. Elə buna görə də 1993-cü ilin iyun hadisələri zamanı bütün respublikanın diqqəti Naxçıvana yönəldi və xalqın tələbi ilə Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev Bakıya gəldi (9 iyun, 1993), respublikanın siyasi hakimiyyətində dəyişiklik baş verdi, vətəndaş müharibəsinin, separatçı qüvvələrin fəaliyyətinin qarşısı alındı, sabitlik və əmin-amanlıq yaradıldı, sosial-iqtisadi islahatların həyata keçirilməsinə başlanıldı. Heydər Əliyev Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra da Naxçıvan Muxtar Respublikasında Heydər Əliyevin əsasını qoyduğu islahatlar uğurla davam etdirildi.

Azərbaycanın müstəqilliyi dövründə Naxçıvan MR tarixində ən mühüm siyasi hadisələrdən biri də onun müasir tarixi inkişafında əldə etdiyi nailiyyətləri təsbit edən yeni Konstitusiyasının qəbulu olmuşdur. Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının yeni Konstitusiyasının layihəsini hazırlayan komissiya öz işini başa çatdırmış və 1995-ci il noyabrın 12-də keçirilən ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul olunmuşdur; Azərbaycan və Naxçıvan parlamentlərinə ilk demokratik seçkilər keçirilmişdir. Naxçıvan MR Ali Məclisinin 1995-ci il dekabrın 16-da keçirilən ilk sessiyasında Ulu Öndərin sədaqətli silahdaşı V.Y.Talıbov Naxçıvan MR Ali Məclisinin Sədri seçildi.

Azərbaycan Konstitusiyasının VIII fəsli (134-141-ci maddələr) bilavasitə Naxçıvan Muxtar Respublikasına həsr edilmişdir.[66] 1998-ci ilin yanvarında Heydər Əliyevin sədrliyi ilə keçirilən Azərbaycan Respublikası Konstitusiya komissiyasının iclasında Naxçıvan Muxtar Respublikasının Konstitusiya layihəsi müzakirə olunmuşdur.[67] Həmin iclasda Heydər Əliyev demişdir: "Beləliklə, biz həm Azərbaycanın qanunvericiliyi sahəsində çox ciddi addım atırıq, həm də ki, bu məsələləri nizamlayırıq. Yəni müstəqil Azərbaycan dövlətinin, respublikasının tərkibində Naxçıvan Muxtar Respublikası böyük tarixi mərhələlərdən keçərək, nəhayət, özünə uyğun, özünəməxsus bir status, bir yer alacaqdır. Bu, bu gün üçün də, gələcək üçün də lazımdır".[68]

1998-ci il dekabrın 26-da Naxçıvan MR-in yeni Konstitusiyası hazırlandı və Milli Məclis tərəfindən təsdiq edildi.[69]

Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı, müasir dünyanın görkəmli dövlət xadimi İlham Əliyevin 2003-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçilməsi ölkənin həyatında böyük tarixi hadisə oldu. 1993-cü ilin iyununda olduğu kimi, Azərbaycan xalqı yenə öz sözünü dedi: xalq öz taleyini və doğma Vətəninin müqəddəratını Heydər Əliyevin ən yaxın silahdaşı İlham Əliyevə etibar etdi. 2003-2013-cü illərdə İlham Əliyevin Prezidentliyi dövründə Azərbaycan Respublikası sosial-iqtisadi inkişaf tempinə görə dünyada lider dövlətə çevrilmiş, ölkənin hərtərəfli inkişafına nail olunmuş, Azərbaycan islahatlar ölkəsi kimi tanınmış, BMT-nın Təhlükəsizlik Şurasının üzvü statusu qazanmış, kosmik sənaye ölkəsinə çevrilmiş, ölkə iqtisadiyyatı 3 dəfə yüksəlmiş, Cənubi Qafqazın ən güclü və modern dövlətinə çevrilmişdir. Prezident İlham Əliyev bütün ölkənin, o cümlədən Naxçıvan MR-in hərtərəfli inkişaf etdirilməsinə daim diqqət yetirmişdir.

Ümummilli Liderin müəyyən etdiyi siyasi xətt və quruculuq strategiyası, İlham Əliyevin yeni islahatlar proqramı Muxtar Respublikada uğurla həyata keçirilir. Bu sahədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun ardıcıl və prinsipial dövlətçilik fəaliyyətini, onun başçılığı ilə həyata keçirilən böyük quruculuq işlərini xüsusilə qeyd etməliyik.

Naxçıvan Muxtar Respublikası heç vaxt sosial-iqtisadi və mədəni inkişaf göstəricilərinə görə indiki səviyyədə olmamışdır.

Naxçıvan Muxtar Respublikası hazırda Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur və Kəngərli kimi yeddi inzibati rayonu əhatə edir. Muxtar Respublikada Naxçıvan, Ordubad, Culfa, Şahbuz, Şərur şəhərləri, 8 qəsəbə və 206 kənd vardır.[70]

Naxçıvan bütün tarixi dövrlərdə Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi onun tarixi taleyini birgə yaşamış və yaşamaqda davam edir. Erməni işğalları nəticəsində Naxçıvanın Azərbaycanın digər torpaqlarından ayrı salınması, son illərdə isə Muxtar Respublikanın ermənilər tərəfindən blokadaya alınması onu böyük çətinliklərlə üz-üzə qoymuşdur. Lakin uzun sürən ağır blokada şəraiti Naxçıvanın və naxçıvanlıların iradəsini qıra bilməmiş, əksinə, onları daha da mətinləşdirmişdir. Məhz Naxçıvanda həyata keçirilən qətiyyətli tədbirlər nəticəsində ermənilər Qarabağdakı işğalçılıq siyasətini burada reallaşdıra bilməmişlər.

Naxçıvanın keçdiyi qədim və uzun tarixi inkişaf yolunun hər bir səhifəsi aydın sübut edir ki, bu diyar ən qədim zamanlardan türk yurdu kimi Azərbaycana məxsus olmuşdur, onun ayrılmaz tərkib hissəsidir və Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən biridir.

Azərbaycan torpağı olan Naxçıvan bu gün dinamik inkişaf yolu ilə irəliləyən Azərbaycan Respublikasının tərkibində dünya birliyinə uğurla inteqrasiya edən çox mühüm bir diyardır.

Aparılan uğurlu siyasət regionun Azərbaycanın tərkibində ərazi bütövlüyünün qorunub saxlanılmasına, milli dövlətçilik strukturunun möhkəmləndirilməsinə və Naxçıvan diyarının Şərqin qapısı kimi daha da inkişaf etdirilməsinə geniş imkanlar açır. Artıq indi Naxçıvan MR yüksək inkişaf tempinə görə əvvəlki dövrlərdən fərqlənir. Naxçıvan Muxtar Respublikası respublikanın ayrılmaz tərkib hissəsi kimi onun ictimai-siyasi, iqtisadi-mədəni həyatı ilə həmahəng şəkildə tarixi inkişaf yolunu uğurla davam etdirir.

## Mənbələr:


1. Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi (20-24 iyul 2011-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan: "Əcəmi" NPB, 2012, s.6.
2. Əliyev V. Qədim Naxçıvan. Bakı, 1979; yenə onun, Naxçıvan şəhərinin yaranması tarixi və onun tədqiqi problemi // Naxçıvan tarixinin səhifələri. Bakı, 1996, s.51-54; Əliyev V., Bağırov R. Naxçıvanın qədim qala şəhərləri, Bakı, "Elm", 2012.
3. Həbibbəyli İ. Naxçıvan şəhərinin yaşı – beş min il // Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik. Bakı, "Nurlan", 2007, s.20-27; Seyidov A. Naxçıvan 5000. Bakı, "Qismət", 2011.
4. Baxşəliyev V. Naxçıvanın arxeoloji abidələri. Bakı, "Elm", 2008, s.5.
5. Əliyev V. Naxçıvan – Azərbaycanın tarixi diyarıdır. Bakı, XXI _- Yeni Nəşrlər Evi, 2002, s.37.
6. Şükürov K. Qədim türk diyarı – Naxçıvan / "Xalq qəzeti", 2004, 2 mart, №50 (24617).
7. Novruzlu Ə. Qədim türk diyarının min illərdən gələn sorağı. Naxçıvan orta əsrlərdə / "Xalq qəzeti", 1999, 14 avqust, № 196 (23249).
8. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü). Bakı, "Elm", 1977, s.32.
9. Никитин К.А. Город Нахичевань и Нахичеванский уезд. СМОМПК, вып. II, Тифлис, 1882, с.113.
10. Məmmədov R. Göstərilən əsəri, s.29-33.
11. Vəlixanlı N. Naxçıvan – ərəblərdən monqollaradək (VII-XII əsrlər). Bakı, "Elm", 2005, s.12.
12. Vəlixanlı N. Göstərilən əsəri, s.12.
13. Балазури. Книга завоевания стран. Арабский текст и перевод с арабского на русский язык проф. П.К.Жузе. Баку, 1927, с.5.
14. Vəlixanlı N. Göstərilən əsəri, s.16.
15. Kalankatuklu Moisey. Albaniya tarixi. Bakı, 1993, s.180-190.
16. Bünyadov Z.M. Azərbaycan Atabəylər dövləti. Bakı, 1985, s.191-194; Vəlixanlı N. Ərəb xilafəti və Azərbaycan. Bakı, 1993, s.34-37.
17. Bünyadov Z.M. Göstərilən əsəri, s.219-257.
18. Историческая география Азербайджана. Баку, 1987, с.59.
19. Vəlixanlı N. Göstərilən əsəri. s. 66-72.
20. Vəlixanlı N. Azərbaycan feodal dövlətləri dövründə Naxçıvanın siyasi durumu (IX əsrin II yarısı – XI əsr). // Azərbaycan Tarixi Muzeyi – 2004 ("Xəbərlər" jurnalı), Bakı, "Elm", 2004, s.13-19.
21. Babayev S. Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri. Bakı, 1999, s.208-209.
22. Kitabi-Dədə Qorqud. Tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə F.Zeynalov və S.Əlizadənindir. Bakı, 1988.
23. İzzəddin İbn əl-Əsir. Əl-kamil fi-t-tarix. (Ziya Bünyadovun nəşri). Bakı, 1996, s.143-149.
24. Məmmədov R. Göstərilən əsəri, s.70-72.

25. Bünyadov Z. Göstərilən əsəri.
26. Məhəmməd ibn Hinduşah Naxçıvani. Dəstur-əl-katib fi təyin əl-məratib. Moskva, 1971, I c., II hissə, s.467.
27. Ön və Orta Asiya türklərinin tarixinə dair dörd anonim mənbə. Bakı, "Nurlan", 2003, s.135-136.
28. Dövr haqqında bax: Ализаде А.А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку, 1956; Piriyev V.Z. Azərbaycan Hülakülər dövlətinin tənəzzülü dövründə (1316-1360). Bakı, 1978; yenə onun, Azərbaycan XIII-XIV əsrlərdə. Bakı, 2003.
29. Həmdullah Qəzvini. Nuzhət əl-qulub. Tehran, 1336, s.85-102.
30. Якут ал-Хамави. Муджам ал-булдан. Баку, Элм, 1983, с.24.
31. Rəşidəbdin Fəzlullah Həmədani. Acar və əhya (Təsir və dirçəliş). Tehran, 1348, s.46,68.
32. Piriyev V. Z. Naxçıvan tarixindən səhifələr (XIII-XIV əsrlər). Bakı, "Müəllim", 2004, s.22-44.
33. Rzayev A. Nəsrəddin Tusi (həyatı, elmi, dünyagörüşü). Bakı, Elm, 1996, 352 s.
34. Историческая география Азербайджана, с. 110-112.
35. Эфендиев О. Образование Азербайджанского государства Сефевидов в начале XVI века. Баку, 1961, с.92.
36. İsgəndər Münşi. Tarix-i aləm – arabiyi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi). I cild, Bakı, "Təhsil", 2009, s.180.
37. История Ирана с древнейших времен до конца XVIII века. Ленинград, 1957, с.277.
38. Мешедиханум Неймат. Корпус эпиграфических памятников Азербайджана. т III. Арабо-персо-тюрко язычные надписи Нахчиванской Автономной Республики (XII век -начала XX века). Баку, XXI – Yeni Nəşrlər Evi, 2001, с.27.
39. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996, s.9.
40. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, "Sabah", 1997, s.8.
41. Piriyev V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı, "Araz", 2002, s.108.
42. Hacıyev İ. "Erməni vilayəti"nin təşkili/ "Dirçəliş- XXI əsr", yanvar-fevral, 2011, №153-154, s.273-279.
43. Hacıyev İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan, "Əcəmi", 2012, s.123.
44. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f.379, siy.3, iş 5901, v.5 (Arxiv materiallarını prof. K.Şükürov müəyyən etmişdir).
45. Yenə orada, v.6.
46. Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı, 1991, s.18-22.
47. Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). Bakı, "Garisma" MMC, 2009, s.19-20.
48. Əliyev M.B. Qanlı günlərimiz. Bakı, 1993.
49. Naxçıvan Tarixi Atlası. Bakı, 2010, s.33.
50. Musayev İ. Araz-Türk Respublikası/"Bakı Universiteti Xəbərləri"nin xüsusi buraxılışı. Bakı, 1999, №3, s.112.
51. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996, s.86.
52. M.Bəkdaşovun N.Nərimanova məktubu. 10.08.1920 // ARPİİSSA, f.609, siy. 1, iş 6, v. 3.
53. Sadiqov S. Naxçıvan Muxtar Respublikası tarixindən. Bakı, "İrşad", 1995, s.45-46.
54. Naxçıvan Muxtar Respublikası. Bakı, "Naxçıvan ensiklopediyası", 2001, s.93.
55. Hacıyev İ. Behbud ağa Şahtaxtinskinin diplomatik fəaliyyəti və Naxçıvan məsələsi// Behbud ağa Şahtaxtinski və Qars müqaviləsi. (B.Şahtaxtinskinin 130 illik yubileyi və beynəlxalq Qars müqaviləsinin 90-cı ildönümünə həsr olunmuş konfransın materialları. 12 oktyabr 2011. Naxçıvan, 2012, s.30-41.
56. İsmayıl Soysal. Tarihçeleri ve açıklamaları ile birlikte Türkiyenin siyasal andlaşmaları. I cilt (1920-1945). 2. Baskı. Ankara, 1989, s.33.
57. Qars müqaviləsi. Azərbaycan, rus, türk və fransız dillərində. Tərtib edəni və ön sözün müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı, Az Atam, 2004, s.17.
58. Azərbaycan tarixi. Yeddi cilddə, c.VI, Bakı, 2008, s.198.
59. Гулиев Дж. К истории образования Второй Республики Азербайджана. Баку, Элм, 1997, с.129.
60. Azərbaycan Respublikası Dövlət Arxivi. f.379, siy. 3, iş 2035, v.2; Naxçıvan Muxtar Respublikası... s. 95.
61. Naxçıvan Muxtar Respublikası. Bələdçi kitabı. Naxçıvan, 1998, s.5.
62. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 14-cü kitab. Bakı, Azərnəşr, 2005, s.89.
63. Иванов Р.Н. Нашествие. Печальная быль о бесчинствах и расправе большевиков на советской земле древнего Нахчывана. Москва, Герой Отечества, 2009, с.3-7.
64. Мадатов Г.А. Азербайджан в Великой Отечественной войне. Баку, 1975; Qasımov Ə.Q. Naxçıvan Muxtar Respublikası müharibə illərində (1941-1945-ci illər)// Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu. Bakı, Elm, 1999, s. 112-120.
65. Qətiyyətin təntənəsi (Sənədli xronika). Bakı, 1995, s.184.
66. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2009, s. 54-57.
67. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 14-cü kitab. Bakı, Azərnəşr, 1998, s. 72-90.
68. "Azərbaycan" qəzeti, 15-17 yanvar 1998-ci il.
69. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası. Bakı, 2009.
70. Azərbaycan Respublikasının inzibati ərazi bölgüsü. Məlumat toplusu. Bakı, MM-in nəşri, 2013, s.187.



**İsmayıl HACIYEV**
akademik,
Azərbaycan Milli Elmlər Akademiyasının
Naxçıvan bölməsinin sədri




Naxçıvan Dövlət
Xalça Muzeyinin ekspozisiyası





# NAXÇIVAN TOXUCULARI

# BABƏK RAYONU

Yaxın Şərqin qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan bölgəsinin hər bir guşəsi, o cümlədən Babək rayonunun ərazisi zəngin tarixi keçmişə malikdir. Əlverişli təbii-coğrafi şəraitə malik olması bu bölgədə insanların qədim zamanlardan məskunlaşmasına, burada əkinçi-maldar tayfaların yaşamasına zəmin yaratmışdır.

Muxtar respublika ərazisində aşkar edilmiş ilk arxeoloji tapıntılar Babək rayonu ərazisinə aiddir. Babək rayonunda 150-yə qədər tarix və mədəniyyət abidəsi müəyyən edilmişdir. Bunlardan 5-i dünya, 44-ü ölkə, 100-ü isə yerli əhəmiyyətlidir. I və II Kültəpə, Qızılburun, Duzdağ, Əshabi-Kəhf abidələri, Dəyirmanyeri, Meydantəpə, İşıqlar, Əyriarx və b. yaşayış yerləri, Qaraçuq, Buzqov, Vayxır və b. nekropollar, Çalxanqala, Vayxırqala və b. müdafiə istehkamları təsdiq edir ki, indiki Babək rayonunun ərazisi qədim və orta əsrlərdə bölgənin inkişaf etmiş mədəniyyət mərkəzlərindən biri olmuşdur.

Babək rayonunun ərazisi e. ə. I minillikdə Manna dövlətinin tərkibində olmuş, sonralar Midiya, e. ə. IV əsrdə isə Əhəmənilər dövləti tərəfindən işğal edilmiş, e. ə. IV əsrin sonlarından Atropatenanın hakimiyyəti altında olmuşdur. III əsrdə buranı Sasanilər işğal etmişdi. Orta əsrlərdə bu ərazi müxtəlif feodal dövlətlərinin tərkibində olmuşdur.

Türkmənçay müqaviləsinin şərtlərinə uyğun olaraq, Babək rayonunun ərazisi Naxçıvan xanlığının tərkibində Rusiyaya ilhaq olunur. 9 fevral 1924-cü ildə Naxçıvan MSSR yaradıldı. Həmin vaxt Naxçıvan MSSR-də 3 qəza, 12 dairə təşkil olundu. 1929-cu ildə qəzalar ləğv edildi, dairələrin sayı 8-ə endirildi. 1930-cu ildə bu bölgü də dəyişdirildi. Şahbuz rayonu əlavə edilməklə Şərur, Naxçıvan, Culfa, Ordubad, Əbrəqunus rayonlarından ibarət yeni inzibati-ərazi bölgüsü yaradıldı. İndiki Babək rayonuna daxil olan yaşayış məskənləri həmin vaxt mərkəzi Naxçıvan şəhəri olan Naxçıvan rayonunda cəmləşdirildi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 7 iyun 2008-ci il tarixli "Babək rayonunun təşkil olunmasının 30 illiyi haqqında" sərəncam imzalamışdır. Rayonun ərazisi 901,6 kv. km, əhalisi 68,8 min nəfərdir (01.01.2008). Rayon ərazisində 30 inzibati ərazi dairəsi, 1 qəsəbə, 39 kənd vardır.

Yarandığı dövrdən bu günədək Babək rayonu böyük inkişaf yolu keçmişdir. Son illərdə rayonda 32 yeni sənaye və emal müəssisəsi yaradılmışdır. Muxtar respublikada istehsal olunan sənaye məhsulunun 22 %-i bu rayonun payına düşür.

2005-ci ildə Heydər Əliyev Su anbarı istifadəyə verildikdən sonra Babək rayonunun 13.869 hektar sahəsinin suvarılması təmin olunmuş, 4.364 hektar yeni sahə əkin dövriyyəsinə daxil edilmişdir.

Rayon ərazisində 3 elektrik stansiyası mövcuddur. Rayonda 15 minə qədər abonent təbii qazla təmin olunmuş, elektron tipli 12 avtomat telefon stansiyası quraşdırılmışdır.

Babək rayonunun 38 ümumtəhsil məktəbində 11 minə qədər şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 1510 müəllim məşğul olur. Rayonda 32 klub və mədəniyyət evi, 2 muzey, 41 kitabxana, 1 mərkəzi xəstəxana, 2 kənd sahə xəstəxanası, 1 doğum evi, 16 həkim ambulatoriyası, 18 feldşer-mama məntəqəsi və 1 gigiyena epidemiologiya mərkəzi (54 həkim, 376 orta tibb işçisi) fəaliyyət göstərir.





**Həsənova Sura Musa qızı** - 1934-cü il. Sirab kəndi.
"On övlad anasıyam. Toxumağı anamdan öyrənmişəm. Anam kəndimizin məşhur toxucularından olub. İki bacımla birlikdə ondan kilim, gəbə toxumağı öyrənərdik. Bacım İsabəyim də yaxşı ilmələr vururdu. Toxuduğumuz xalçalardan övladlarımızın evlərində hələ də var".



**Babayeva Şəhrəbanu Zeynal qızı** - 1937-ci il. Sirab kəndi.
"Toxumağı anam Fatimə Rəhim qızından (1903-1993) öyrənmişəm. Əvvəllər bu kənddə, demək olar ki, hər evdə xalça toxunardı. Həm kolxozda işləyirdik, həm də evdə. Amma heç yorulmazdıq. Yunu darayır, cəhrədə əyirir, kələf hazırlayır, ipləri boyayırdıq. Hana arxasında əyləşəndə elə bil sehrli bir aləmə düşürdük. Daha çox, kilim toxuyurdum".



**Mehbalıyeva Cəmilə Sadıq qızı** - 1931-ci il. Sirab kəndi.
"Toxumağı ailə həyatı qurandan sonra qonşum Şəhrəbanudan öyrənmişəm. Sonra özüm də evimizdə hana qurdum, iplər hazırladım, boyamaq üçün rənglər aldım. Toxuduğum gəbələrdən, kilimlərdən övladlarımın evlərində indi də var".



**Məmmədova Lətifə Qulamhüseyn qızı** - 1933-cü il. Naxışnərgiz kəndi.
"Xalça toxumağı anam Zinyət Niftulla qızından öyrənmişəm. Anam danışırdı ki, nənəm də yaxşı məfrəş, heybə, çuval toxuyarmış. Babamgil dağlarda mal-qara, qoyun-quzu saxlayarmış, nənəmlə anam da elə orda hana qurub xalça toxuyarmışlar. Mən də yunu özüm darayar, cəhrədə əyirər, gəbə, kilim toxuyardım".





**Məhərrəmova Mehriban Fərhad qızı** - 1925-ci il. Zeynəddin kəndi.
"Gündüzlər kolxozda işləyirdim, axşamlar qonşum Fatma ilə birlikdə yun darayır, əyirir, xalça toxuyurduq. Bir müddət sonra artıq bu işləri özüm təkbaşına görə bilirdim. İpləri özüm boyayır, hana qurur, gözəl kilimlər toxuyurdum".




**Seyidova Səmayə Qaraş qızı** - 1940-cı il. Zeynəddin kəndi.
"Həmkəndlim Pakizə xanımın əllərinə baxa-baxa gəbə, kilim toxumağı öyrənmişəm. Biz özümüz qoyun saxlayardıq. Atam qoyunları qırxar, yununu bizə verərdi, biz də yunu yuyar, darayar, cəhrədə əyirib kələf edərdik. İpləri də özümüz boyayardıq. Çeşniləri isə Pakizə xaladan götürərdim. Toxuduğum kilimlərdən, gəbələrdən övladlarıma da hədiyyə vermişəm".



**Zamanova Əfruz Məhəmməd qızı** - 1945-ci il. Naxışnərgiz kəndi.
"Gözümü açandan anamı cecim, palaz toxuyan görmüşəm. Toxumağı da elə anam Zərifədən öyrənmişəm. Gündüzlər kolxozda işləyir, axşamlar hana qarşısında xalça toxuyardım. Bir palazı, təxminən, on beş günə kəsib götürərdim. İndi övladlarımın evində toxuduğum xeyli kilim, xalça, cecim var".



**Məmmədova Gülsüm Yusif qızı** - 1944-cü il. Kərimbəyli kəndi. 1964-cü ildə Naxışnərgiz kəndinə gəlin köçüb.
"Məşhur toxucu Səkinə xala mənim ustadım olub. Bizim ailə qoyun-quzu saxladığından, həmişə yunumuz bol olardı. Yunu özüm darayar, əyirər, kələf edər, bazardan boyaq alıb mis qazanlarda boyayardım. Xeyli gəbə, kilim, cecim toxumuşam. Toxuduğum gəbələrdən övladlarıma və nəvələrimə də hədiyyə etmişəm".



**Qasımova Sara Ağaməmməd qızı** - 1923-cü il. Qahab kəndi.
"Nənəm Şahsənəmlə, anam Gülxanımla yaxşı məfrəş, xurcun, çuval toxuyardım. Özüm də, müharibə veteranıyam; orden və medallarım var. Xalçanın toxunmasına lazım olan hər şeyi özüm edərdim – yunun təmizlənməsindən başlamış boyanmasına qədər...".



**Zamanova Qəndab Ağahüseyn qızı** - 1933-cü il. Qahab kəndi.
"Toxumağı anam Xeyransadan öyrənmişəm. Yunu özümüz darayar, əyirər, boyayardıq. Toxuduğum xalçalar məişətdə indi də dadımıza çatır".



**Tahirova Sona Ağaməmməd qızı** - 1931-ci il. Qahab kəndi.
"Toxumağı anam Gülxanım Məşadi Rüstəm qızından öyrənmişəm. Həm kolxozda işləyir, həm də anama kömək edərdim. Hər işi özümüz görürdük. Yunu özümüz darayır, cəhrədə əyirir, ipləri mis qazanlarda boyayırdıq".



**Məmmədova Rəna Ələkbər qızı** - 1946-cı il. Qahab kəndi.
"Toxumağı anam Güşvər Miralı qızından (1913-2002) öyrənmişəm. Qoyun-quzu saxlayan atam qoyunları qırxar, anam isə bu yundan xalça toxumaq üçün ip hazırlayardı. Atam ipləri Naxçıvanda boyadar, gətirib bizə verərdi. Anamla, bacılarımla neçə-neçə gəbə, kilim, cecim, heybə, palaz toxumuşuq".





**Cəfərova Sənubər Bayram qızı** - 1943-cü il. Qoşadizə kəndi.
"Sovet İttifaqı dövründə uzun müddət kolxozda işləmişəm. Xalça toxumağı qayınanam Zeynəbbəyimdən öyrənmişəm. Yunu birlikdə darayar, cəhrədə əyirər, ipləri ikiqat boyayar, sonra da yumaq edib hanadan asardıq. Qayınanamla toxuduğum kilimlərdən qızlarıma cehiz də vermişəm".



**Əsgərova Zeynəbbəyim Əsgər qızı** - 1917-ci il. Qoşadizə kəndi.
Uzun bir ömür yaşamış Zeynəbbəyim nənənin yaddaşında acılı-şirinli xeyli xatirələr var: "Vətən müharibəsi dövründə çox ağır günlər keçirmişik. Min əzabəziyyətlə hardansa yun tapıb darayar, cəhrədə əyirər, lampa işığında hana qurub kilim, palaz, məfrəş, xurcun, buğda yığmaq üçün bəzəkli çuvallar toxuyardım. Bunlardan əlavə, keçə də döymüşəm. Keçə hazırlamaq üçün xırda-xırda yunları yerdə qurduğum hanada yerləşdirər, sonra əlimlə döyərdim. Toxuduğumuz məfrəşləri, xurcunları Şərur bazarında satar, çörəkpulu edərdik".



**Əhmədova Şükufə Abbas qızı** - 1940-cı il. Qoşadizə kəndi.
"Mən qonşu qızlar Bəyim, Sevil, Almazla bərabər, xalça toxumağı həmkəndlimiz Səkinə xaladan öyrənmişik. Sonralar qonşumuz Naxçıvanda xalça sexi açdı, biz də o sexdə işləməyə başladıq".



**Novruzova Fatma İbrahim qızı** - 1931-ci il. Nehrəm kəndi.
"Sovet İttifaqı dövründə uzun müddət kolxozda işləmişəm. Mənə toxumağı qonşum Zinyət xala öyrədib. Kilim toxumağa çox həvəsim vardı. İpləri hazır alar, gecələr onlardan kilim toxuyardım. Toxuduğum kilimlərdən övladlarıma hədiyyə də vermişəm".



**Hüseynova Südabə Fərəc qızı** - 1952-ci il. Nehrəm kəndi.
"Ustadım anamdır. İpi özümüz hazırlayar, kəndimizdə yaşayan Mənəmqulu kişidən aldığımız rənglərlə boyayardıq. Bacım Nüşabə ilə birlikdə xeyli kilim toxumuşuq. Anamdan eşitdiyimə görə, nənəm Səkinə həm xalça, həm də ipək saplardan cecim, heybə toxuyarmış".



**Novruzova Aticə Qulu qızı** - 1933-cü il. Nehrəm kəndi.
"On bir övlad anasıyam. "Qəhrəman ana" kimi gündüzlər kolxozda işləmiş, axşamlar da yun darayıb, cəhrədə əyirmişəm. Toxuduğum kilimləri, gəbələri həyat yoldaşım aparıb bazarda satar, onların pulu ilə dolanardıq. Toxumağı qızlarıma da öyrətmişdim. Ona görə də, özlərinə xeyli cehiz kilim toxuyublar".



**Fətəliyeva Xədicə Qulu qızı** - 1932-ci il. Nehrəm kəndi.
"Anam Novruzova Rübabə Hümmət qızı məfrəş, palaz, xurcun toxuyardı. Mən də, əsasən, uzunluğu 5-6 metr, eni isə 2 metr olan palazlar toxumuşam. Anamın mənə öyrətdiyi çeşniləri mən də qızım Xanıma öyrətmişəm".



**Abdullayeva Zeynəb Həsən qızı** - 1932-ci il. Nehrəm kəndi.
"Mən bu sənəti anam Abdullayeva Qönçə Baba qızından öyrənmişəm; o da nənəmdən öyrənib. Mənim xalam Gülsüm də məşhur kilimtoxuyan olub. Yun darağım, cəhrəm indi də durur".





**İbrahimova Gültəkin Abbas qızı** - 1954-cü il. Nehrəm kəndi.
"Toxumağı anam Əliyeva Pürüzə Qulu qızından öyrənmişəm. Biz həmişə qoyun-quzu saxlamışıq. Onların yununu qırxar, daraqda darayar, ip əyirər, kələf edərdik. Sonra boyaqsatan Səfər dayıdan boyaq alıb bu kələfləri mis qazanlarda boyayardım. Toxuduğum palazlardan indi də evimdə durur".



**Hüseynova Şərəf Məhəmməd qızı** - 1927-ci il. Nehrəm kəndi.
"Biz üç bacı – Leyla, Mələk və mən anam Həlimənin yanında oturub, onu
duğu ilmələrə baxardıq. Bu sənətə böyük həvəsimiz vardı. Məsələn, bacı
xalça üzərində Nizami Gəncəvinin şəklini də toxumuşduq. Həmin xalçan
müharibəsi illərində buğdaya dəyişdik".



**Quliyeva Zəhra Muxtar qızı** - 1943-cü il. Nehrəm kəndi.
"Toxumağı anam Xanım İbrahim qızından öyrənmişəm. Bacım Sadıqova Fatma Muxtar qızı (1939-2013) da məşhur toxucu olub. Onun toxuduğu kilimlər, cecimlər indi də övladlarının evinin bəzəyidir. Mən də cecimlər, uzunluğu 4-5 metr, eni 2 metr olan kilimlər toxumuşam".



**Hüseynova Qətibə Qulu qızı** - 1958-ci il. Nehrəm kəndi.
"14 yaşım olanda toxumağı anam Kübradan öyrənmişəm. Ailə quranda
ra qayınanam Şərəflə də palaz, xalça toxuyurdum. Bu sənətlə düz 199
qədər məşğul olmuşam. Fəxr edirəm ki, toxuduğum xalçalardan bir neçə
çıvandakı muzeydə saxlanılır".



**Fətəliyeva Məsmə Xəlil qızı** (1902-2000) Nehrəm kəndində anadan olub. Gəlini Xədicə xanımın sözlərinə görə, Məsmə nənə bacısı Xanım, qardaşı qızları Səkinə, Gültən ilə yun darayır, cəhrədə ip əyirir, təbii boyaqlarla boyayır, məfrəş, xurcun, yer hanasında cecim toxuyurmuş: "Mən də bu evə gəlin gələndən sonra onunla bərabər kilim, cecim, gəbə toxumuşam. Məsmə nənənin toxuduğu cecim isə evimizdə ən əziz yadigar kimi saxlanılır".



**Hacıyeva Dürrü Əsədulla qızı** - 1916-cı ildə Nehrəm kəndində anadan olub. Toxumağı anası Rüxsarədən öyrənən Dürrü nənə iki dünya müharibəsinin acılarını yaşayıb. I Dünya Müharibəsi dövründə uşaq olsa da, II Dünya Müharibəsinin çətin günlərini yaxşı xatırlayır: "Gündüzlər kolxozda işləyirdim. Gecələr isə lampa işığında yun darayar, cəhrə əyirər, məfrəş, xurcun toxuyardım. Toxuduqlarımın hamısını o illərdə çörəyə dəyişmişik".



**Əhmədova Səkinə Məmmədtağı qızı** (1922-2007) Nehrəm kəndi. Gəlini Əhmədova Sara qayınanasının gözəl kilimlər, güllü palazlar toxuduğunu deyir.



**Həsənova Nəcibə Həsən qızı** - 1941-ci il. Nehrəm kəndi.
"Toxumağı həmkəndlim Xanımbacıdan öyrənmişəm. Həm kolxozda çalışmışam, həm də axşamlar evdə hana qurub kilim toxumuşam. Toxuduğum kilimlərdən oğlumun evində bu gün də istifadə olunur".





**Hacıyeva Gülsüm Tarıqulu qızı** - 1934-cü il. Nehrəm kəndi.
"Toxumağı müharibə iştirakçısı olan anam Dürrüdən öyrənmişəm. Çətin günlərdə onunla bərabər lampa işığında neçə-neçə məfrəş, xurcun toxumuşam. 5-6 metr uzunluğunda kilimlər, "sandıq göllü", "açma-yumma", "göllü" palazlar toxumuşam".



**Rzayeva Rübabə Ələsgər qızı** - 1941-ci il. Nehrəm kəndi.
"Toxumağı qayınanam Həliməxatından öyrənmişəm. Həyat yoldaşım qoyunları qırxardı, mən də yunu yuyub təmizləyər, daraqda darayar, cəhrədə əyirər, kələf edib, boyaqçı Səfər kişiyə boyadardım. İpi boyatdıqdan sonra kilim toxuyardım. Toxuduğum kilimləri qayınanam, əsasən, qonşu kəndlərdə satardı. Ancaq qızlarıma da onlardan xeyli cehiz vermişəm".



**Məmmədova İrəmiyə Babakişi qızı** - 1938-ci il. Güznüt kəndi.
"Toxuculuq sənətini nənəm Salatın Quliyevadan öyrənmişəm. Yun darağım, cəhrəm indi də durur. O vaxtlar qoyun-quzunu həm də gəbə toxumaq üçün saxlayardıq. Qoyunun yununu yuyar, daraqda darayar, cəhrədə əyirib kələf düzəldər, sonra da boyayardıq. Daha çox "xonçalı" gəbə toxumuşam".



**Qafarova Məsmə Kərim qızı** - 1923-cü il. Güznüt kəndi.
"Xalça toxumağı anam Zöhrə İbrahim qızından öyrənmişəm. Vətən Müharibəsi illərində qonşularla bir evə yığışar, ip darayar, kələf düzəldər, sonra da hana qurub gəbə, palaz, cecim toxuyardıq. Ağır müharibə illərində toxuduğumuz gəbələri, palazları, cecimləri ehtiyac ucbatından satmalı olurduq. Lakin nə yaxşı ki, onlardan bəzilərini saxlayıb övladlarıma hədiyyə edə bilmişəm..."



**Meydanova Rəbiyyə Adəm qızı** - 1935-ci il. Kültəpə kəndi.
"Xalça toxumaq bacarığı insana qandan, candan, havadan, sudan gəlir. Mən bu sənəti qardaşım arvadı Mirzəyeva Pəri İman qızından öyrənmişəm. Bir yerdə kolxozda işləmiş, axşamlar da evdə kilim toxumuşuq".



**Mustafayeva Qiymət Qasım qızı** - 1925-ci il. Güznüt kəndi.
"Toxumağı anam Simuzər Allahverdi qızından öyrənmişəm. Ailə qurduqdan sonra da qayınanam Püstə xanımla birlikdə xeyli gəbə, kilim, cecim toxumuşam. Xalça toxumaq üçün lazım olan hər şeyi özümüz əldə edərdik. Yun darağımız, cəhrəmiz, ipləri boyamaq üçün mis qazanlarımız, hanamız vardı. Elə olub ki, cecim toxumaq üçün 10 metrlik yer hanası qurmuşuq".



**Məmmədova Seyrangül Nəzər qızı** - 1932-ci il. Kültəpə kəndi.
"Xalça toxumağı anam Nağıyeva Asyadan öyrənmişəm. Anam gözünü açandan evlərində gəbə, palaz, məfrəş, xurcun, şalvar, buğda-arpa yığmaq üçün çuval toxunduğunu danışırdı. Mən də həm kolxozda işləmiş, həm də evdə gəbə, palaz toxumuşam. Kəndimizdə keçə döyüldüyünü də xatırlayıram. Keçə həm çox isti, həm də dözümlü olur".



**Sadıqova Fatma Sadıq qızı** (1903-1981) Güznüt kəndi.
Qızı Məhluqənin dediklərindən: "Anam yer hanası qurub cecimlər toxuyardı. İpəkqurdu saxlayar, baramalardan ipək saplar hazırlayar, sonra təbii boyalarla boyayaraq cecimlər toxuyardı".





**Hüseynova Zəhra Mirzə qızı (1925-2008)** - Kültəpə kəndi. Oğlu Rəşidin dediklərindən: "Anam kilim, gəbə toxumağı çox sevərdi. Nənəm Narxan da gəbə, kilim, cecim toxuyardı. Anam toxuduğu gəbələrdən bacılarıma cehiz verib; mənim də evimdə bəziləri var. Yadımdadır ki, qonşumuz Şövkət nənəyə də xalça toxumaqda anam kömək edərdi".



**Şükürova Güldəstə İsmayıl qızı** - 1939-cu il. Məmmədrza Dizə kəndi.
"Toxumağı anam Dilbərdən öyrənmişəm. Biz sürü ilə mal-heyvan saxlayardıq. Qoyunların yununu toxumaq üçün istifadə edərdik. Bəxtim onda gətirdi ki, qayınanam Gülüstan da xalçatoxuyan idi. Ona görə də, gəlin köçəndən sonra xalça toxumağı davam etdirdim. Qayınanamla birgə toxuduğum cecimi indi də saxlayıram. Vəsiyyət etmişəm ki, öləndə məni bu cecimə büksünlər".



**Əliyeva Şövkət Məhərrəm qızı** - 1934-cü il. Kültəpə kəndi.
"Toxumağı məşhur toxuculardan olan anam Mələknisədən öyrənmişəm. Cecim toxumaq üçün ipəkqurdu saxlayardıq. Anam toxuduğu cecimin, kilimin, gəbənin iplərini özü təbii boyaqlarla boyayardı. Onun əl işlərindən indi də saxlayıram".



**Kətənova Gülzar Zəngibar qızı** - 1942-ci ildə Şahbuz rayonunun Biçənək kəndində anadan olub, 1956-cı ildə isə Babək rayonunun Kültəpə kəndinə gəlin köçüb.
"Toxumağı da burada qayınanam Əhmədova Tubu Yusif qızından öyrənmişəm. Bacım Qeysun və qızım Zəhra da toxucudurlar. Qızım indi də kilim, palaz toxuyur".



**Hacıyeva Sədaqət Əli qızı** - 1952-ci il. Məmmədrza Dizə kəndi.
"Toxumağı anam Tağıyeva Narınc Məhəmməd qızından (1912-2001) öyrənmişəm. Çoxlu qoyun saxladığımızdan yunumuz bol idi. Yunu özümüz əyirər, kələf edər, boyayardıq. Toxuduğum palazlardan, kilimlərdən övladlarına hədiyyə də vermişəm".



**Məmmədova Əfruz Məmmədhüseyn qızı** - 1935-ci il. Xalxal kəndi.
"Xalça toxumağı qayınanam Hüseynova Gülşən Əli qızından öyrənmişəm. Biz kənddə yaşasaq da, heyvan saxlamadığımızdan, yunu Naxçıvan bazarından alardıq. Mən yunu yun darağında darayardım, qayınanam isə cəhrədə əyirərdi. Yunu kələf edərdim, kələfi isə mis qazanlarda Cəhri kəndindəki məşhur boyaqçı Zərif nənədən aldığım boyaqlarla boyayardım. Evdə qurulmuş hanada kilim, cecim toxuyardım. Toxuduğum kilimlərdən oğluma da hədiyyə etmişəm".



**Şükürova Nübar Kərbəlamusa qızı** - 1949-cu il. Məmmədrza Dizə kəndi.
"Sovet vaxtında kolxozda tütünçü işləmişəm. Boş vaxtlarımızda kilim, palaz toxuyardıq. Xalça toxumağı qonşumuz Narınc nənədən, anamdan öyrənmişəm. Toxuduğum kilimlərdən satdığım da olub, oğluma hədiyyə verdiyim də".



**Abdullayeva Mətanət Novruz qızı** - 1934-cü il. Cəhri kəndi.
"Bizim kəndin qadınları əsasən kilim, cecim, xurcun, məfrəş toxuyardılar. Mən də İrəvandan rəng alıb gətirərdim. Vayxırdan, Xalxaldan, Gülşənabaddan, Məzrədən, Payızdan, Gərməçətaqdan və digər kəndlərdən mənim yanıma kələf boyatmağa gələrdilər. Lakin işim təkcə boyaqçılıqla məhdudlaşmırdı: gəbə, kilim, cecim də toxumuşam".





**Əliyeva Maman Məmmədqulu qızı** - 1917-ci il. Cəhri kəndi.
"Toxumağı qonşumuz Nənəxanımdan öyrənmişəm. Sovet dövründə kolxozda işləyər, boş vaxtlarımda isə kilim, gəbə toxuyardım. İpləri özüm hazırlayır, boyaqçıda boyadırdım. Toxuduğum gəbələrdən qızlarıma cehiz, oğlanlarıma hədiyyə vermişəm".



**Həsənova Çimnaz Həsən qızı** - 1924-cü il. Sədərək rayonunda dünyaya göz açıb, 1941-ci ildə Babək rayonunun Kültəpə kəndinə gəlin gəlib.
"Müharibə vaxtı çox ağır günlər yaşamışıq. Taxılı biçib hərbi hissələrə göndərərdik. Həm çöldə, həm də evdə işləyərdik. Evdəki işimiz axşamlar xalça toxumaqdan ibarət olardı. Toxumağı anam Gülüstandan, bibilərim Gülsəndan, Hürüdən öyrənmişəm. Onlar xurcun, məfrəş, çuval toxuyardılar. Mən özüm də yunu darayıb cəhrədə əyirmişəm. Kilim, palaz, yer hanası qurub cecim də toxumuşam".



**Məmmədova Züleyxa İbrahim qızı** - 1938-ci il. Cəhri kəndi.
"Nənəm, anam yaxşı kilim, cecim toxuyan olublar. Mən də onlara baxıb öyrənmişəm. Nənəm Bəyimcan yunu saxladıqları qoyunlardan qırxar, özü darayar, əyirər, boyayardı. Biz isə ipi boyamaq üçün həmkəndlimiz Zəri xalanın yanına gedərdik".



**Hacıyeva Gülşən Əli qızı (1906-1998)** - Şahbuz rayonunun Türkeş kəndində anadan olub, 1930-cu ildə Babək rayonunun Xalxal kəndinə gəlin gəlib.
Gəlini Əfruz xanımın dediklərindən:
"Qayınanam Vətən müharibəsinin ağır günlərində həm işləyib, həm də xalça toxuyub. Rəhmətlik toxumağı anası Mehparədən öyrəndiyini deyərdi. Çətin illərdə onun toxuduğu məfrəş, heybə, buğda yığmaq üçün çuval, cecim ailəni aclıqdan qurtarıb. Belə ki, övladları ac qalmasın deyə, toxuduqlarını ya satar, ya da taxıla dəyişərmiş".




**Məmmədova Rahilə Qasım qızı** - 1941-ci il. Vayxır kəndi.
"Toxumağı anam Səkinədən və nənəm Züleyxadan öyrənmişəm. Nənəm ipləri otlardan, yarpaqlardan aldığı təbii boyalarla özü boyayardı. Ondan, əsasən, dəvəli kilim, xurcun, cecim toxumağı öyrənmişəm".

# BABƏK toxucularının əl işləri


**Kilim.** Toxucu: Quliyeva Zəhra Muxtar qızı. Nehrəm kəndi.


**Xalça.** Toxucu: Mustafayeva Qiymət Qasım qızı. Güznüt kəndi.


**Xalça.** Toxucu: Hacıyeva Gülşən Əli qızı. Xalxal kəndi.

**Kilim.** Toxucu: Fətəliyeva Xədicə Qulu qızı. Nehrəm kəndi.


**Xalça.** Toxucu: Əhmədova Səkinə Məmmədtağı qızı. Nehrəm kəndi


**Kilim.** Toxucu: Hacıyeva Gülsüm Tarıqulu qızı. Nehrəm kəndi.




**Palaz.** Toxucu: Şükürova Güldəstə İsmayıl qızı.
Məmmədrza Dizə kəndi.



**Cecim.** Toxucu: Fətəliyeva Məsmə Xəlil qızı. Nehrəm kəndi.



**Cecim.** Toxucu: Sadıqova Fatma Sadıq qızı. Güznüt kəndi.

**Xalça.** Toxucu: Məmmədova Rahilə Qasım qızı.
Vayxır kəndi.



**Xalça.** Toxucu: Hacıyeva Dürrü Əsədulla qızı. Nehrəm kəndi.







**Palaz.** Toxucu: Abdullayeva Mətanət Novruz qızı.
Cəhri kəndi.



**Kilim.** Toxucu: Hüseynova Zəhra Mirzə qızı.
Kültəpə kəndi.



**Xalça.** Toxucu: Abdullayeva Zeynəb Həsən qızı. Nehrəm kəndi.



**Kilimlər.** Toxucu: Hüseynova Südabə Fərəc qızı. Nehrəm kəndi.



# ŞƏRUR RAYONU

Şərur Naxçıvan Muxtar Respublikasında ərazisinə və əhalisinin sayına görə ən böyük rayondur. 1930-cu ildə təşkil edilmişdir, 1930-1964-cü illərdə Şərur rayonu "Noraşen", 1964-1991-ci illərdə "İliç" rayonu adlandırılmışdır. Ərazisi 872,3 kv.km, əhalisi isə 107,4 min nəfərdir. Rayonun tərkibində 1 şəhər (Şərur şəhəri) və 65 kənd mövcuddur.

Şərurun yarandığı tarix hələlik dəqiq müəyyənləşdirilməsə də, son arxeoloji qazıntılar nəticəsində əldə edilmiş maddi mədəniyyət nümunələri burada insanların 500-300 min il bundan əvvəl yaşamalarını təsdiq edir. Şərur yaşayış yerinin adı "Kitabi-Dədə Qorqud" dastanlarındakı boylardan birində "Şəruk" kimi xatırlanır.

1501-ci ildə Şərur düzündə İsmayıl Səfəvi Ağqoyunlu Əlvənd Mirzə üzərində qələbə çalmış və bundan sonra Təbrizə daxil olaraq özünü şah elan etmişdir. XVIII əsrin əvvəllərində osmanlıların idarəsində olan İrəvan əyalətinin nahiyələrindən biri də Şərur idi. Şərur nahiyəsi 73 yaşayış məntəqəsindən və 1838 ailədən ibarət idi. Əhalinin böyük əksəriyyətini müsəlmanlar təşkil edirdi. Şərur-Dərələyəz tarixi vilayəti dağlıq (Dərələyəz) və düzən (Şərur) hissələrdən ibarət idi. 1886-cı ilin məlumatına görə, əhalisinin 70,5 %-ni azərbaycanlılar təşkil edirdi. Rus çarizminin köçürmə siyasəti ilə əlaqədar, 1828-ci ildən sonra əraziyə İrandan ermənilər köçürülmüşdü. 1870-ci il inzibati-ərazi islahatına əsasən, Şərur-Dərələyəz ərazisində İrəvan quberniyasının tərkibinə daxil olan Şərur-Dərələyəz qəzası təşkil edilmişdi. Mərkəzi Baş Noraşen idi. Ermənilər bu ərazilərdə məskunlaşdırıldıqdan sonra da azərbaycanlılar əhalinin 72,3 %-ni təşkil etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra Şərur-Dərələyəz qəzası Azərbaycanın ayrılmaz tərkib hissəsi elan edilmişdi. Şərur-Dərələyəz qəzası Araz-Türk Respublikasına daxil olmuşdu. Ermənistanda sovet hakimiyyətinin qurulmasından sonra Şərur-Dərələyəz qəzasının Dərələyəz sahəsi bütünlüklə Ermənistan SSR-ə verildi. Zaqafqaziya MİK-in 1929-cu il 18 fevral tarixli qərarına əsasən, Azərbaycan SSR-in rayonlaşdırılması ilə əlaqədar, Şərur-Dərələyəz qəzası ləğv edilmiş, tərkibindəki Qurdqulaq, Xaçik, Horadiz kəndləri Ermənistana verilmişdi. Bu, Moskva (1921) və Qars müqavilələrinin (1921) şərtlərinə, eyni zamanda beynəlxalq hüquq normalarına tamamilə zidd, Azərbaycan xalqına qarşı xəyanətkar qəsd və cinayət idi.

Şərur ərazisində 220 tarixi və mədəniyyət abidəsi qeydə alınmışdır. Onlardan 15-i dünya əhəmiyyətlidir. Bu abidələr qədim yaşayış yerləri, qalalar, qəbiristanlıqlar və memarlıq abidələrindən ibarətdir. Eneolit və Kür-Araz mədəniyyəti abidələrinin bu ərazidə sayca çoxluğu və mədəni təbəqənin qalınlığı e.ə. IV-III minilliklərdə Şərur ərazisində əkinçi-maldar tayfaların intensiv şəkildə məskunlaşdığını göstərir. Orta Tunc dövrünün abidələri əsasən Araz, Arpaçay və onların qolları üzərində salınmışdır. Şortəpə və s. abidələrdə yüksək sənətkarlıqla hazırlanmış boyalı qablar aşkar olunmuşdur.

Son illər Muxtar respublikada aparılan quruculuq və abadlıq işləri nəticəsində Şərur rayonu da əsl inkişaf yoluna qədəm qoymuşdur. Şərur rayonu Naxçıvan Muxtar Respublikasının ən böyük taxılçılıq, heyvandarlıq, meyvəçilik və tərəvəzçilik rayonudur. Kənd təsərrüfatına yararlı torpaqlar 31,5 min ha-dır.

Şərur rayonu, əsasən, kənd təsərrüfatı məhsulları emalı və tikinti materialları istehsalı üzrə ixtisaslaşmışdır. Quşçuluq fabriki, sənaye kombinatı, şərab zavodu və b. rayonun əsas sənaye müəssisələridir. Arpaçay üzərində 2 su elektrik stansiyası tikilmişdir.

Rayonun mərkəzi Şərur şəhəridir. Şəhərdə müasir memarlıq üslubuna uyğun inzibati binalar, beşmərtəbəli yaşayış evləri tikilmişdir. Şəhərdə yenidənqurma işləri aparılmış, müasir tikililər, Olimpiya idman kompleksi, incəsənət məktəbi, mədəniyyət sarayı, rabitə evi, icra hakimiyyətinin binası, tarix-diyarşünaslıq muzeyi, dəmiryol vağzalı, məktəblər inşa edilmişdir. Şərur şəhərində 3 orta məktəb, lisey, musiqi məktəbi, 3 uşaq bağçası, mərkəzi xəstəxana, özəl xəstəxana və diaqnostika mərkəzi, məscid, elektrik şəbəkələri mərkəzi, 2 ticarət mərkəzi, kinoteatr var. Şəhərin mərkəzində – baş meydanda Ümummilli Lider Heydər Əliyevin şərəfinə panno-abidə ucaldılmış, istirahət parkı salınmışdır.





**Talıbova Xədicə Həsən qızı** (1898-1996). Aşağı Aralıq kəndi.
Həmkəndlilərinin xatirələrindən: "Xədicə nənənin əl işləri digərlərindən çox fərqlənirdi. Onun kilim və xalçaları qeyri-adi naxışları ilə diqqəti cəlb edirdi. Bu maraqlı naxışların mənasını soruşanda isə ağbirçək toxucu "burada qəribə heç nə yoxdur, siz bizim dastanlarımızdan xəbərdar olsaydınız, toxuduqlarımın nə olduğunu bilərdiniz"- deyərdi".



**Talıbova Səkinə Məhərrəm qızı** - 1934-cü il. Aşağı Aralıq kəndi.
" Ustadım anam Talıbova Xədicə Həsən qızı olub. Anam baramaqurdu saxlayardı, onları qaynar suda bişirər və tel-tel açılsın deyə qarışdırardı. Sonra da onu əyirər, hana qurub cecim toxuyardı. Saxladığımız qoyun-quzunun yununu yun darağında darayar, cəhrədə ip əyirib, yumaq edərək, palaz, gəbə toxuyardıq. Həmin saplardan hələ də saxlayıram".



**Həsənəliyeva Həmidə** - 1932-ci il. Axura kəndi.
"Toxuculuğu mənə anam Əliyeva Mayaxanım Məşədi Həsən qızı öyrədib. Rəhmətliyin çox səliqəli əl işi olduğundan, toxuduqlarını hər kəs bəyənirdi. Anamın köməyilə cəhrədə yun əyirib ip əldə etmişəm. Sonra ipləri mis qazanlarda boyayıb kilim, gəbə toxumuşam. Rəhmətlik nənəm Üngüz də gözəl məfrəş, xurcun, cecim, gəbə toxuyan olub. Onun toxuduğu işlər də çox sevilib".



**Cəfərova Laləzar Məşədi qızı** - 1932-ci il. Tənənəm kəndi.
"Özümü anam Xanımın yetirməsi hesab edirəm. Subay vaxtlarımda anam yun təmizləyir, daraq darayır, mən də cəhrədə əyirərdim. Kələf edib, boyayardıq. Ailə qurandan sonra isə qayınanam Nazəninin yanında bir qədər də püxtələşdim. Mən də cecim, palaz toxumağa başladım".





**Həsənova Səltənət Hümmət qızı** - 1937-ci il. Tənənəm kəndi.
"Toxumağı anam Paşayeva Sonabəyim Orucəli qızından öyrənmişəm. Gündüzləri kolxozda işləyər, gecələr isə çıraq işığında gəbə, palaz toxuyardım. Anam danışardı ki, rəhmətlik nənəm də məfrəş, xurcun, yer hanasında cecim, arpa, buğda yığmaq üçün çuvallar toxuyub. Özüm indiyədək 12 gəbə, 13 kilim toxumuşam".



**Əliyeva Sara Ələkbər qızı** - 1929-cu il. Axura kəndi.
"Toxumağı anam Şəhrəbanudan və xalam Gülxanımdan öyrənmişəm. Anamla birlikdə çay kənarında yunu yuyar, cəhrədə əyirər, boyayardıq. Boyanmış iplərdən kilim, xalça toxuyardıq. Naxışlar, çeşnilər anamızdan bizə yadigardır. Onu da deyim ki, bir naxışı olduğu kimi təkrarlamaq müşkül məsələdir. Nə qədər çalışsaq da, istədiyimizə nail ola bilmirdik. Naşı adamlar naxışların bir-birinə oxşadığını desələr də, işin əslini peşəkarlar bilir".



**Vəliyeva Bəsti Əkbər qızı** - 1950-ci il. Tənənəm kəndi.
"Anam məşhur toxucu olub. Onun əl işləri digərlərindən fərqlənirdi. Ailəmizdə məndən başqa, bacılarım Əsli və Göyərçin də toxuculuqla məşğul olublar. Onların da ustadı anam idi. Toxumaq üçün lazım olan xammalı özümüz tədarük edərdik. Saxladığımız qoyun-quzunun yununu qırxdıqdan sonra bulaqda yuyur, cəhrədə əyirir, boyayır, yumaq halına salıb palaz, gəbə toxuyurduq".



**Maqsudova Qəndab Bəbir qızı** - 1919-cu il. Tənənəm kəndi.
"Toxumağı anam Abbasova Sarabəyimdən öyrənmişəm. Gündüzlər kolxozda işləyib, gecələr də lampa işığında cəhrədə yun əyirib, palaz, gəbə, yer hanasında da cecim toxumuşam. Qızlarım da mənim yolumun davamçısıdırlar. Onlardan biri- Bəsti xalçaçılığın sirlərini lap dərindən mənimsəyib. Həm də o, toxuduğu xalçaya öz yaradıcılığının məhsulu olan maraqlı işarələr, şəkillər vurur".



**Abbasova Səhərnaz Abbas qızı** - 1957-ci il. Tənənəm kəndi.
"Anam Səkinənin davamçısı kimi onun çeşnilərini toxuyardım. Əvvəllər anamın göstərişlərini tam dəqiqliklə yerinə yetirə bilmirdim. Çünki hələ ilmələrlə yoldaş olmamışdım. Elə ki öyrəndim, mehrimi hanaya salıb, ilmələri oxşaya-oxşaya işə başladım və hər şey düzəldi. İpi hazırlamağı da anamın əlinə baxıb öyrənmişəm".



**Vəkilova Həqiqət Hüseynalı qızı** - 1950-ci il. Danyeri kəndi.
"Anamla bərabər gündüz kolxozda işləyirdik. Gecələr isə yun darağında yun darayar, cəhrədə əyirər, kələf düzəldər, yumaq edib palaz, gəbə toxuyardıq. Anam, xalam, bacılarım, bir sözlə, ailəmizdəki bütün qadınlar toxucu olublar. Bacılarım Ziba, Ruqiyyə, Tamam, Sədaqət, Məlahət də toxculuq işini anamdan öyrəniblər".



**Ağayeva Leyla İsmayıl qızı** - 1929-cu il. Danyeri kəndi.
"Bu işi 95 yaşında dünyadan köçən anam Səkinə İsmayıl qızından və böyük bacım əsli İsmayıl qızından öyrənmişəm. Bacım məndən böyük olduğundan toxumağı daha erkən öyrənmişdi. O qədər həvəsli idim ki, saatlarla hana önündən durmaq bilmirdim. İllər keçdi. Toxuculuğu davam etdirdim, onlarla xalı, kilim, məfrəş toxudum".



**Cəfərova Sara Hümbətalı qızı** - 1938-ci il. Tənənəm kəndi.
"Kəndimizdə toxuculuq sənəti çox inkişaf etmişdi. Buranın suyu, havası insana güc verir. Mən və bacılarım Sura, Səltənət də xalı toxumağı anamız Sonabəyim Orucəli qızından öyrənmişik anam da nənəm Mədinədən öyrənibmiş. Saxladığımız qoyunların yununu gəbə, palaz, yer hanasında cecim toxumaq üçün istifadə edirdik. Toxuduğum gəbələrdən, palazlardan övladlarıma da hədiyyə etmişəm".





**Nəbiyeva Gülzar Hüseyn qızı** - 1929-cu il. Dəmirçi kəndi.
"Mal-qaramızı yayda yaylağa aparardıq. Ora bizdən başqa digər kəndlərdən də gələnlər olurdu. Onların alaçıqlarında hana qurulduğunu görmüşdüm. Sonra gördüm kü, xanımlar həmin hanalarda kilim, xalça, məfrəş, ən əsası da yaylaqda çox ehtiyac duyulan xurcun və böyük çuvallar toxuyurlar. Mən də toxumağı onlardan öyrənmişəm".



**Rəsulova Bəyimağa Hüseynalı qızı** - 1937-ci il. Dəmirçi kəndi.
"Xalça toxumağı anam Fatma Qurbanəli qızından öyrənmişəm. Anam bu işə o qədər həvəsli idi ki, kiçik yaşlarımızdan bizi də öyrədirdi. Sonralar özüm də onlarla kilim, xalça toxumuşam. Deyim ki, bəzən pula ehtiyac olanda toxuduğum kilimlərdən satmalı olurdum".



**Hüseynova Ümmüleyla Heydər qızı** - 1935-ci il. Havuş kəndi.
"Bu sənəti anam Fatma Həsən qızından öyrənmişəm. Kəndimizdə Məsmə, Seyidxanım adlı ağbirçəklər vardı. Onların da toxuculuq haqqında məsləhətlərini maraqla dinləyərdik. Bu qadınlar gözəl məfrəş, xurcun, cecim, gəbə toxuyardılar. Onların əl işləri digərlərinkindən fərqlənərdi. Çünki onların vurduğu çeşnilər, toxuduqları rəsmlər daha qədim idi. Hətta o şəkillərdən bəzilərinin açılışını da verirdilər".



**Musayeva Fazilə Məmmədhənifə qızı** - 1938-ci il. Havuş kəndi.
"Toxumağı qayınanam Zərnişan xanımdan öyrənmişəm. Özümüzün qoyun-quzumuz vardı. Onların yununu qırxır, yun darağında darayır, cəhrədə əyirir, ip edib, gəbə, kilim toxuyardıq. Qayınanamla gözəl məfrəş, xurcun, yer hanasında cecim toxumuşuq".



**Musayeva Səkinə Heydər qızı** - 1934-cü il. Havuş kəndi.
"Mən gəbə, kilim toxumağı baldızım Xədicədən, qaynım Cəmildən öyrənmişəm. Xırdabuynuzlu heyvan saxlayardıq. Onların yunlarını qaynım qırxar, baldızımla mən də yuyub təmizləyərdik. Sonra daraqda darayır, cəhrədə əyirir, ipləri kələf edirdik. Özümüz qazanlarda ipləri boyayardıq. İplər rəng aldıqdan sonra soyuq suda yaxalayıb sərərdik. Görəndə ki quruyub, onları yumaq eləyib, hanadan asardıq, ilmə vurub, naxış toxuyardıq. Qızlarımın altısına da toxumağı özüm öyrətmişəm. Sonuncu əl işim olan gəbəni 1986-cı ildə toxumuşam".



**Həsənova Gövhər Heydər qızı** - 1923-cü il. Havuş kəndi.
"Bizim kənd buz kimi bulaqları olan dağların arasında yerləşir; qədim kənddir. Bu kəndin insanlarının özünəməxsus adət-ənənələri var. Toxuculuğa gəldikdə isə, mən bu sənəti Axura kəndindən olan Tamam arvaddan öyrənmişəm. Rəhmətlik qayınanam Münəvvər xanım da məfrəş, xurcun, dəvəüstü, cecimlər toxuyardı. Mən də onlarla kilim, gəbə, cecim toxumuşam. Etiraf edim ki, dolanışıq çətinləşəndə toxuduqlarımın əksəriyyətini satmalı olmuşuq".



**Novruzova Şəhrəbanu Zülfüqar qızı** - 1932-ci il. Axura kəndi.
"Gündüz kolxozda işləyir, gecələr həmkəndlim Həliməxatunla yunu cəhrədə əyirir, ip düzəldir, boyayırdıq. Boyanmış iplərdən isə palaz, cecim toxumuşam. Həliməxatun gözəl xurcun, məfrəş, dəvəüstülər toxuyar, ancaq müharibənin çətinlikləri ucbatından hamısını satardı. Deyim ki, toxuduqlarımdan məndə də bir şey qalmayıb, tək bir məfrəşdən başqa".



**Məmmədova Hacər Məhəmmədəli qızı** - 1932-ci il. Havuş kəndi.
"Qayınanam gözəl cecim, məfrəş, xurcun toxuyardı. Mən də onunla bərabər yun darayır, cəhrədə əyirir, ipi kələf edir, boyaqda boyayıb kilim, xalça, cecim toxuyurdum. Məişətdə işləndiyinə görə daha çox xurcun toxuyardıq. Atla bir yana səfər edən zaman yüklərimizi həmin xurcunlara yığardıq. Xurcunlar da ölçülərinə görə müxtəlif olurdu".





**Hüseynova Sonabəyim Vəli qızı** - 1947-ci il. Havuş kəndi.
"Özümü nənəm Zərnişanın və anam Xədicənin davamçısı hesab edirəm. Zərnişan nənəm o vaxtlar heybə, məfrəş, palaz, xalça, cecim toxuyub. Anamla birlikdə yun təmizləyib, daraqda darayıb, cəhrədə əyirib kələf edərdik. Zərnişan nənəm ipləri boyaqçıya verməzdi, hamısını özü boyayardı. Mən də onlara qoşulub boyanmış iplərdən palaz, xalça toxuyardım".



**Eminova Mələksima Əli qızı** - 1935-ci il. Şahbulaq kəndi. 1954-cü ildən sonra Yuxarı Yaycı kəndində yaşayıb.
"Toxuculuğun sirlərini anam Hüsnüdən öyrənmişəm. Anama da rəhmətlik nənəm Leyla öyrədib. Özümüzün çoxlu qoyunumuz vardı; onların yununu ancaq toxuculuqda istifadə etmişik. Hamı kimi gündüzlər kolxozda işləyib, gecələr hana qurub kilim, gəbə, məfrəş, xurcun toxumuşam".



**Tağıyeva Gülşən Məhəmməd qızı** - 1934-cü il. Axura kəndi.
" Xalça toxumağı qonşumuz Sənubər xanımdan öyrənmişəm. Kömək üçün onun yanında yun təmizləyər, kələf eləyərdim. Onun toxuduğu cecimlərə, kilimlərə, gəbəyə baxıb öyrənmişəm. Bilmədiyimi soruşanda rəhmətlik ərinməyib ətraflı başa salardı. Bu işə o qədər bağlanmışdım ki, ər evində də qayınanam Züleyxa ilə bərabər cecim, kilim, gəbə toxuyurdum. Müharibə vaxtı aclıq olduğundan toxuduqlarımızı buğdaya dəyişərdik".



**Əliyeva Sona Əli qızı** - 1940-cı il. Yuxarı Yaycı kəndi.
"Mən toxumağı anam Gülçöhrə Əsgər qızından öyrənmişəm. O da anası Səkinə xanımdan öyrənib. Anam danışırdı ki, nənəm məfrəş, xurcun, yer hanasında cecimlər, kilim toxuyardı. Mən cəhrədə yun əyirir, kələf edir, kilimlər toxuyurdum. Toxuduqlarımdan bəziləri indi də qalmaqdadır, bir hissəsini isə övladlarıma hədiyyə eləmişəm. Hazırda da boş otura bilmirəm – evi bəzəmək üçün güllər toxuyuram".



**Tağıyeva Bibixanım Koroğlu qızı** - 1932-ci il. Tənənəm kəndi.
"Qayınanam yaxşı cecim, kilim, xurcun, məfrəş, xalça toxuyardı. Kəndimizin qızları ondan toxumaq öyrənərdilər. İpi öz qoyunlarımızın yunundan hazırlayardıq. Qayınanam ipi özü boyayardı. Sonradan bu işi qonşumuzdakı boyaqçı Cəfər kişiyə gördürərdik. Toxuduğum kilimlərdən, xalçalardan övladlarıma hədiyyə eləmişəm. Hazırda toxuduqlarımdan bəzilərini evimdə saxlayıram".



**Sadiqova Səlvinaz Qələndər qızı** - 1940-cı il. Şahbulaq kəndi.
"Mənim ustadım anam Tovuz Niftulla qızı olub. O da bu sənəti öz anası Güllərdən öyrəndiyini söyləyərdi. Anamın dediyinə görə, nənəm çox qabiliyyətli xalçaçı olub. Onun özünəməxsus işləmələri varmış. Qayınanam Sadıqova Qızxanım da kəndimizin məşhur toxucularından idi. İpi özümüz tədarük edərdik. Belə ki, qırxılmş yunları Şaxbur bulağında yuyub cəhrədə əyirir, boyayırdıq. Həmin cəhrəmizi indi də saxlayıram".



**Cəfərova Cəmilə Qafar qızı** - 1935-ci il. Şahbulaq kəndi.
"Palaz toxumağı Sura nənəmdən öyrənmişəm. O, çox istedadlı qadın idi. Mənim kimi onlarla qıza xalça toxumağı öyrədib. Ailə qurandan sonra qayınanam Tərlanla birlikdə yunu yuyur, daraqda darayır, cəhrədə əyirib, kələf edərdik. Sonra qayınanam özü otlardan boyaq hazırlayıb ipləri boyayardı. Hazır iplərdən palazlar toxuyardıq. Mən qızlarımın dördünə də palaz toxumağı öyrətmişəm".



**Qafarova Zeynəb Ağamalı qızı** - 1939-cu il. Şahbulaq kəndi.
"Toxumağı gəlinimiz Püstədən öyrənmişəm. Onunla bərabər yunu yuyar, cəhrədə əyirər, kələf edərdik. Püstə hazır iplərdən palaz toxuyar, mən də onun barmaqlarına baxıb öyrənərdim. Bundan başqa, keçi qəzilindən də palaz toxuyardım. Keçi qəzilindən toxunan palaz çox uzunömürlü, davamlı və möhkəm olurdu".





**Vəkilova Rübabə İsmayıl qızı (1919-2006).** Danyeri kəndi.
Rübabə xanım toxumağı nənəsindən öyrənibmiş. Çoxlu məfrəş, gəbə toxuyan Rübabə nənənin əl işləri indi də övladlarının, nəvələrinin evində istifadə olunur.



**Ələkbərova Nərgiz Məmməd qızı** - 1929-cu il. Axura kəndi.
"Toxuculuqda bəxtim gətirib. Anam, nənəm, qayınanam toxucu olublar. Mən də uşaqlıqdan anamın və nənəmin, gəlin köçdükdən sonra isə qayınanamın yanında toxuculuq işini öyrənmişəm. Özümü onların davamçısı sayıram".



**Abbasova Səkinə Qafar qızı** - 80 yaşında vəfat etmişdir. Tənənəm kəndi.
Həmkəndlilərinin dediklərindən: "Səkinə nənə anası Ünbülbəyimlə birlikdə cecim, xurcun, məfrəş, kilim, xalça toxuyarmış. O, ipləri özü təbii boyalarla boyayarmış. Boyaq almaq üçün tut yarpağından, kəklikotundan, zirinc kötüyündən, soğan qabığından və s. bitkilərdən istifadə edərmiş. Ünbülbəyim nənə üzərində dəvə karvanının təsviri olan palaz da toxuyubmuş və həmin palaz 1990-cı ildə satılıb".



**Allahverdiyeva Leyla Ağabala qızı** - 1928-ci il. Şahbulaq kəndi.
"Toxumağı anamdan öyrənmişəm. Anam da öz anası Zeynəb xanımın tələbəsi olub. Nənəm məfrəş, xurcun, atüstü, qotazlı çuvallar toxuyarmış. Mən də anamın və nənəmin yolunu davam etdirmişəm. Nənəm ailəni dolandırmaq üçün toxuduqlarını buğdaya dəyişərmiş".



**Eminova Xədicəxanım Mirhüseyn qızı** - 1943-cü il. Şahbulaq kəndi.
"Toxumağı anam Tovuzdan öyrənmişəm. Anam danışardı ki, rəhmətlik nənəm Şöydə kilim, məfrəş, xurcun, yer hanasında cecim toxuyarmış. Mən də uşaqlıqdan anamla bərabər yun darayır, əyirir, ip düzəldirdim. İpləri yarıtəbii, yarı kimyəvi boyaqlarla boyayar, kilim, xalça toxuyardıq".



**Vəkilova Səkinə İsmayıl qızı** - 95 yaşında vəfat edib. Danyeri kəndi.
Qızının dediyinə görə, anasının ailəsi Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra bir çox ailələr kimi sürgün edilibilər. Nənəsi sürgündən qayıdandan sonra ailə qurub, oğul-uşaq sahibi olub. Anasının gözəl əl qabiliyyəti varmış. İndi də ondan yadigar qalan məfrəşləri, xurcunu saxlayır.



**Orucova Gülsüm Kərbəlayı Qafar qızı** - (1902-1989). Axura kəndi. O da xalça, kilim toxumağı anasından öyrənibmiş. Deyirlər ki, Gülsüm nənə ən çox dəvə naxışlı kilim, dəvəüstü, məfrəş, xurcun toxuyub.



**Hüseynova Pərzad Zülfüqar qızı** - (1916-2002). Havuş kəndi.
Nəvəsi Yeganənin dediklərindən: "Nənəm çox bacarıqlı toxucu olub. Onun anası Səltənət də kilim, gəbə, cecim toxuyan olub. Nənəm toxumağı anasından öyrəndiyini deyərdi. Pərzad nənəm toxuduqlarının çoxunu yoxsulluq ucbatından satırmış. Mənə hədiyyə etdiyi kilimi, cecimi, gəbəni bu gün də yadigar kimi saxlayıram".





**Məmmədxanova Zəroş Fərzalı qızı** - (1905-1984). Aşağı Aralıq kəndi.
Nəvəsinin dediyinə görə, Zəroş nənə toxumağı anasından öyrənibmiş. O, gündüzlər kolxozda işləyib, gecələr isə lampa işığında palaz, məfrəş, xurcun toxuyub.



**Mahmudova Meyxanım İsmayıl qızı** - (1880-1982). Aşağı Aralıq kəndi.
Nəvəsi Rənanın dediklərindən: "Meyxanım nənəmin toxuduğu xalça və kilimlər digərlərinin əl işlərindən fərqlənirdi. Bu da onun yaradıcılığının şəxsi fantaziya üzərində qurulmasından irəli gəlirdi. Meyxanım nənə yaxşı kilim, gəbə, cecim, xurcun, məfrəş toxuyardı. Toxuduqları kilimlərdən, gəbələrdən övladlarına pay da verib".



**Qəhrəmanova Banu Məhərrəm qızı** - 1953-cü il. Aşağı Aralıq kəndi.
"Toxuculuğu anam Zinyətdən öyrənmişəm. Onun əllərinə baxa-baxa bu sənətin sirlərinə yiyələnmişəm. Sonralar özüm sərbəst işləməyə başladım. Gündüzlər kolxozda çalışır, gecələr də anamla birlikdə lampa işığında palaz, cecim toxuyardım".



**Əhmədova İbahət Allahverdi qızı** - 1929-cu il. Yuxarı Aralıq kəndi.
"Mənim ustadım anamdır. Uşaqlıqdan bu işə o qədər həvəsli idim ki, anam hananın qarşısında oturan kimi gedib yanında əyləşir, çox vaxt da naşılıqdan əl-ayağına dolaşırdım. Beləcə, bir müddətdən sonra mən də toxumağa başladım. Əksər hallarda kilim, palaz, cecim toxuyurdum".



**Bağırova Gülarə Cəbi qızı** - 1940-cı il. Aşağı Aralıq kəndi.
"Bu sənəti anam Zəroş Fərzalı qızından öyrənmişəm. Bacılarımın da müəllimi anam olub. Biz birlikdə yer hanasında cecim, xurcun, məfrəş toxumuşuq".



**Qasımova Gülnabat Hacı qızı** - 1940-cı il. Aşağı Aralıq kəndi.
"Mən anam Gülşən Abbas qızının yolunu davam etdirmişəm. Anamla bərabər onlarla kilim, gəbə toxumuşam. Gəlin köçdükdən sonra gördüm ki, qayınanam Mələknisə xanım, baldızlarım Mənsumə, Səkinə də toxumağı bacarırlar. Əl işlərimin bəzilərini və bir palazı indiyədək saxlamışam".



**Məmmədrzayeva Gözəl Cəlal qızı** - 1938-ci il. Aşağı Aralıq kəndi.
"Mən toxumağı anam Şəhridən və qayınanam Sonadan öyrənmişəm. Anam o vaxtlar, bir çoxlarından fərqli olaraq, barama sapından hazırlanmış iplərdən heybə, cecim toxuyardı. Mən də anamla birlikdə gəbə, kilim toxumuşam".



**Muxtarova Güllər Bəhlul qızı** - 1929-cu il. Aşağı Aralıq kəndi.
"Toxumağı anam Zəhradan öyrənmişəm, anam da nənəm Ballının davamçısı olub. Mən hələ balaca olarkən məhləmizdə böyük tut ağacı vardı, anam qonşularla kolxoza gedərkən yunu bizim qabağımıza qoyub deyərdi ki, mən gələnə qədər daraqda darayıb cəhrədə əyirin. Biz də həvəslə onun tapşırıqlarını yerinə yetirərdik. Anam işdən qayıdandan sonra hazır ipləri mis qazanlarda boyayar, qurudar, sonra da yumaq edib, kilim, palaz, gəbə toxuyardıq. Anam hərdən zarafatla "toxumağı bacarmayan qıza elçi gəlmir" deyərdi".





**Nağıyeva Tərlan Abidin qızı** - 1934-cü il. Qarxun kəndi.
"Məhləmizdə qoyun-quzu saxlayır, onların yunundan cecim, palaz toxumaq üçün istifadə edirdik. Mən də Durna nənəmə həm kömək edər, həm də ondan öyrənərdim. İllər keçdikcə bu sənəti tam mənimsədim və özüm sərbəst toxumağa başladım. İlk əl işimi oğluma hədiyyə etmişəm".



**Cəfərova Zərrux Həsən qızı** - 1940-cı il. Qarxun kəndi.
"Toxumağı həmkəndlim Əsmər İsmayıl qızından öyrənmişəm. Özümüzün qoyunlarımız vardı. Onların yunlarını qırxar, yuyar, daraqda darayar, cəhrədə əyirərdik. Sonra isə ipləri təbii boyalarla boyayardıq. Anam yerdə hana qurub uzun cecimlər, məfrəşlər, xurcunlar toxuyardı. Mən də onunla bərabər kilim, palaz toxumuşam".



**Məmiyeva Ziynət Əli qızı** - 1930-cu il. Qarxun kəndi.
"Toxumağı qayınanam Məmiyeva Bəyimdən öyrənmişəm. O, çox istedadlı bir sənətkar idi; işi incəliklə yerinə yetirirdi. Qayınanam qoyunlarımızın yunlarını bizə yuduzdurardı. Sonra onları qurudar, yun darağında darayar, cəhrədə əyirib ip edərdik və həmin ipləri mis qazanlarda boyayıb kilim toxuyardıq".



**Xəlilova Şəhri Qurban qızı** - 1927-ci il. Qarxun kəndi.
"Toxuculuğu anam Balaxanım Mustafa qızından öyrənmişəm. Xeyli qoyun-quzumuz olardı. Onların yununu yuyur, təmizləyir, darayır, cəhrədə əyirir, hazır ipləri boyayırdıq. İpləri hanadan asıb gəbə, kilim, cecim toxuyardıq. Toxuduqlarımdan bir hissəsini övladlarıma hədiyyə vermişəm. Bəzilərini də evimdə saxlamışam".



**Mahmudova Qızxanım İsmayıl qızı** - (1925-2006). Qarxun kəndi.
Gəlininin dediklərindən: "Qızxanım nənə toxumağı anası Gilədən öyrənibmiş. Müharibə illərində gündüzlər kolxozda işləyib, gecələr isə çıraq işığında hana qurub kilim, gəbə, məfrəş, xurcun toxuyarmışlar. Onun əl işlərindən bəzilərini indi də qoruyub saxlayırıq".



**Qəhrəmanova Zinyət Rüstəm qızı** - (1913-1995). Aşağı Aralıq kəndi.
Qızı Banunun xatirələrindən: "Anam xalça toxumağı öz anası Fatmadan öyrənib. O, adətən, palaz, gəbə, cecim, bəzən də xurcun, dən yığmaq üçün çuvallar toxuyardı. Anam əl işlərindən – palazlardan, cecimlərdən övladlarına da hədiyyə edib".



**Cəlilova Sara Cəbrayıl qızı** - 1935-ci il. Aşağı Aralıq kəndi.
"Peşəkar toxucu olan anam Zəroş Bayraməli qızı öz əl işlərində daha çox heyvan – maral, ceyran, dağ keçisi təsvirlərinə üstünlük verərdi. O, mənim müəllimim olmuşdur. Anam da anası Zeynəbin yolunu davam etdirib. Ölçü baxımından böyük olan heyvan təsvirlərinin toxunuşu bir qədər çətin olsa da, anam öz işindən zövq ala bilirdi".



**Məmmədxanova Güllü Camal qızı** - 1930-cu il. Aşağı Aralıq kəndi.
"Qayınanam Zəroş xanım çox mükəmməl bir toxucu idi. Onun yanına öyrənməyə gələn qızlara hər şeyi elə incəliklə başa salırdı ki, əlavə sorğu-suala ehtiyac qalmırdı. Qızları da Zəroş nənənin yetirmələridir və analarının adına layiq xalçaçılardır. Mən də gəlin gələndən sonra onlarla bərabər kilim, cecim toxumuşam".





**Nəcəfova Mələk Haqverdi qızı** - (1915-2012). Aşağı Aralıq kəndi.
Həmkəndlilərin dediklərindən: "Mələk nənə iki müharibə - Birinci və İkinci dünya müharibələrini görüb. O, gündüz kolxozda işləyib, gecə isə qonşuları ilə yun darayıb, cəhrədə əyirib, ipləri təbii boyaqlarla boyayaraq, yer hanasında cecim, kilim, gəbə toxuyub. Onun toxuduğu gəbələr hazırda Naxçıvan Dövlət Diyarşünaslıq Muzeyində qorunur".



**Paşayeva Həcər Cəfərqulu qızı** - 1932-ci il. Tənənəm kəndi.
"Özümü anamın davamçısı hesab edirəm. Anam da nənəmin yolunu davam etdirib. Rəhmətlik nənəm Nənəxanım məşhur toxuculardan olub. O, "Qoçbuynuzu" kilimi, məfrəş, xurcun, cecim, xalça toxuyub. Rəhmətlik qayınanam Sonabəyim də bacarıqlı toxuculardan olub. Ondan mənə xalça, məfrəş, xurcun, cecim yadigar qalıb. Mən də, öz növbəmdə, toxuduğum kilimlərdən, xalçalardan, cecimlərdən övladlarıma hədiyyə etmişəm. Ancaq mənim üçün xüsusi dəyəri olanları bu gün də saxlayıram".



**Mehdiyeva Nübübət Hüseyn qızı** - 1928-ci il. Axura kəndi.
"Mən xalça, kilim toxumağı anam Gülcahandan öyrənmişəm. Anamın zövqoxşayan əl işləri vardı. Rəhmətlik nənəm Zeynəbxatın da "Dəvəli" palazlar, məfrəşlər toxuyarmış. Toxuculuğu bu qədər sevən və ona önəm verən bir ailədə böyüdüyümdən, bu sənətdən kənarda qala bilməzdim. Qismətimdən, gəlin köçdüyüm ailə də ata evim kimi toxuculuğun vurğunu idi. Rəhmətlik qayınanam Tellinin yanında baldızım Pürüzəylə cecim, kilim toxuyardıq".



**Məmmədova Xanım Maqsud qızı** - (1905-1993). Aşağı Aralıq kəndi.
Həmkəndlilərinin xatirələrindən: "Xanım nənə toxuculuğu anası Ümbülbanudan öyrənibmiş. O, toxumaq üçün lazım olan hər şeyi özü hazırlayardı. İpi əyirir, ağac qabığından və ot köklərindən hazırladığı boyaqlarda boyayır, sonra da hana arxasına keçib kilim, gəbə, xurcun toxuyardı".



**Məmmədova Sənubər Məşədi Əli qızı** - (1935-1998). Yuxarı Aralıq kəndi.
Həmkəndlilərinin xatirələrindən: "Sənubər nənə bu sənəti anası, məşhur toxucu Xanım Maqsud qızından öyrənib. Ağbirçək toxucu gündüzlər kolxozda işləyib, gecələr isə lampa işığında cəhrədə yunu əyirib, kilim, gəbə toxuyardı".



**Əliyeva Fəridə Fətulla qızı** - (1934- 2006). Dərvişlər kəndində anadan olub, Aşağı Aralıq kəndinə gəlin köçüb.
Qızı Əliyeva Tünzalənin dediklərindən: "Anam toxumağı öz anası Cəlilova Həcərdən öyrənib. Rəhmətlik danışardı ki, nənəm dəvə üçün çul, qotazlı xurcun, məfrəş toxuyarmış. Anam gündüzlər kolxozda işləyib, işdən sonra ip əyirib, yun darayıb gözəl xurcunlar, kilimlər, gəbələr toxuyardı. Onun yun darağı, qurulmuş hanası hələ də gözümün önündən getmir".



# Şərur toxucularının əl işləri



**Məfraş.** Toxucu: Vəkilova Rübabə İsmayıl qızı. Danyeri kəndi.



**Məfraş.** Toxucu: Vəkilova Səkinə İsmayıl qızı. Danyeri kəndi.



**Xurcun.** Toxucu: Vəkilova Rübabə İsmayıl qızı. Danyeri kəndi.



**Kilim.** Toxucu: Paşayeva Həcər Cəfərqulu qızı. Tənənəm kəndi.

**Kilim.** Toxucu: Ələkbərova Nərgiz Məmməd qızı. Axura kəndi.



**Cecim.** Toxucu: Tağıyeva Gülşən Məhəmməd qızı. Axura kəndi.







**Xalça.** Toxucu: Musayeva Səkinə Heydər qızı. Havuş kəndi.



**Kilim.** Toxucu: Hüseynova Pərzad Zülfüqar qızı. Havuş kəndi.



**Xalça.** Toxucu: Eminova Mələksima Əli qızı. Yuxarı Yaycı kəndi.

**Xalça.** Toxucu: Ağayeva Leyla İsmayıl qızı. Danyeri kəndi.



**Kilim.** Toxucu: Mehdiyeva Nübübət Hüseyn qızı. Axura kəndi.



**Kilim.** Toxucu: Vəkilova Həqiqət Hüseynalı qızı. Danyeri kəndi.





**Xalça.** Toxucu: Nəbiyeva Gülzar Hüseyn qızı. Dəmirçi kəndi.



**Kilim.** Toxucu: Əliyeva Sona Əli qızı. Yuxarı Yaycı kəndi.



**Xalça.** Toxucu: Vəliyeva Bəsti Əkbər qızı. Tənənəm kəndi.

**Xalça.** Toxucu: Hüseynova Sonabəyim Vəli qızı. Havuş kəndi.



**Xalça.** Toxucu: Əliyeva Sara Ələkbər qızı. Axura kəndi.



**Xalça.** Toxucu: Həsənova Səltənət Hümmət qızı. Tənənəm kəndi.







**Kilim.** Toxucu: Tağıyeva Bibixanım Koroğlu qızı. Tənənəm kəndi.



**Cecim.** Toxucu: Orucova Gülsüm Kərbəlayı Qafar qızı. Axura kəndi.



**Cecim.** Toxucu: Cəfərova Laləzar Məşədi qızı. Tənənəm kəndi.

**Cecim.** Toxucu: Abbasova Səkinə Qafar qızı. Tənənəm kəndi.



**Kilim.** Toxucu: Hüseynova Ümmüleyla Heydər qızı. Havuş kəndi.



**Xalça.** Toxucu: Abbasova Səhərnaz Abbas qızı. Tənənəm kəndi.





**Xalça.** Toxucu: Xəlilova Şəhri Qurban qızı. Qarxun kəndi.



**Xalça.** Toxucu: Talıbova Xədicə Həsən qızı. Aşağı Aralıq kəndi.



**Xalça.** Toxucu: Talıbova Səkinə Məhərrəm qızı. Aşağı Aralıq kəndi.

**Xalça.** Toxucu: Məmmədova Sənubər Məşədi Əli qızı. Yuxarı Aralıq kəndi.



**Xalça.** Toxucu: Əhmədova İbahət Allahverdi qızı. Yuxarı Aralıq kəndi.



**"Namazlıq".** Toxucu: Nağıyeva Tərlan Abidin qızı. Aşağı Aralıq kəndi.







**Xalça.** Toxucu: Qəhrəmanova Banu Məhərrəm qızı. Aşağı Aralıq kəndi.



**Xalça.** Toxucu: Qasımova Gülnabat Hacı qızı. Aşağı Aralıq kəndi.



**Xalça.** Toxucu: Məmmədxanova Güllü Camal qızı. Aşağı Aralıq kəndi.

**Xalça.** Toxucu: Məmmədova Xanım Maqsud qızı. Aşağı Aralıq kəndi.



**Xalça.** Toxucu: Muxtarova Güllər Bəhlul qızı. Aşağı Aralıq kəndi.



**Xalça.** Toxucu: Məmiyeva Ziynət Əli qızı. Qarxun kəndi.



**Xalça.** Toxucu: Əliyeva Fəridə Fətulla qızı. Dərvişlər kəndi





**Xalça.** Toxucu: Cəfərova Zərrux Həsən qızı. Qarxun kəndi.



**Xalça.** Toxucu: Mahmudova Qızxanım İsmayıl qızı. Qarxun kəndi.



**Xalça.** Toxucu: Mahmudova Meyxanım İsmayıl qızı. Aşağı Aralıq kəndi.

**Xalça.** Toxucu: Mahmudova Qızxanım İsmayıl qızı. Qarxun kəndi.



**Xalça.** Toxucu: Məmmədrzayeva Gözəl Cəlal qızı. Aşağı Aralıq kəndi.







**Xalça.** Toxucu: Cəlilova Sara Cəbrayıl qızı. Aşağı Aralıq kəndi.



**Xalça.** Toxucu: Bağırova Gülarə Cəbi qızı. Aşağı Aralıq kəndi.

**Kilim.** Toxucu: Nəcəfova Mələk Haqverdi qızı. Aşağı Aralıq kəndi.



**Kilim.** Toxucu: Qəhrəmanova Zinyət Rüstəm qızı. Aşağı Aralıq kəndi.





**Xalça.** Toxucu: Məmmədxanova Zəroş Fərzalı qızı. Aşağı Aralıq kəndi.

# ORDUBAD RAYONU

Naxçıvan Muxtar Respublikasının inzibati rayonlarından biri olan Ordubad rayonu 1930-cu ildə təşkil edilmiş, 1963-cü ildə Culfa rayonu ilə birləşdirilmiş, 1965-ci ildə isə yenidən müstəqil rayon olmuşdur. Cənubda İranla, şimalda və şərqdə Ermənistanla həmsərhəddir. Sahəsi 979 kv.km, əhalisi isə 46,9 min nəfərdir. Rayonda 1 şəhər, 3 qəsəbə və 43 kənd mövcuddur. Mərkəzi Ordubad şəhəridir.

Rayonun ərazisi, əsasən, dağlıqdır. Naxçıvan Muxtar Respublikasının ən yüksək nöqtəsi olan Qapıcıq dağı (3904 m) buradadır. İri yaşayış məntəqələri Ordubad şəhəri, Vənənd, Dəstə və Yuxarı Əylis kəndləridir.

Ordubad ərazisi Daş dövründən başlayaraq son orta əsrlərə qədərki tarixi mərhələni əhatə edən abidələrlə zəngindir. Tivi və Nəsirvaz kəndlərindən şimal-şərqdə, Qapıcıq (Gəmiqaya) dağının cənub-şərq yamacındakı Qaranquş yaylağı ərazisi Eneolit, Tunc və ilk Dəmir dövrlərində Naxçıvanın qədim sakinlərinin əsas ov məskənlərindən biri olmuşdur. Gəmiqayada aşkar edilmiş qədim təsviri sənət nümunələri e.ə. IV-I minilliklərdə Azərbaycan ərazisində yaşamış əhalinin həyat tərzini, dünyagörüşünü, adət-ənənələrini, dini, ideoloji və estetik təfəkkürünün inkişafını izləməyə imkan verir. Gilançay vadisində e.ə. II-I minilliklərə aid Sabirkənd, Plovdağ, Xaraba Gilan, Şomudərə, Mərdangöl və s. maddi mədəniyyət qalıqları ilə zəngin yaşayış yerləri və nekropollar mövcuddur. Rayon ərazisində qeydə alınmış 292 tarix və mədəniyyət abidəsinin 4-ü dünya əhəmiyyətlidir. Xaraba Gilan, Qeysəriyyə, Cümə məscidi, Eyvaz türbəsi, Dər kəndindəki türbə və b. uzaq keçmişin yadigarlarıdır.

Tədqiqatçılar "Ordubad" toponiminin qədim türk dillərində "xan düşərgəsi", "iqamətgah", "qərargah" və s. mənalarda işlədilən "ordu" və "abad" sözlərinin birləşməsindən yarandığını qeyd edirlər. Qaynaqlarda Ordubadın orta əsrlərdə böyük bir şəhər olduğu göstərilir. Ordubadın adı ilk dəfə VII əsrdə çəkilir. Həmdullah Qəzvini (XIV əsr), İsgəndər Münşi (XVI-XVII əsrlər) və İ.Şopen (XVIII-XIX əsrlər) əsərlərində Ordubadın gözəl meyvə bağları ilə əhatələnmiş iri şəhər olduğundan, burada 70-ə qədər bulağın mövcudluğundan söhbət açmışlar. "Ordubadı mübaliğəsiz bütün Qafqazın ən şairanə, ən dilbər guşələrindən biri adlandırmaq olar" ("Qafqaz" qəz., 1862, № 25).

XVI əsrin II yarısında Ordubaddan Venesiya, Marsel, Amsterdam və s. Avropa şəhərlərinə ipək ixrac olunurdu. Ordubad XV-XVI əsrlərdə Qaraqoyunlu, Ağqoyunlu və Səfəvilər dövlətlərinin tərkibinə daxil olmuşdur. I Şah Abbas ordubadlıların düşmənə müqavimət göstərdiyinə görə və vəziri Hatəm bəy Ordubadinin fəaliyyətini nəzərə alaraq, Ordubadı bütün divan vergilərindən azad etmişdi. Səfəvi-Osmanlı müharibələri Ordubada ziyan vursa da, XVIII əsrin II yarısında burada böyük canlanma başlamış, Cümə məscidi, mədrəsə, buzxana, zorxana, hamam, karvansaralar, meydanlar tikilmiş, örtülü bazar kompleksi salınmışdı.

XVIII əsrin əvvəllərində Ordubad osmanlıların tabeliyində olan Naxçıvan sancağının 14 nahiyəsindən biri olan Azadciran nahiyəsinin tərkibində idi. XVIII əsrin II yarısında Ordubad mahal mərkəzi kimi Naxçıvan xanlığının tərkibinə daxil idi. Türkmənçay müqaviləsinə əsasən, Ordubad Naxçıvan xanlığının tərkibində Rusiyaya birləşdirildi. Bu zaman Ordubadda 3444 nəfər yaşayırdı; onların da 3260-ı azərbaycanlı idi. Ordubad yeni təşkil olunmuş İrəvan quberniyasının tərkibinə qatılmış və eyniadlı qəzanın mərkəzi olmuşdur.

1854-cü ildə Ordubadda ikisinifli ibtidai qəza məktəbi açıldı. 1892-ci ildə isə M.T.Sidqi yeni üsullu "Əxtər" məktəbini açdı. XX əsrdə və XXI əsrin ilk onilliyində Ordubad rayonu mədəni quruculuq və səhiyyə sahəsində çox böyük uğurlar əldə etmişdir. Son 5 ildə rayonun 8 kəndində 2347 yerlik məktəb binası istifadəyə verilmiş, kompüter təlim-tədris mərkəzinin rayon filialı açılmışdır. Rayonda 41 ümumtəhsil məktəbi (7766 şagird), 8 məktəbəqədər (217 uşaq) və 5 məktəbdənkənar müəssisə (2025 şagird), 1 mərkəzləşdirilmiş kitabxana və onun 47 şöbə və filialı, 16 kənd mədəniyyət evi, 23 klub, 3 muzey, şahmat klubu, 2 avtoklub, 2 musiqi məktəbi, 1 teatr fəaliyyət göstərir. Rayonda 305 çarpayılıq, o cümlədən 150 çarpalıyıq rayon mərkəzi xəstəxanası, 50 çarpalıyıq uşaq xəstəxanası, 3 kənd sahə xəstəxanası, 6 ambulatoriya, 31 feldşer-mama məntəqəsi, təcili yardım stansiyası var. 51 həkim, 241 orta tibb işçisi çalışır. Ümummilli Lider Heydər Əliyevin "Azərbaycanın incisi" adlandırdığı Ordubad sosial-iqtisadi və mədəni sahələrdə yüksək nailiyyətlər qazanmışdır.





**Həsənova Leyla Məhərrəm qızı** - 1961-ci il. Qoşadizə kəndi.
"Mən və bacılarım Xanım, Gülnisə də xalça toxumağı anamız Muradova Gülnaz Dadaş qızından öyrənmişik. Anam yaxşı xalça toxuyar, biz də onun yanında oturub ilmə vurmağı, naxış atmağı öyrənərdik. Qoyun-quzu saxlayardıq. Qoyunlarımızın qırxılmış yunlarını yuyar, təmizləyər, cəhrədə əyirər, sonra da boyaqçı Zeynəbə boyadardıq. Bütün bu hazırlıqlardan sonra atam evdə hana qurar, biz də oturub xalça toxuyardıq. Ailə qurandan sonra toxuculuğun bəzi sirlərini də rəhmətlik qayınanam Məmmədova Rübabə Məmməd qızından öyrənmişəm. Məsələn, onlardan birini deyim... Xalçanı toxuyandan sonra onu qoyun tövləsinə sərərdik. Qoyunlar bir müddət üstündə gəzəndən sonra, götürüb çayda yuyardıq ki, rəngi qarışmasın".



**Ələkbərova Lalə Qurban qızı** - 1940-cı il. Darkənd kəndi.
"Mənə və bacım Kazımova Bilqeyisə xalça toxumağı anam Kazımova Səkinə Bəşir qızı öyrədib. O, gözəl xalça toxuyar, biz də körpə yaşlarımızdan anamızın yanında oturub əlinə baxardıq ki, öyrənək. Atamın çoxlu qoyun-quzusu vardı. Qoyunların qırxılmış yunlarını əvvəlcə yuyub təmizləyər, sonra da cəhrədə əyirərdik. İpləri isə boyaqçıda boyadardıq".



**Mədətova Xurma Mədət qızı** - 1953-cü il. Kolanı kəndi.
"Toxuculuq bizə ulularımızdan yadigar qalan sənətdir. Biz də bu sənətə, bu ənənəyə ömür boyu sadiq olmuşuq. Mən toxumağı anam Mədətova Zərbab Məhəmməd qızından (1928) öyrənmişəm. Onunla birlikdə çoxlu sayda xalça toxumuşam".



**Quliyeva Zeynəb Əli qızı** - 1927-ci il. Tivi kəndi.
"Xalçaçılığı anam Quliyeva Əzdad Məmmədalı qızından öyrənmişəm. Hələ uşaqlıqdan anamın yanında oturub onun əllərinə baxardım. Toxumağı öyrənəndən sonra anama kömək edirdim, birlikdə xalça, kilim toxuyurduq. Özüm də sərbəst şəkildə bir çox xalçalar, kilimlər toxumuşam. Ailə qurandan sonra qayınanam Şahmərdanova Bəyim Hacışah qızı ilə bərabər çoxlu xalçalar toxumuşam".





**Nağdəliyeva Bəsti Həsən qızı** - 1940-cı il. Tivi kəndi.
"Ailəmizdəki qızlara – mənə və bacılarım Nağdəliyeva Mənzilə, Nağdəliyeva Bəsminaza xalça toxumağı anam Nağdəliyeva Narıngül Nağdalı qızı öyrədib. Yunu başqa yerdən almazdıq; özümüzün qoyunlarımız vardı, onların yununu yuyub, təmizləyib, cəhrədə əyirdikdən sonra boyadardıq. Gəlin köçdükdən sonra rəhmətlik qayınanam Babayeva Mercahan Muradəli qızından da toxuculuğun bir çox sirlərini mənimsəmişəm. Hətta onunla bərabər bir neçə gəbə, xalça da toxumuşuq. Toxuduğumuz xalçanı bir dəfə çayda yuyardıq ki, rəngləri qarışmasın".



**Qurbanova Gülüzar Nemət qızı** - 1943-cü il. Tivi kəndi.
"Bacım Qurbanova Fatmaya və mənə toxuculuğun sirlərini anam Qurbanova Hava Hüseyn qızı öyrədib. Anamın çox yaxşı toxuculuq qabiliyyəti vardı. Bir-birindən gözəl xalçalar, xurcunlar toxuyardı. Sonralar biz də bu işdə anamıza kömək edərdik. Xammalı özümüz tədarük edirdik, atamın qoyunları vardı. O qoyunların yununu qırxar, yuyar, təmizləyər, cəhrədə əyirdikdən sonra hazır ipləri boyaqçı Zeynəbə boyadardıq. Rəhmətlik qayınanam Tağıyeva Cəvahir Niyazəli qızı ilə də çoxlu xalça, kilim toxumuşam. Rəngləri qarışmasın deyə, xalçanı qoyun tövləsinə salardıq. Çünki qoyun sidiyi dəyən iplərin rəngi davamlı olur".



**Əliyeva Fatma Nağı qızı** - 1923-cü il. Tivi kəndi.
"Xalça toxumağı anam Ağayeva Qızxanım Məhəmməd qızından öyrənmişəm. O, xalça toxuyanda yanında oturardım. Vurulan naxışlara, salınan ilmələrə diqqətlə baxardım. Bu işə marağım güclü idi. Anam mənim artıq sərbəst işləyə bildiyimi gördü və hana qarşısında tək oturub işləməyimə icazə verdi. O qədər həvəsli idim ki, az vaxt ərzində bir neçə xalça, kilim toxuyurdum".



**Səfərova Səkinə Əkbər qızı** - 1939-cu il. Biləv kəndi.
"Xalça toxumağı anam Səfərova Leyli Fəzail qızından öyrənmişəm. O, mənə ilmə vurmağı, naxış atmağı, incə toxumağı öyrədərdi. Mən də həvəslə anamı dinləyərdim. Sonralar sürətlə işləməyə başladım və hana arxasında oturub anama kömək etdim. Gəlin köçdükdən sonra rəhmətlik qayınanam Əmirova Güllü Musa qızı ilə birlikdə xalça, kilim toxumuşuq".



**Quliyeva Qərənfil Xeyvər qızı** - 1944-cü il. Biləv kəndi.
"Toxumağı anam Quliyeva Fatmadan öyrənmişəm. Anam da öz anası Novruzova Gülnar Novruzəli qızından öyrənib. Atam qoyun-quzu saxlayar, biz də onların yununu təmizləyib cəhrədə əyirərdik. İpləri boyaqçıda boyatdıqdan sonra hananı qurar və xalça toxuyardıq. Gəlin köçdükdən sonra qayınanam Zeynalova İzzət Nağı qızı ilə də xeyli xalçalar toxumuşam".



**Şıxəliyeva Şəhrəbanu Murtuz qızı** - 1928-ci il. Biləv kəndi.
"Toxuculuğu mənə anam Vəliyeva Şahcahan Qulammirzə qızı öyrədib. Özüm peşəkar toxuculardan olmuşam. Atamın qoyunları vardı; onların yununu qırxdıqdan sonra yuyub, cəhrədə əyirərdik. İpləri boyaqçıya verərdik. Elə ki bütün ləvazimatlar hazır oldu, əyləşərdik hananın qarşısında və başlayardıq xalça toxumağa. Ailə qurandan sonra rəhmətlik qayınanam Şıxəliyeva Səkinə Süleyman qızı ilə də çoxlu sayda palaz, məfrəş, xurcun toxumuşam".



**Hətəmova Qönçə Həsən qızı** - 1955-ci il. Biləv kəndi.
"Toxuculuğun sirlərini anamdan – Həsənova Şəhrəbanu Allahverdi qızından öyrənmişəm. Anam bir-birindən gözəl xalçalar toxuyardı. O da toxumağı anası Məsimova Həcər Allahverdi qızından öyrənmişdi. Ailə qurandan sonra rəhmətlik qayınanam Rzayeva Xavər Almurad qızı ilə də çoxlu sayda xalçalar toxumuşam".



**Əliyeva Pərvanə Ənvər qızı** - 1963-cü il. Tivi kəndi.
"Biz ailəlikcə toxucu olmuşuq. Mənə və bacılarım Əliyeva Məhluqəyə, Əliyeva Xalidəyə xalça toxumağı rəhmətlik anamız Ağayeva Nəcavət Ələkbər qızı öyrədib. Anam üzərində müxtəlif işarələr, şəkillər olan xalçalar toxuyardı. Şəkilləri səliqəli və incə işləyərdi. Buna görə də ona cehizlik xalça toxumağı sifariş edərdilər. Biz də anamıza kömək edərdik. Hətta özümüzə də cehizlik xalçalar toxuyardıq".





**Zeynalova Tehran Məzzə qızı** - 1948-ci il. Biləv kəndi.
"Toxumağı anam Zeynalova Əsli Bəyalı qızından öyrənmişəm. Anam da toxumağı öz anası Quliyeva Tükəzban Əmiraslan qızından öyrənmişdi. Anamın dediyinə görə, rəhmətlik nənəm çox yaxşı xalça toxuyarmış. Onun əl işlərindən bəziləri indi də qalır".



**Şıxəliyeva Fatma Şıxəli qızı** - 1947-ci il. Biləv kəndi.
"Xalça toxumağı anam Şıxəliyeva Şəhrəbanı Murtuz qızından öyrənmişəm. Anam mənə ilmə vurmağı, naxış atmağı, incə toxumağı öyrədərdi. Mən də həvəslə onun dediklərini mənimsəyərdim. Beləcə, bir də gördüm ki, artıq sərbəst şəkildə toxumağı bacarıram. Sonralar qayınanam Cəbiyeva Məsmə Nağı qızı və baldızım Cəbiyeva Rəvanə Rafael qızı ilə bərabər onlarla xalça toxumuşuq".



**Məsimova Nazilə Əli qızı** - 1949-cu il. Biləv kəndi.
"Ailəlikcə xalça toxumağı bacarırdıq. Mənə və bacım Məsimova Cəmilə Əli qızına xalça toxumağı anamız Mənsumova Zərnişan Bayraməli qızı öyrədib. Anam da bu sənəti rəhmətlik anası Hacıyeva Fatmadan öyrənibmiş. Ümumiyyətlə, biz toxuculuq işinə böyük maraq göstərirdik, hər birimiz xalça, kilim toxumağı bacarırdıq. Öz qoyunlarımızın yunundan əyirdiyimiz ipi boyaqçı Töhfəyə boyadardıq. Qismətdən də sonralar toxuculuq işini bilən bir ailənin gəlini oldum. Rəhmətlik qayınanam Səfərova Qönçə Mənsur qızı ilə də xalçalar toxumuşam".



**Abbasova Züleyxa Səttar qızı** - 1947-ci il. Biləv kəndi.
"Mənə xalça toxumağı anam Bədəlova Zöhrə Həsənxan qızı öyrədib. Xalçaya marağım olduğundan, rəhmətlik anam toxuyanda məni yanında oturdardı. Xalça toxuya-toxuya mənə öz anasından danışardı. Çünki nənəm Həsənova Şirin Həsən qızı da yaxşı xalçalar toxuyarmış. Bir çox ailələr kimi, bizim də qoyun-quzumuz vardı. Onların yununu yuyub-təmizləyib, cəhrədə əyirib, ipləri boyaqçı Səriyyəyə boyadardıq. Mən özüm, bacılarım üçün cehizlik xalçalar toxumuşam. Gəlin köçdükdən sonra rəhmətlik qayınanam Abbasova Zəriş Kərim qızı ilə də çoxlu xalça toxumuşuq. Qayınanamın gözəl əl qabiliyyəti olduğundan, kənd camaatı ona qızları üçün cehizlik xalçalar toxutdurardı".



**Fətəliyeva Balabəyim Hacı qızı.** 1941-ci il. Biləv kəndi.
"Mənə və bacım Ələsgərova Sonabəyimə xalça toxumağı anam Fətəliyeva Gülşən Hətəmxan qızı öyrədib. Biz də həvəslə anamızın dediklərinə qulaq asır, imkan düşən kimi ona kömək edirdik. Beləliklə də, az vaxt ərzində toxuculuğun bir çox sirlərini mənimsəyə bilmişdik".



**Zarova Firuzə Mənəş qızı** - 1947-ci il. Biləv kəndi.
"Biz ailəlikcə toxuculuqla məşğul idik. Mənə və bacılarıma xalça toxumağı rəhmətlik anamız Zarova Nənəxanım Teymur qızı öyrədib. Anam xalça toxuyanda mən və bacılarım – Zarova Südabə, Zarova Roza anamıza kömək edir, həm də özümüz öyrənirdik. Biz bu işi sevə-sevə öyrənirdik. Artıq bir müddətdən sonra özümüz sərbəst şəkildə hananın qarşısında oturub toxuya bilirdik".



**Məmmədova Minə Hətəm qızı** - 1949-cu il. Biləv kəndi.
"Xalça toxumağı çox sevirdim. Bu işi anam Ağarzayeva Nənəxanım Rza qızından öyrənmişəm. Uşaq yaşlarımda anamın yanında oturub onun naxış atmağını, ilmə vurmağını seyr edirdim. Bu işə o qədər həvəsli idim ki, yaşım az olsa da, anam xalça toxuyan vaxt yanından əl çəkmirdim. Axır ki, anam marağımı görüb, yavaş-yavaş məni öyrətməyə başladı. Sonralar özüm sərbəst toxuya bilirdim. Xoşbəxtlikdən rəhmətlik qayınanam da toxuculuq işini bilirdi və onunla bərabər xeyli xalça toxumuşuq".



**Babayeva Elmira Təvəkkül qızı** - 1943-cü il. Azadkənd kəndi.
"Mənə və bacım Babayeva Rayaya xalça toxumağı rəhmətlik anamız Səfərova Leyla Allahverdi qızı öyrədib. Anam bizi yanında oturdub əlinə baxmağı və sonra təkrar etməyimizi tapşırardı. Get-gedə püxtələşdik, onlarla xalça və kilim toxuduq. Onu da deyim ki, qayınanam Məmmədova İmşərəf Əhməd qızı da çox usta bir toxucu idi".





**Hacıyeva Möminə Hacı qızı** - 1957-ci il. Aza kəndi.
"Mənə xalça toxumağı rəhmətlik anam Yunusova İnnicə Ağa qızı öyrədib. O, xalça toxuyanda mən həmişə yanında oturar, həm ona kömək edər, həm də əlinə baxıb öyrənərdim. Anama kömək edə-edə naxış vurmağın, ilmə düzməyin, xalça üzərində hansısa bir təsvirin işlənmə qaydalarının sirlərinə bələd oldum. Sonralar qayınanam Ağarzayeva Nənəxanım Rza qızından da xalçaçılığın bələd olmadığım bir çox tərəflərini öyrəndim".



**Məhərrəmova Solmaz Məmməd qızı** - 1962-ci il. Azadkənd kəndi.
"Mənə və bacım Nağıyeva Almaza toxumağı rəhmətlik anamız Hacıyeva Firuzə Novruz qızı öyrədib. Anam xalça toxuyanda biz də onun əlinə baxar və hər dəfə nəsə yeni bir şey öyrənərdik. Atam qoyun-quzu saxlayardı, biz də onların yununu yuyar, təmizləyər, cəhrədə əyirər və ipləri boyaqçıda boyadardıq. Onu da deyim ki, cehizlik xalçalarımı özüm toxumuşam".



**Cəfərova Nisə Əbülfət qızı** - 1948-ci il. Vənənd kəndi.
"Mənə xalça toxumağı rəhmətlik anam Cəfərova Nənəxanım Mirseyid qızı öyrədib və anam da bu sənəti öz anası Tahirova Kübradan öyrənib. Çoxlu qoyun-quzumuz olardı; onların yununu yuyub, cəhrədə əyirib, ipləri boyaqçıda boyadardıq; evdə hana qurar, xalça toxuyardıq".



**Məmmədəliyeva Məleykə Abbas qızı** - 1956-cı il. Kələntər Dizə kəndi.
"Çoxuşaqlı ailəmiz vardı. Üç qardaş, beş bacı olmuşuq. Mənə və bacılarıma toxumağı anamız Ağayeva Telli Əli qızı öyrədib. Bacılarım Qurbanova Hacər və Ağayeva Sənubərlə birgə həm anamıza kömək edər, həm də toxumağı öyrənərdik. Anam da toxumağı anası Ağayeva Mələk Hacımahmud qızından öyrənib. Ailəmizdə bu sənət mükəmməl bir şəkildə nəsildən-nəslə ötürülüb".



**Sadıqova Fatma Həsən qızı** - 1981-ci il. Ordubad rayonu.
“Mənə və bacılarıma xalça toxumağı anam Fətəliyeva Kəmalə öyrədib. Bazardan aldığımız yunu əvvəlcə yuyub təmizləyir, cəhrədə əyirir və boyaqçıda istədiyimiz rənglərlə boyadırıq. İp hazır olandan sonra hananı qurub toxumağa başlayırıq”.



**Əliyeva Cəmilə Bağır qızı** - 1948-ci il. Əylis kəndi.
“Ailədə bir qardaş, dörd bacı olmuşuq. Atam Bağır kişi qoyun-quzu saxlayardı. Biz də onların yununu yuyub- təmizləyib, cəhrədə əyirərdik. Atam ipləri aparıb boyaqçıda boyatdırardı; sonra da hananı qurar, xalça toxuyardıq. Bizə toxumağı rəhmətlik anamız Vəliyeva Səriyyə Məsum qızı öyrədib. O isə anası Vəliyeva Şəhrəbanudan öyrənibmiş”.



**Quliyeva Zəhra Bağır qızı** - 1946-cı il. Əylis kəndi.
“Xalça toxumağı rəhmətlik anam Vəliyeva Səriyyə Məsum qızından öyrənmişəm. Uşaq yaşlarımdan bu işə meylim vardı. Anam da bu həvəsimi görüb, xalça toxumağı mənə öyrədərdi. Sonralar həm anama kömək edir, həm də müstəqil olaraq işləyirdim”.



**Muxtarova Zeynəb Məhəmməd qızı** - 1928-ci il. Gənzə kəndi.
“Mən xalça toxumağı anam İbrahimova Tutu Hacı Həmzə qızından öyrənmişəm. Qoyunlarımızdan qırxılmış yunu darayar, cəhrədə əyirər, boyayardıq. Bununla da xalça, kilim toxumaq üçün lazım olan müxtəlif rəngli iplər əldə edərdik”.





**Şəfiyeva Məsmə Fərrux qızı** - 1950-ci il. Aşağı Əylis kəndi.
“Ailədə iki qardaş, yeddi bacı olmuşuq. Mənə və bacılarım Şəfiyeva Zabitəyə, Şəfiyeva Yaquta toxumağın sirlərini rəhmətlik anamız Qədimova Fatma Qurban qızı öyrədib. O da bu sənəti öz anası rəhmətlik Qədimova Tellidən öyrənibmiş”.



**İsgəndərova Nərmin Cahangir qızı** - 1983-cü il. Ordubad rayonu.
“Biz üç bacıyıq, hər birimiz də toxumağı bacarırıq. Bizə xalça toxumağı anamız Mehdiyeva Bəyim Raziya qızı öyrədib, o isə öz anası Mehdiyeva Sonabəyimdən öyrənib. Nənəmin də, anamın da gözəl əl işləri var. Biz də onların bildiklərini öyrənirik. Xalça, kilim toxuyuruq. Özümüzü onların davamçıları hesab edirik”.



**Səfərova Səkinə Məmməd qızı** - 1973-cü il. Ordubad rayonu.
“Mənə və bacıma xalça toxumağı rəhmətlik anamız Namazova Zərinə öyrədib. Anamı da anası Ramazanova Zeynəb öyrədibmiş. Toxuculuğa kiçik yaşlarımdan maraq göstərmişəm. Özüm müstəqil işləyərək bir neçə xalça toxumuşam. İlk toxuduğum xalçanı da bacıma hədiyyə etmişəm”.



**İsgəndərova Yeganə Əsəd qızı** - 1965-ci il. Nüsnüs kəndi.
“Anam İsmayılova Asiya Vəli qızı çox gözəl xalçalar toxuyardı. Ona sifarişlə xalçalar toxutdurardılar. Xalça toxuyanda mən həmişə anamın yanında oturardım. Sonralar özüm sərbəst şəkildə hana qarşısında oturub xalça toxuyardım. İlk əl işim olan xalçanı bacıma cehizlik hədiyyə vermişəm”.



**Əliyeva Gülsüm İsrafil qızı** - 1942-ci il. Nüsnüs kəndi.
"Mənə və bacıma xalça toxumağı anamız Əliyeva Səkinə Nəcəf qızı öyrədib. O, xalça toxuyanda mən həmişə yanında oturar, həm ona kömək edər, həm də əlinə baxıb öyrənərdim. Beləliklə, toxuculuğun sirlərinə yiyələndim və sonralar özüm sərbəst şəkildə işləməyə başladım. Hətta cehizlik xalçalarımı da özüm toxumuşam".



**Həsənova Məleykə Kərbəlayı Cabbar qızı** - 1910-cu il. Gənzə kəndi.
"İndi toxuculuqla məşğul olanların sayı çox azalıb. Əvvəllər xalça, kilim və s. toxuculuq məmulatları daha çox olardı və onlara daha böyük diqqət yetirilərdi. Demək olar ki, hər bir evdə hana qurulardı. Ancaq indi bu işin çox zəif olduğunu görürük. Gənclərin də bu sahəyə marağı azalıb. Ancaq bizim dövrümüzdə evlərində hana qurulan hər bir qız mütləq toxuculuğu öyrənməli idi".



**Pənahova Zinyət Yunus qızı** - (1918-1993). Gənzə kəndi.
Gəlini İsmayılova İzzət Məmməd qızının dediklərindən: "Zinyət xanım gözəl xalçaçılardan olub. O, xalça toxumağı Əliyeva Hacıbəyimdən öyrənib. Bu evə gəlin gələndən qayınanamın yanında əyləşib onun əllərinə, ilmə, naxış vurmağına baxmışam. Zinyət xanımın mənə hədiyyə etdiyi xalçanı indi də göz-bəbəyim kimi qoruyuram".



**İsmayılova Ruqiyyə Məşədi Bilal qızı** - (1928-2009). Gənzə kəndi.
Gəlini Sadıqova Küşbər Məmiş qızının dediklərindən: "Ruqiyyə xanım kəndin ən gözəl xalça ustalarından olub. O xalça toxuya-toxuya mənə özü haqqında danışardı. Dediyinə görə, onun ustadı anası Sadıqova İzzət Həsən qızı olub".



# Ordubad toxucularının əl işləri



**Xalça.** Toxucu: Ələkbərova Lalə Qurban qızı. Darkənd kəndi.



**Xalça.** Toxucu: Sultanova Səltənət Sultan qızı. Tivi kəndi.

**Kilim.** Toxucu: Əliyeva Gülsüm İsrafil qızı. Nüsnüs kəndi.



**Kilim.** Toxucu: Əliyeva Pərvanə Ənvər qızı. Tivi kəndi.







**Xalça.** Toxucu: Fətəliyeva Balabəyim Hacı qızı. Biləv kəndi



**Kilim.** Toxucu: Hacıyeva Möminə Hacı qızı. Aza kəndi.

**Xalça.** Toxucu: Nağdəliyeva Bəsti Həsən qızı. Tivi kəndi.



**Xalça.** Toxucu: Hətəmova Qönçə Həsən qızı. Biləv kəndi.





**Xalça.** Toxucu: Quliyeva Qərənfil Xeyvər qızı. Biləv kəndi.



**Cecim.** Toxucu: Qurbanova Gülüzar Nemət qızı. Tivi kəndi.

**Cecim.** Toxucu: Həsənova Məleykə Kərbəlayı Cabbar qızı. Gənzə kəndi.



**Kilim.** Toxucu: Məsimova Nazilə Əli qızı. Biləv kəndi.





**Kilim.** Toxucu: Məhərrəmova Solmaz Məmməd qızı. Azadkənd kəndi.



**Kilim.** Toxucu: Məmmədova Minə Hətəm qızı. Biləv kəndi.

**Cecim.** Toxucu: Quliyeva Zeynəb Əli qızı. Tivi kəndi.



**Kilim.** Toxucu: Cəfərova Nisə Əbülfət qızı. Vənənd kəndi.



**Xalça.** Toxucu: Babayeva Elmira Təvəkkül qızı. Azadkənd kəndi.



# CULFA RAYONU

Culfa rayon kimi 1930-cu ildə təşkil edilmişdir. Şimal-şərqdə Ermənistanla, cənubda İranla həmsərhəddir. Sahəsi 1,0 min kv.km, əhalisi 43,5 min nəfərdir. Rayonda 1 şəhər, 24 kənd və b. yaşayış məntəqəsi var. Mərkəzi Culfa şəhəridir.

Rayonun Ermənistanla sərhədi boyu Zəngəzur silsiləsinin yal hissəsi uzanır. Silsilə Araz çayına doğru alçalaraq Arazboyu düzənliklərə keçir. Rayonun ən yüksək nöqtəsi Dəmirdağdır (3364 m).

Culfa rayonu, əsasən, üzümçülük və heyvandarlıq üzrə ixtisaslaşmışdır. Lakin burada digər təsərrüfat sahələrinin (taxılçılıq, meyvəçilik və s.) inkişafı üçün də əlverişli şərait mövcuddur.

Rayon ərazisində e.ə. III minilliyin ortalarından son orta əsrlərədək olan tarixi dövrü əhatə edən xeyli abidə qeydə alınmışdır. E.ə. III-II minilliklərdə bu ərazidə (Ərəfsə, Bənəniyar, Göydərə və s.) boyalı qablar mədəniyyəti, e.ə. II minilliyin sonu – I minilliyin əvvəllərində isə Xocalı-Gədəbəy arxeoloji mədəniyyəti (Boyəhməd, Ağsal, Ləkətağ, Nəhəcir, Culfa və s.) yayılmışdı.

Gülüstan türbəsi (XIII əsr), Ziya-ül-mülk körpüsü (XIII əsr), Əlincəqala (VII əsr), Əlincəçay xanəgahı (VIII-XII əsrlər), Qazançı körpüsü (1551-ci il), hamamlar, məscidlər, karvansaralar, qala divarları və b. abidələr bölgənin qədimliyindən xəbər verir.

Azərbaycanda orta əsrlərə aid yaşayış məntəqələrindən olan Culahəni (Culha) indiki Culfa ilə eyniləşdirilir. Orta əsrlərdə Culfa nəinki Naxçıvanın, eləcə də Azərbaycanın iqtisadi həyatında əhəmiyyətli rol oynayan şəhərlərdən birinə çevrilmişdi. Xüsusilə XVI-XVII əsrlərdə burada sənətkarlıq və ticarət inkişaf etmişdi. İ.Şopen göstərir ki, 8 min ailənin yaşadığı Culfanın əhalisi "...əkinə yararlı torpaq sahələri olmadığından, özlərini ancaq ticarətlə dolandıra bilirdilər". Səfəvi-Osmanlı müharibələri Culfa şəhərini dağıtdı. I Şah Abbas 1603-cü ildə bu şəhərin əhalisini İsfahan yaxınlığına köçürdü, şəhəri isə xarabalığa çevirdi.

Xanlıqlar dövründə Culfa Naxçıvan xanlığının tərkibində inkişaf etdi. Rusiya ilə Qacarlar dövləti arasında müharibə nəticəsində Naxçıvan xanlığı Rusiyaya birləşdirildi.

XX əsrdə Culfa Naxçıvan Muxtar Respublikası tərkibində ən müxtəlif sahələr üzrə nailiyyətlər əldə etdi.

Hazırda rayonun 28 ümumtəhsil və 1 peşə məktəbində 8 minə yaxın şagird təhsil alır. Əksər orta və natamam orta məktəblər yeni binalara köçürülmüş, məktəblər müasir texniki avadanlıqlarla təchiz edilmişdir. 12 məktəbəqədər müəssisədə 512 uşaq tərbiyə olunur. Culfa rayonunda kompüter təlim-tədris və internet mərkəzi, 30 kitabxana, 36 klub və mədəniyyət evi, 1 muzey, 2 musiqi məktəbi, Gülüstan tarix və mədəniyyət qoruğu, 205 çarpayılıq, o cümlədən 120 çarpayılıq mərkəzi rayon xəstəxanası, 35 çarpayılıq 1 kənd sahə xəstəxanası, 25 çarpayılıq 2 kənd sahə xəstəxanası, 11 həkim ambulatoriyası, 10 feldşer-mama məntəqəsi, 1 təcili tibbi yardım şöbəsi fəaliyyət göstərir.







**Tağıyeva Mənzər Məhbub qızı** - 1947-ci il. Camaldın kəndi.
"Toxumağı anam Tağıyeva Sənəm Cəbrayıl qızından (1905-1988) öyrənmişəm. O, gözəl kilim, palaz, cecim, məfrəş, xurcun, at beli üçün örkən toxuyardı. Bibim Novruzova Xədicə Hacı Nəcəf qızı da (1895-1988) gözəl sənətkar idi. Çoxlu qoyun quzumuz olardı. Onların yununu qırxar, yuyub-qurudar, sonra yun darağında darayar, cəhrədə əyirərdik. İrəvandan gələn alverçilərdən aldığımız boyaqlarla mis qazanlarda bu ipləri boyayardım. Toxuduğum kilimlərdən övladlarıma da hədiyyə etmişəm".



**Süleymanova Fatma Mirzə qızı** - 1935-ci il. Ərəfsə kəndi.
"Toxumağı anam Zeynalova Gülşən Şirəli qızından öyrənmişəm. O da bu işi anası Nənəşdən öyrənibmiş. Mən həm fermada sağıcı işləyir, həm də evdə lampa işığında cəhrədə yun əyirib gəbə, kilim toxuyurdum. Toxumağı qızlarım Rübabəyə, Gülnarəyə də öyrətmişəm. Yun darağımı, cəhrəmi indiyədək saxlayıram".



**Cəfərova Həbibə Qulu qızı** - 1950-ci ildə Babək rayonunun Nehrəm kəndində dünyaya göz açmış, 1965-ci ildə Culfanın Camaldın kəndinə gəlin köçmüşdür. "Toxumağı bacım Bağırova Mələknisədən öyrənmişəm. Bacım da qoca nənəmdən öyrənmişdi. Qızlarım Nərgiz, Mehri, Sevinc də mənimlə bərabər xeyli xalça, kilim toxuyublar. Bizdə qoyunçuluq inkişaf etdiyindən, ipi özümüz hazırlayır, özümüz də boyayırdıq".



**İsgəndərova Hədiqə Əmralı qızı** - 1918-ci il. Camaldın kəndi.
"Toxumağı həmkəndlilərim Ziləccədən, Səltənətdən öyrənmişəm. Sürü ilə qoyun-quzu saxlayırdıq. Onların yununu qırxar, yuyar, daraqda darayar, cəhrədə əyirərdik. Düzəltdiyimiz kələfləri İrəvandan aldığımız rənglərlə mis qazanlarda boyayardıq".





**Həsənova Şəfiqə Mirzalı qızı** - 1935-ci il. Camaldın kəndi.
"İp daramağı, cəhrə əyirməyi, toxumağı həmkəndlilərim məşhur toxuculardan-Suradan, İmugülsümdən öyrənmişəm. Uzunluğu 6, eni 2 metr olan palazlar toxumuşam".



**Cəfərova Xanım İsrafil qızı** - 1939-cu ildə Ərəzin kəndində anadan olub, 1955-ci ildə Camaldın kəndinə gəlin köçüb.
"Toxumağı anam Məmmədova Xədicədən öyrənmişəm; o da qoca nənəm Tağıyeva Xanımqızdan öyrənmişdi. Anam danışırdı ki, qoca nənəm uzunluğu 4, eni isə 2 metr olan kilimlər, 6 metr uzunluğunda palazlar, göllü gəbələr, cecimlər toxuyurmuş. Nənəm toxuduğu məhsulların ipini, əsasən, baramadan alarmış. Mən də bütün ipləri özüm hazırlayar, sonra Naxçıvanda məşhur boyaqçı Əhməddən aldığım boyaqlarla boyayardım. Cəhrəm indi də durur. Toxuduğum gəbələrdən övladlarıma da hədiyyə etmişəm".



**Həsənova Güllü Şirəli qızı** - 1931-ci ildə Ərəfsə kəndində anadan olub, 1947-ci ildə Bənənyar kəndinə gəlin gəlib.
"Toxumağı qoca nənəm Püstə Abbas qızından öyrənmişəm. O vaxtlar kolxozda yaxşı işləyənlərə xalça hədiyyə verərdilər. Bu xalçaları kolxoz nənəmə toxutdurardı. Ancaq özümüz üçün də çoxlu gəbələr, kilimlər toxumuşuq. İndi də övladlarımın evində onlardan bəzi nümunələr var".



**Əliyeva Teliş Misirxan qızı** - 1941-ci il. Əbrəqunus kəndi.
"Toxumağı qayınanam Ruqiyyədən öyrənmişəm. Qayınanam məşhur toxuculardan olub. Onların çoxlu qoyun-quzuları olduğundan, yunları da bol idi. Qayınanam ipləri mis qazanda boyayardı. Sonra hana qurub xalça toxuyardıq. Toxuduğum xalçalardan qızlarıma cehiz vermişəm; evimdə qalanı da var".



**Allahverdiyeva Gülüstan Kazım qızı** - 1924-cü ildə Ortakənd kəndində anadan olub, 1946-cı ildə Bənənyar kəndinə gəlin köçüb.
"Mən gəlin gələnə qədər artıq anam Qumru Bayraməli qızından xalça toxumağın sirlərini öyrənmişdim. Gəncliyim müharibə dövrünə düşdü. Aclıq illəri idi. Bu sənət bizim xilasımız oldu. Gəbə, kilim, palaz toxuyub satardıq".



**Ələkbərova Güldanə Ələkbər qızı** - 1945-ci il. Xoşkeşin kəndi.
"Xalçaçılığı anam Xanım Şahhüseyn qızından öyrənmişəm. Anam da xalça toxumağı qoca nənəsi Xurşuddan öyrənib. Anam danışırdı ki, nənəm yer hanası düzəldib cecim, məfrəş, xurcun toxuyarmış. Sonradan mən də anamla yun darayır, cəhrədə əyirir, ip düzəldib gəbə, kilim toxuyurdum. Gündüz kolxoza işə gedərdik, gecə də hananın qarşısında oturardıq. Caynaq göllü, qızılgüllü gəbələr toxumuşuq. İndi qızım Şükufə mənim davamçımdır".



**Yaqubova Xədicə Murtuz qızı** - 1946-cı il. Xoşkeşin kəndi.
"Toxumağı dayımın həyat yoldaşı Bəyəm Rzaqulu qızından öyrənmişəm. Əl işlərimdən – gəbələrdən, palazlardan indi də övladlarımın evində var".



**Mahmudova Gülgəz Ərrəhman qızı** - 1947-ci il. Xoşkeşin kəndi.
"Ustadım anam İmanova Şamama İman qızı olub. Bacım Rübabə də anamın davamçısıdır. Anam özü isə nənəm Fatmanın davamçısı idi. Sürü ilə qoyun-quzu saxlayardıq. Yunları Naxçıvandan aldığımız boyaq ilə boyayar, qırçınlı, qarmaqlı gəbə toxuyardım".





**İsmayılova Fatma İbiş qızı** - 1948-ci il. Əlincə kəndi.
"Toxumağı həmkəndlim Xanım nənədən öyrənmişəm. 12 yaşımdan caynaqlı, gül gəbə, kilim toxumuşam. Bir ay ərzində 15 kiloqram ipdən bir gəbə toxuyardım".



**Məmmədova Anaxanım Hüseyn qızı** - 1924-cü il. Başkənd kəndi.
"Toxumağı nənəm Tükəzbandan, anam Bacıxanımdan öyrənmişəm. Cavanlığımda, əsasən, palaz toxumuşam. Sovet vaxtında kolxozda işləyirdim, boş vaxtlarımda qonşuların yununu yuyar, qurudar, cəhrədə əyirib ip hazırlayardım. Bu işlərin əvəzində onlar da mənə yun verərdilər. Mən də həmin yunlardan ip hazırlayıb özüm üçün palazlar toxuyardım".



**İmanova Gülpəri Mirzəmməd qızı** - 1938-ci il. Əlincə kəndi.
"Xalça toxumağı qayınanam Xədicədən öyrənmişəm. Qayınanam məşhur xalçaçılardan idi. O, tük kimi incə iplər əyirərdi. Mən toxuduğum gəbələrdən övladlarıma hədiyyə də vermişəm".



**İmanova Mədinə Şirin qızı** - 1936-cı il. Teyvaz kəndi.
"Xalçaçılığı anam Səmənnaz Seyid Həsən qızından öyrənmişəm. Gəbə toxumaq nağıl dinləmək kimidir. Çünki ilmə vura-vura sehrli bir aləmə düşürsən. Bu vaxta qədər çoxlu gəbə, palaz toxumuşam. Onlardan bəzilərini övladlarıma hədiyyə vermişəm".



**Ramazanova Ruqiyyə Əsəd qızı** - 1925-ci il. Xanəgah kəndi.
"Bu sənəti qonşularım Müşəfərimdən, Ceyrandan öyrənmişəm. Qoyunları iki dəfə – bir payızda, bir də yazda qırxardıq. Yazda qırxılan yundan keçə, ikinci qırxım yundan isə xalça toxuyardıq. Toxuduğum palazların iplərini bitkilərdən, əsasən də qoz qabıqlarından aldığım təbii boyalarla boyayardım. Qayınanam Ceyran xanım kilim, cecim, palaz, xurcun, xalça, hətta keçi tükündən palazlar da toxuyardı. İndiki kimi yadımdadır, qayınanam naxışları göstərib "bunlar təkcə naxış deyil, həm də qədim əlifbamızdır" deyərdi".



**Haqverdiyeva Gülşən Xudat qızı** - 1938-ci il. Qazançı kəndi.
"Toxumağı qayınanam Hüseynova Gülsənəm Dadaş qızından (1889-1970) öyrənmişəm. Sürü ilə qoyun-quzu saxlayardıq. Onların yununu daraqda darayıb, cəhrədə əyirərdik. Sonra kələf düzəldib Naxçıvandan aldığımız boyaq ilə boyayardıq. Əsasən qaynaqlı, güllü, zəncir yelənli gəbələr toxumuşam".



**Hacıyeva Səkinə Ağakişi qızı** - 1961-ci il. Teyvaz kəndi.
"Bu sənəti 1936-cı ildə anam - Ordubad rayonunun Üstüpü kəndində anadan olmuş Qurbanova Pəri Yusif qızından öyrənmişəm. O da nənəm Məsmədən öyrənib. Babamgil çoxlu qoyun-quzu saxlayardılar. Onların yununu qırxar, yuyar, didər, yun darağında darayar, cəhrədə əyirər, kələf edər, kələfi boyadıqdan sonra hanada gəbə, kilim, palaz toxuyardıq. Mən, əsasən, qurd ayağı və qarmaqlı gölləri olan gəbələr toxumuşam".



**Əliyeva Tamaşa Kərim qızı** - 1949-cu il. Qazançı kəndi.
"Xalça toxumağı anam Səyyadova Süsənbərdən öyrənmişəm. Kəndimizin camaatı həmişə cecim, kilim, palaz, xalça toxuyan olub. Qonşumuz Gülşən xalanın vurduğu naxışlara baxıb mən də evdə xalça toxumağa başlamışam. Toxuduğumuz ipləri qoz qabığından, itburnudan, boyaqotundan aldığımız boyaqlarla boyayardıq".





**Əsgərova Zəri Qulam qızı** - 1928-ci il. Qazançı kəndi.
"Xalça toxumağı həmkəndlim, məşhur toxucu Əfruz nənədən öyrənmişəm. Yun darağımı, cəhrəmi indiyədək saxlamışam. İnanın ki, gözlərim görsə, indinin özündə də bir aya bir gəbə toxuyaram. Övladlarıma hədiyyə verdiyim gəbələr, palazlar var".



**Allahverdiyeva Fatma Məhərrəm qızı** - 1933-cü il. Milax kəndi.
"Palaz toxumağı qayınanam Münəvvərdən öyrənmişəm. İpi özümüz hazırlayar və boyayardıq. Qayınanam toxuyan palazları, xalçaları hananın başına atar, onların naxışlarına baxıb toxuyardım. Doqquz qızımın doqquzu da mənim toxuduğum çeşniləri toxuyurlar".



**Səyyadova Şamama Kərim qızı** - 1941-ci il. Qazançı kəndi.
"Xalça toxumağı anam Səyyadova Süsənbər Hüseynalı qızından (1913-1991) və qayınanam Quliyeva Münəvvər Məhəmməd qızından öyrənmişəm. Anam və qayınanam da toxumağı kəndimizin məşhur toxucusu Əfruz nənədən öyrənmişdilər. Mən də bu işi qızlarıma öyrətmişəm. Toxuduğum gəbələrdən övladlarıma da hədiyyə eləmişəm".



**Quliyeva Gövhər Şıxəli qızı** - 1928-ci il. Milax kəndi.
"Toxumağı anam Şərəf xanımdan öyrənmişəm. Toxumaq mənə hava, su qədər lazım olub. Xalça toxumaq o qədər canıma işləyib ki, hana olsa, bu yaşımda istədiyim gəbəni toxuyaram. Azacıq onunla təsəlli tapıram ki, toxumağın sirlərini qızlarım Zeynəbə, Sadəyə də öyrətmişəm".



**Hacıyeva Şamama Xudakərim qızı** - 1910-cu il. Milax kəndi.
"Anam Şövkətin davamçısıyam. O da nənəm Sənəmin davamçısı olub. Muharibə illərində gündüzlər kolxozda işləyər, axşamlar da gəlib hana arxasında otu-rar, lampa işığında palaz, gəbə toxuyardım. Bu gün toxuduqlarım qızlarımın, nəvələrimin evində saxlanılır".



**Həsənova Tovuz Vəli qızı** - 1930-cu ildə Teyvaz kəndində anadan olub, 1953-cü ildə Milax kəndinə gəlin köçüb.
"Yun daramağı, cəhrədə əyirməyi, kələf düzəltməyi, xalça toxumağı qonşu-muz, məşhur toxucu Simuzər xanımdan öyrənmişəm. Qonşularım Tellibəyimlə, Gülsümlə, Cahanla birlikdə həm kolxozda işləyər, həm də gəbə toxuyardıq".



**Quliyeva Bağdagül Əli qızı** - 1939-cu il. Milax kəndi.
"Kolxozda işləmişəm. Qabaqcıl tütünçülərdən olmuşam. Toxumağı anam Durna-dan öyrənmişəm. Axşamlar hana qarşısında gəbə, palaz toxuyardım. Toxuduq-larımdan bu gün övladlarımın hamısının evində var".



**Hacıyeva Zeynəb Ağamirzə qızı** - 1928-ci il. Milax kəndi.
"Toxumağı anam Gülsənəmdən öyrənmişəm. Anam da bu sənəti öz anası Gülsündən öyrənib. Kolxozda qabaqcıl emalçılardan olmuşam. Üstəlik, xalça da toxumuşam. İpi özüm hazırlayardım, anam isə aparıb boyadardı. Əsasən, göllü gəbə, naxışlı palaz, cecim toxumuşam".





**Hüseynova Gülzar Hüseynqulu qızı** - 1950-ci il. Ərəfsə kəndi.
"Toxumağı anam Səlimova Səlbidən öyrənmişəm. Anamın anası Pəri də yaxşı toxuculardan olub. Anam gecə lampa işığında kilim, palaz, məfrəş, bəzəkli at çulu, xurcun toxuduqlarını xatırlayardı. O vaxtlar babamın böyük qoyun sürüsü olduğundan, ipi özləri hazırlayar, özləri də boyayarmışlar. İndi toxumasam da, evimdə cəhrəm, yun darağım durur. Lakin vaxtilə yaxşı gəbə, cecim, palaz to-xumuşam. Hamı bilir ki, keçi qəzilindən toxumaq qoyun yunu ilə toxumaqdan daha çətindir. Ancaq mən hətta keçi qəzilindən də palazlar toxumuşam".



**Həsənova Narqələm İsa qızı** - 1936-cı il. Əbrəqunus kəndi.
"Xalça toxumağı anam Əliyeva Nigar Həsənqulu qızından (1910-2010) öyrənmişəm. Onun nənəsi Cahan da yaxşı toxucu olub. Sürü ilə qoyun-quzu saxlayardıq. Onların yunundan ip düzəldər, boyaqçıda boyadar, hanadan asıb gəbə, kilim toxuyardım. Göl gəbə, zəncirli gəbə, rəngbərəng kilimlər toxumu-şam".



**Əliyeva Sura Süleyman qızı** (1938-2006) Qa-zançı kəndi.
Həyat yoldaşı Əliyev Yamən Şahhüseyin oğlu-nun (1937) dediklərindən: "Sura xanım yaxşı gəbələr toxuyardı. Toxuduğu gəbələrdən qız-larına, oğlanlarına da hədiyyə verib. Anam Əliyeva Mənzər İsmayıl qızının (1903-1977) toxuduğu gəbələrdən, kilimlərdən bizim evdə indi də istifadə olunur".



**Məmmədova Qiymət Kərəm qızı** - 1936-cı il. Ərəfsə kəndi.
"Mən palaz toxumağı qayınanam Zeynəbdən öyrənmişəm. Ancaq sonralar keçinin qəzilindən də palaz toxumağa başladım".



**İbrahimova Məsimə Əli qızı** - (1927-2011). Camal-dın kəndi.
Oğlu Vəlinin dediklərindən: "Xalça toxumağı uşaq-lıqdan anasından öyrənən Məsimə nənə ipi özü ha-zırlayar, bitkilərdən aldığı təbii boyaqlarla boyayar-dı. O, qızları ilə bir yerdə onlarla cecim, kilim, xalça, heybə toxuyub. Anamın əl işlərini xeyir-şər evlərinə də vurardılar".



**Hüseynova Gülsənəm Dadaş qızı** (1889-1970) Qazançı kəndinin sakini olub. Gəlininin dediklərindən: "Gülsənəm nənə toxumağı anası Qönçədən öyrənib. O, gözəl cecimlər, şalvarlar, kürəkliklər, xurcunlar, gəbələr toxuyardı. Gülsənəm nənə dağda qoyun-quzu saxlayar, fermada maldarlıqla məşğul olar, gecə də lampa işığında gəlinlərini başına yığıb toxuculuqla məşğul olardı".



**Mirzəliyeva Ruqiyyə Balakişi qızı** - 1905-ci il. Əbrəqunus kəndi.
"Toxumağı anam Əcəbdən öyrənmişəm. İki sürü xırdabuynuzlu heyvan saxlayardıq. Qoyunların yunundan, keçilərin qəzilindən istifadə edərdik. Qayınanam Fatmanisə yaxşı keçə hazırlayardı. Bu, çox çətin bir iş idi. Əvvəlcə yunu palazın üstünə döşəyərdi, 3-4 kişi də bu yunu tapdalayardı. Sonra tapdalanmış yunun üstünə rəngli iplər qoyardıq ki, naxışlar düşsün. Mən özüm isə kilim, cecim, əsasən sazlı göl, güllü, ceyranlı gəbə toxumuşam".



**Əhmədova Töhfə Abbas qızı** - (1930-2009). Camaldın kəndi.
Oğlunun dediklərindən: "Anam toxumağı bibisi Məmmədova Mədinə Nurməmməd qızından öyrənmişdi. O, ipləri özü hazırlayar, özü də boyayardı. Əsasən gəbə, kilim, cecim toxuyardı. İndi də evimizdə anamın əl işlərindən bəzilərini qoruyuruq".



**Məmmədova Qaragilə Həmdullah qızı** - 1948-ci il. Ərəfsə kəndi.
"Cavan idik, yığılıb Gülpəridən, Narzadan, Xəccədən xalça toxumağın sirlərini öyrənirdik. Əsasən kilim, çul, yer hanasında barama ipləri ilə cecim toxuyardıq. Mən isə sonradan həm gəbə, həm də müxtəlif palazlar toxumağa başladım".



# Culfa toxucularının əl işləri



**Xalça.** Toxucu: Əliyeva Sura Süleyman qızı. Qazançı kəndi.



**Xalça.** Toxucu: Hacıyeva Şamama Xudakərim qızı. Milax kəndi.



**Xalça.** Toxucu: Quliyeva Gövhər Şıxəli qızı. Milax kəndi.



**Xalça.** Toxucu: Səyyadova Şamama Kərim qızı. Qazançı kəndi.

**Kilim.** Toxucu: Allahverdiyeva Fatma Məhərrəm qızı. Milax kəndi.



**Kilim.** Toxucu: Həsənova Güllü Şirəli qızı. Bənənyar kəndi.



**Xalça.** Toxucu: Hüseynova Gülsənəm Dadaş qızı. Qazançı kəndi.



**Kilim.** Toxucu: Hüseynova Gülsənəm Dadaş qızı. Qazançı kəndi.



# KƏNGƏRLİ RAYONU

2004-cü il martın 19-da Naxçıvan Muxtar Respublikasının Babək və Şərur rayonlarının inzibati-ərazi bölgüsündə qismən dəyişikliklər edilərək Kəngərli rayonu yaradılmışdır. Ərazisi şimal-şərqdə Ermənistanla, cənub və cənub-qərbdə İranla həmsərhəddir. Sahəsi 704,9 kv. km, əhalisi 29,2 min nəfərdir. Rayonda 1 qəsəbə, 10 kənd vardır. Mərkəzi Qıvraq qəsəbəsidir.

Rayon şimaldan və şimal-şərqdən Dərələyəz silsiləsinin qolları ilə əhatələnərək cənubdan Araz çayına doğru istiqamətlənir. Keçəltəpə (2744 m), Qaraquş (2600 m), Anabadgədik (2081 m) dağları rayonun ən yüksək zirvələridir.

Kəngərlidə qədim insanların həyat tərzini əks etdirən maddi mədəniyyət qalıqları ilə zəngin xeyli arxeoloji abidələr – qədim yaşayış yerləri, qalalar, qəbiristanlıqlar, kurqanlar vardır. Son Tunc və ilk Dəmir dövrlərinə aid Qalacıq yaşayış yeri, I Qarabağlar qəbiristanı, Qarabağlar Govurqalası, Çalxanqalada Tunc dövrünə aid şəhər yeri və b. bu ərazinin ən qədim yaşayış yerləri olduğunu sübut edir.

Orta əsrlərə aid Qarabağlar memarlıq kompleksi 2004-cü ildə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin tövsiyəsi ilə ümumdünya bankının ayırdığı vəsait hesabına bərpa edilmişdir.

Kəngərli rayonu kənd təsərrüfatı üzrə ixtisaslaşmışdır. Əhali heyvandarlıq, taxılçılıq, tərəvəzçilik, meyvəçilik və b. sahələrlə məşğuldur.

Kəngərli rayonunda son illər mədəni quruculuq və səhiyyə sahəsində xeyli işlər görülmüşdür. Çalxanqala və Xincab kəndlərində qaçqın və məcburi köçkünlər üçün 25 fərdi yaşayış evi, Şahtaxtı nasos stansiyası, Elektrik Şəbəkəsi üçün inzibati bina, rayon mərkəzi, yeni məktəblər, Şahtaxtinskilərin ev muzeyi və b. tikilmişdir. Rayonun 6 məktəbəqədər müəssisəsində 220 uşaq tərbiyə olunur, 13 orta məktəbdə 5013 şagird oxuyur. Rayonda 12 kitabxana, 13 klub və mədəniyyət evi, 2 musiqi məktəbi fəaliyyət göstərir. 100 çarpayılıq, o cümlədən 40 çarpayılıq rayon mərkəzi xəstəxanasında, 3 həkim ambulatoriyasında, 5 feldşer-mama məntəqəsində 10 həkim, 34 orta tibb işçisi çalışır.

Rayonun iri yaşayış məntəqələri Qıvraq qəsəbəsi, Qarabağlar, Xok və Şahtaxtı kəndləridir. Qıvraq qəsəbəsi rayonun mərkəzi kimi yenidən qurulur, inzibati və sosial obyektlər tikilib istifadəyə verilir.





**Şahbazova Çiçəbəyim İsmayıl qızı** - 1934-cü il. Xincab kəndi.
"Xalça toxumağı anam Səidəbəyimdən öyrənmişəm. Qoca nənəm Fatma da məşhur toxuculardan idi. Anam danışardı ki, o zamanlar daha çox xurcun, məfrəş, kilim və cecim lazım olurdu. Ona görə də biz, daha çox, bu məhsullardan toxuyardıq".



**Əliyeva Xanım Məmmədseyid qızı** - 1934-cü il. Xok kəndi.
"Toxuculuğu anam Şəhrəbanu Kərbəlayı İbrahim qızından öyrənmişəm. Anamın anası Dostu da məşhur toxuculardan olub. Anamın dediyinə görə, nənəm məfrəş, xurcun, taxıl yığmaq üçün çuvallar toxuyarmış. Mən özüm də gəbə, kilim, cecim toxumuşam. Bu işlərdə hətta oğlum Məmməd də mənə kömək edərdi. Qızlarım Kimya, Xeyransa mənim davamçılarımdır".



**Məmmədova Kimya Ağam qızı** - 1954-cü il. Xok kəndi.
"Toxumaq ulu nənələrimizdən bizə yadigar qalıb. Anam, nənəm, hətta nə qədər qəribə səslənsə də, qardaşım Məmməd də xalça toxuyardı. Belə ki, anam toxumağı bizə həyatın mühüm şərtlərindən biri kimi öyrədərdi. Biz bu sənətlə ailəliklə məşğul olmuşuq. Köməkli yunu darayar, cəhrədə əyirər, kələf edib Naxçıvandan aldığımız boyaqla boyayardıq. Mən özüm onlarla gəbə, kilim, cecim toxumuşam".



**Musayeva Xatın Məmməd qızı** - 1923-cü il. Xok kəndi.
"Bu sənəti anam Abbasova Sara Həsən qızından öyrənmişəm. Anama da xalça toxumağı qoca nənəm Xədicə öyrədib. Sürü ilə qoyun-quzu saxladığımızdan həmişə yunumuz bol olardı. İpləri Şahtaxtıda yaşayan boyaqçı Hüseynova Simuzər Həsən qızına boyadardıq. Xeyli gəbə, kilim, cecim toxumuşam. Xalça toxumağı qızlarım Qızıllıya, Zeynəbə də öyrətmişəm. Uzunluğu 5, eni 2 metr olan palazı oğlum Əbdülə hədiyyə eləmişəm. Toxuduğum cecimlərdən evdə indi istifadə edirik. Onu da deyim ki, qayınanam Musayeva Tərlan Ələkbər qızından çox naxışlar öyrənmişəm".





**Abbasova Nənoş Əli qızı** - 1930-cu il. Yurdçu kəndi.
"Toxumağı anam Ceyrandan öyrənmişəm. O yaxşı cecim, kilim, gəbə toxuyan idi. Müharibə illərində bu sənət bizim dadımıza çatıb. Anam çətin vaxtlarda toxuduğu gəbələri satar, dolanışığımızı təmin edərdi. Mən də cecim, kilim, gəbə toxumuşam. Toxuduğum gəbələrdən övladlarıma hədiyyə eləmişəm. Bizim tərəflərdə keçə də döyürdülər".



**Məmmədova Qumru Rəsul qızı** - 1929-cu il. Çalxanqala kəndi.
"Xalça toxumağı qayınanam Nabatdan öyrənmişəm. Rəhmətlik əsasən kilim, gəbə toxuyardı, ancaq yaxşı xurcunları, məfrəşləri də olardı. Mən də onun davamçısıyam".



**Məmmədova Mehri Zeynalabdin qızı** - 1941-ci il. Qarabağlar kəndi.
"Biz ailəlikcə xalçaçı olmuşuq. Anam, xalam, bacım toxucu olublar. Xalçanın bütün ləvazimatlarını özümüz hazırlayardıq. Boyağı isə dağlardan topladığımız çiçəklərdən, ağac yarpaqlarından, müxtəlif meyvələrin qabıqlarından alardıq. Toxuduğumuz gəbələrin, kilimlərin çoxunu agır vaxtlarda ehtiyac ucbatından satıb çörəkpulu etmişik".



**İsmayılova Mənsumə Nağı qızı** - 1930-cu il. Xok kəndi.
"Mən toxumağı anam Leyli Əli qızından öyrənmişəm; o da bu sənəti öz anası Kərbəlayı Xatından mənimsəyib. Anam danışardı ki, o dövrdə qoca nənəm dəvənin belinə salmaq üçün naxışlı çul, dəvəli məfrəş, xurcun, buğda, arpa yığmaq üçün çuval toxuyarmış. Yadıma gəlir ki, keçə düzəltmək üçün yunu yerə döşəyər, tapdalayardılar; sonra bükər və arasına rəngli iplər qoyub küpə salardılar. Ümumiyyətlə, keçə çox isti və dözümlü olur. Mən özüm də, yunu cəhrədə əyirmişəm, ip boyamışam, gəbələr, palazlar, cecimlər toxumuşam".



**Məmmədova Qızıllı Məhərrəm qızı** - 1935-ci il. Yurdçu kəndi.
"Toxumağı anam Məmmədova Tərlan Hüseyn qızından öyrənmişəm. O da bu sənətin sirlərini öz anası Zeynəbdən mənimsəyib. Atam həmişə qoyun-quzu sürüsü saxlayardı. Yunu daraqda darayar, cəhrədə əyirər, Naxçıvandan alınan boyaqlarla boyayardıq. O iplərdən gəbə, kilim, cecim toxumuşam. Övladlarımın evində toxuduqlarımdan hələ də istifadə olunur".



**Məmmədova Mələk İmamalı qızı** - 1941-ci il. Yurdçu kəndi.
"Kilim, palaz, cecim toxumağı qayınanam İzzətdən öyrənmişəm. İpləri özümüz hazırlayır, özümüz boyayırdıq. Toxumağı övladlarıma da öyrətmişəm".



**Heydərova Səadət Əli qızı** - 1941-ci il. Yurdçu kəndi.
"Xalçaçılığı anam Ceyran Şamil qızından öyrənmişəm. Bizim kəndimizdə gəbə toxumağa böyük həvəs var idi. Gəbəni toxumaq üçün ipləri özümüz hazırlayardıq. Yunu daraqda darayır, cəhrədə əyirir, kələf edir, sonra da küplərdə boyayıb gəbə, kilim, cecim toxuyardıq".



**Hüseynəliyeva Şərəf Muxtar qızı** - 1920-ci il. Qıvraq kəndi.
"Cavanlığımda kolxozda kotan sürüb, tütün yığardım. Boş vaxtlarımda isə palaz, cecim toxuyurdum. Müharibə vaxtı əlcək, corab toxuyub əsgərlərə göndərərdim. Anam Mədinə də cecim, palaz toxuyardı. Qayınanam Xatun da yun darayar, cəhrə əyirər, ip boyayar, cecimlər, palazlar, corablar toxuyardı. Anamdan çox çeşnilər öyrənmişəm".





**Tarverdiyeva Əsmər Zeynalabdin qızı** - 1938-ci il. Qarabağlar kəndi.
"Toxumağı anam Xanım Məhərrəm qızından və xalam Səkinədən öyrənmişəm. Saxladığımız qoyunların yunundan ip əyirir, kələf edir, hazır kələfləri dağlardan yığdığımız boyaqotundan, qurdqulağından, qoz qabığından, heyva və qantəpər yarpağından aldığımız rənglərlə mis qazanlarda boyayardıq. Neçə-neçə gəbə, kilim, xurcun, cecim toxumuşam. Əsasən quş, maral, göl şəkli toxuyardım".



**Hüseynquliyeva Xədicə Əlosi qızı** - 1946-cı il. Xok kəndi. 1966-cı ildə Qarabağlar kəndinə gəlin gəlib.
"İctimai işlərdə fəallıq göstərmişəm. Azərbaycan Ali Sovetinin deputatı da seçilmişəm. Bütün bunlarla yanaşı, toxuculuq işinə də yaxşı bələdəm. Toxumağı anam Saradan öyrənmişəm. Qoca nənəm Xatun da məfrəş, xurcun, çuval, cecim toxuyan olub. Mən də gəbə, kilim, cecim toxumuşam. Toxuduğum gəbələri ehtiyac ucbatından satdığım vaxtlar da olub; ancaq cecimimi saxlayıram".



**Quliyeva Xanımzər Şükür qızı** - 1940-cı il. Şahtaxtı kəndi.
"Toxumağı anam Şəhrəbanu Kərbəlayı Həşim qızından öyrənmişəm. Anam danışardı ki, qoca nənəm də xurcun, məfrəş toxuyarmış. Mən özüm də ip əyirər, kələf düzəldər, onları mis qazanlarda boyayardım. Boyanmış iplərdən kilim, cecim toxumuşam. Cəhrəm indi də durur".



**Vəliyeva Xatın İmran qızı** - 1936-cı il. Qıvraq kəndi.
"Toxuculuğun sirlərini anam Səmənnazdan öyrənmişəm. Özümüzün qoyunlarımız var idi. Onların yunundan ip hazırlayır, təbii boyalarla boyayır, hazır iplərdən palaz, cecim toxuyurdum. Toxuduğum palazlardan övladlarıma da hədiyyə etmişəm".



**Cəfərova Züleyxa Nəcəf qızı** - 1931-ci il. Qabıllı kəndi.
"Toxumağı Tərgül nənəmdəm öyrənmişəm. Anam mən uşaq olarkən dünyasını dəyişib. Müharibə vaxtı idi, nənəm kolxozda işləyirdi. Bununla belə, gecələr lampa işığında bir neçə qadınla yığışıb kilim, məfrəş, xurcun, yer hanasında cecim toxuyardılar".



**Cəfərova Telli Hüseyn qızı** - 1933-cü il. Qabıllı kəndi.
"Toxumağı qonşum Məsmə nənədən öyrənmişəm. Kəndimizdə cavan gəlinlər Məsmə nənənin başına yığışıb, ondan gəbə toxumağın sirlərini öyrənərdilər. Yun darağım, cəhrəm, iplərim hələ də durur. İpləri Naxçıvanda boyadardıq. 8 gəbə, 10-dan artıq kilim, cecim toxumuşam".



**Həsənova Fatma Seyid Süleyman qızı** - 1940-cı il. Qabıllı kəndi.
"Anam Xanım palaz, cecim toxuyurdu. Mən də anam toxuyanda yanında oturur əlinə baxıb öyrənirdim. Anamla yun didir, daraqla darayır, cəhrədə əyirirdim. İpləri özümüz boyayar, əsasən, cecim, palaz, kilim toxuyardıq".



**Seyidova Şahpəri Mirməhəmməd qızı** - 1920-ci il. Qabıllı kəndi.
"Toxuculuğun sirlərini anamdan öyrənmişəm. O da nənəsi Məsmə Hüseynqulu qızından öyrəndiyini deyərdi. Anam təbii boyalarla boyanmış iplərdən xurcun, məfrəş, böyük ölçülü kilimlər toxuyardı. Müharibə vaxtı toxuduğu corabları, əlcəkləri əsgərlərə göndərərdi. Mən də yunları özüm darayır, cəhrədə əyirir, ipləri kələf edir, boyayıb qonşum Rəfiqə ilə birlikdə kilim, cecim toxuyardım".





**Quliyeva Tamam İsmayıl qızı** - 1931-ci il. Qarabağlar kəndi.
"Toxuculuğu hələ uşaqlıqdan sevirdim. Toxumağı qardaşım arvadı Quliyeva Şəkərdən öyrənmişəm. Gündüzlər kolxozda işləyir, axşam lampa işığında yunu cəhrədə əyirir, kələf edib gəbə, palaz, cecim toxumuşuq".



**Vəliyeva Məruzə Məclum qızı** - 1938-ci il. Qarabağlar kəndi.
"Gəbə toxumağı qonşumuz Gülgəz nənədən öyrənmişəm. Sovet dövründə qızıl medal almışam. Gündüzlər kolxozda işləyir, gecələr lampa işığında toxuculuqla məşğul olurdum. Yüz baş qoyunumuz vardı. Onların yunundan ip hazırlayır, təbii rənglərlə boyayıb, kilim, cecim, gəbə toxuyardıq. Bu sənətin sirlərini qızım Nardanəyə də öyrətmişəm".



**Məmmədova Firəngiz Əsgər qızı** - 1938-ci il. Təzəkənd kəndi.
"Kəndimizdəki ailələrin əksəriyyəti toxuculuqla məşğul olurdu. Toxumağı anam Qumru Əli qızından öyrənmişəm. Yunu daraqda darayır, cəhrədə əyirərdim. Əyirdiyim ipi şəhərdən aldığım boyaq ilə boyayıb gəbə, kilim, cecim toxumuşam. Kilimlərimdən övladlarıma da hədiyyə etmişəm. Cecimi isə bu günədək saxlayıram".



**Məmmədova Səməngül Feyzulla qızı** - 1943-cü il. Xincab kəndi.
"1962-ci ildə Təzəkənd kəndinə gəlin gəlmişəm. Toxumağı anam Məmmədova Xavər Məmməd qızından öyrənmişəm. Qayınanam Qumru Məmmədova da toxucu idi. O da məfrəş, xurcun, cecim toxuyan olub. Mən də onlarla bərabər daraqda yun darayır, cəhrədə yunu əyirir, kilim toxuyurdum".




**Quliyeva Nazlı Məcid qızı** - 1949-cu il. Təzəkənd kəndi.
"Toxumağı anam Mahıdan öyrənmişəm. O, gəbə, xurcun, məfrəş, cecim toxuyardı. 9 yaşımdan bu sənətlə məşğulam. Anamın yanında yun yuyar, daraqla darayar, o yunu cəhrədə əyirəndə mən ipləri kələf edərdim. Boyağı otlardan, qozdan, çiçəklərdən alardıq. Sonralar anamın toxuduğu çeşniləri toxuduğum gəbələrə salırdım".



**Sadıqova Şükufə Əbdülhüseyn qızı** - 1946-cı il. Xincab kəndi.
"Toxumağı anam Zərridən öyrənmişəm. O yunu yuyar, daraqda darayar, mən isə cəhrədə əyirərdim. İpləri kələf edib mis qazanlarda təbii boyaqlarla boyayardıq. Sonra hana qurub gəbə, kilim toxuyardıq".



**Məmmədova Xanım Cəlal qızı** - 1950-ci il. Xincab kəndi.
"Bu sənətin sirlərini anam Məmmədova Mirvari İbrahim qızından öyrənmişəm. Qoyun-quzu saxlayırdıq. Rəhmətlik anamla bərabər yunu yuyar, didər, yun darağında darayar, cəhrədə ip əyirər, kələf düzəldərdik. Sonra mis qazanlarda ipləri boyayıb, qurulmuş hanadan yumaq şəklində asar və kilim toxuyardıq. Kilimlərə göl naxış, yelənlərə xırda göl toxuyardıq".



**Mənsimova Mənsurə Mənsim qızı** - 1938-ci il. Xincab kəndi.
"Toxumağı anam Xanım Hüseyn qızından öyrənmişəm. Anam danışardı ki, qoca nənəm Gülgəz də məfrəş, xurcun, at çulu toxuyarmış. Sovet dövründə gündüzlər kolxozun işinə gedər, gecələr də yun darayıb, cəhrədə yun əyirib, ipləri boyayıb, gəbə, kilim toxuyardım. Nənələrimizin rəvayət etdikləri bəzi tarixi hadisələri işarələr şəklində toxuduğumuz gəbələrin, kilimlərin üzərlərində işləyərdik".





**Rüstəmova Fatma Hüseyn qızı** - 1934-cü il. Qıvraq kəndi.
"Toxumağı anam Nənəxanımdan öyrənmişəm. Gündüzlər kolxozda işləyir, mal-qaraya baxırdım. Qoyun-quzunun yununu qırxır, yuyur, didir, cəhrədə əyirir, kələf edirdim. Şəhərdən aldığımız boyaqlarla kələfləri boyayıb kilim, cecim toxumuşam".



**Seyidova Rəfiqə Muxtar qızı** - 1930-cu il. Qabıllı kəndi.
"Anam Zinyət yaxşı toxuculardan idi. İmmi nənəm müharibənin hər zülmünü görmüşdü. Onunla bərabər məfrəş, xurcun, dəvənin boynuna, atın üstünə salmaq üçün üzərində quş, dəvə şəkilləri olan kiçik xalçalar toxuyardıq. Mən də bütün çeşniləri, ilmələrin sirlərini anamdan öyrənmişəm; palazlar, cecimlər toxumuşam".



**Mirzəyeva Hədiqə Ələkbər qızı** - 1939-cu il. Şahtaxtı kəndi.
"Bu sənəti anam Səkinədən öyrənmişəm. Toxuculuq işini çox sevmişəm. Bu işə maraq məndə uşaq yaşlarımdan başlayıb. Bir gəbədə, yaxud da kilimdə tarixi hadisələri, gələcək nəsillərə ünvanlanan sözləri işarələr, fiqurlar vasitəsilə çatdırmaq mümkündür. Gündüzlər kolxozda işləsəm də, axşamlar yun darayır, cəhrədə əyirir, sonra da ipləri boyayıb kilim, cecim, gəbə toxumuşam. Əl işlərimdə nənələrimdən öyrəndiyim çeşniləri, işarələri, hətta dövrümüzə aid bəzi elementləri də işləmişəm".



**Məmmədova Əfruz Kərbəlayı Həbib qızı** - (1917-2000). Xincab kəndi.
Oğlu Rəşidin dediklərindən: "Anam gündüzlər fermada işləyər, gecələr isə gəbə, kilim, cecim toxuyardı. İpləri özü hazırlayar, özü də boyayardı. Toxuduqlarından övladlarına da hədiyyə eləyib".



**Tağıyeva Səkinə Əlirza qızı** - 1941-ci il. Xok kəndi.
"Xalça toxumağı anam Leylidən öyrənmişəm. O yaxşı kilim, gəbə, cecim, xurcun toxuyardı. Yunu özümüz tədarük edər, əyirdiyimiz ipləri təbii boyaqlarla boyayardıq. Anam toxuduqlarını muharibə vaxtı ehtiyac üzündən taxıla dəyişərdi. Mən də əl işlərimin bəzilərini satıb, bəzilərini isə övladlarıma hədiyyə etmişəm".



**Əkbərova Göyərçin Səfər qızı** - (1912-1999). Qarabağlar kəndi.
Bacısı qızı Suranın dediklərindən: "Göyərçin nənə yunu yuyub daraqda darayar, cəhrədə əyirər, kələf eləyib özü boyayardı. Məfrəş toxumağı çox sevərdi. Həmişə deyərdi ki, məfrəş toxumaq cecim toxumaqdan çətin olsa da, ürəyimcədir. Toxuduğu məfrəşlərdən, cecimlərdən qızlarına da hədiyyə edib".



**Əliyeva Zeynəb Cəmil qızı** - 1926-cı il. Dərələyəz mahalı. 1988-ci ildə öz yurd-yuvalarından didərgin düşəndən sonra Kəngərli rayonunun Çalxanqala kəndində məskunlaşıb.
"Dərələyəz mahalının məşhur toxucularından olmuşam. Anam Tutu Məmiş qızı da tanınmış xalçaçı idi. O məfrəş, xurcun, yer hanasında cecim toxuyardı. Toxuya-toxuya gözəl bayatılar deyərdi:

**Kəklik elə yoldadı,**
**Oxur, yenə yoldadı.**
**Xəyalım o xəyaldı,**
**Gözüm elə yoldadı.**

Kənddə hər evdə hana olardı. Yunu yun darağında darayar, cəhrədə əyirər, kələf edib mis qazanlarda boyayar, sonra isə kilim, gəbə, cecim toxuyardım".



# Kəngərli toxucularının əl işləri



**Xalça.** Toxucu: Quliyeva Nazlı Məcid qızı. Təzəkənd kəndi.



**Kilim.** Toxucu: Sadıqova Şükufə Əbdülhüseyn qızı. Xincab kəndi.



**Keçə.** Tağıyeva Səkinə Əlirza qızı. Xok kəndi.

**Kilim.** Toxucu: Əkbərova Göyərçin Səfər qızı. Qarabağlar kəndi.



**Xalça.** Toxucu: Rüstəmova Fatma Hüseyn qızı. Qıvraq kəndi.



**Xalça.** Toxucu: Məmmədova Əfruz Kərbəlayi Həbib qızı. Xincab kəndi.







**Kilim.** Toxucu: Abbasova Nənoş Əli qızı. Yurdçu kəndi.



**Kilim.** Toxucu: Mirzəyeva Hədiqə Ələkbər qızı. Şahtaxtı kəndi.



**Cecim.** Toxucu: Seyidova Rəfiqə Muxtar qızı. Qabıllı kəndi.

**Cecim.** Toxucu: Cəfərova Telli Hüseyn qızı. Qabıllı kəndi.



**Keçə.** Vəliyeva Məruzə Məclum qızı. Qarabağlar kəndi.



**Keçə.** Əliyeva Xanım Məmmədseyid qızı. Xok kəndi.



# SƏDƏRƏK RAYONU

Sədərək rayonu bölgənin sosial-iqtisadi inkişafını daha da sürətləndirmək və gücləndirmək məqsədilə 1990-cı il avqustun 28-də yaradılmışdır. Cənub-qərbdən Türkiyə ilə 11 km, şimal-qərbdən Ermənistanla 24 km məsafədə həmsərhəddir. Sahəsi 163,8 kv.km, əhalisi 14,6 min nəfərdir. Mərkəzi Heydərabad qəsəbəsidir. Rayonda 1 qəsəbə və 3 kənd vardır.

Rayonun ərazisi cənub-şərqdə Dəhnə və Vəlidağ yüksəklikləri vasitəsilə Şərur düzündən ayrılır. Ucubir, Əjdəkan, Tejkar, Vəlidağ və Saraclı dağları ilə əhatələnmişdir.

Sədərək rayonu ərazisində Eneolit, Tunc dövrlərinə, antik dövrə və orta əsrlərə aid yaşayış yerləri və qəbir abidələri aşkara çıxarılmışdır. Rayonun cənubunda e.ə. IV-III minilliklərə aid yaşayış yeri aşkar olunmuşdur. Ərazidə Əjdəkan, Cin təndiri, Cəhənnəmdərə, Şir arxı, Dəhnə, Qırmızılar, Fərhad arxı, Kültəpə, Ağoğlan, Karvansara, Ələddin, Qaraburun və s. tarixi yer adları mövcuddur.

Sədərəyin cənub-şərqində orta əsrlərə aid yaşayış yeri, Sədərək qalası tapılmışdır. Bölgədə e.ə. IV minillikdən başlayaraq fasiləsiz həyat davam etmişdir. Rayon ərazisində 31 tarix və mədəniyyət abidəsi aşkar edilmişdir ki, bunun da 3-ü dünya əhəmiyyətlidir.

Xalq etimologiyasına görə "Sədərək" – "sel gərək" mənasındadır. "Sədərək" sözünü səədli tayfasının adı ilə də əlaqələndirirlər. "Kitabi-Dədə Qorqud" dastanında adı çəkilən Səgrək adının toponimləşərək Sədərək oykoniminə çevrilməsində uyğunluq olduğu mülahizəsini irəli sürürlər.

Tədqiqatçılar Sədərək ərazisinin Van, Midiya, Assuriya padşahlıqları kimi iri dövlət birliklərinin tərkibinə daxil olduğunu təsdiqləyirlər. Ərazi erkən orta əsrlərdə Sasanilər, Bizans imperiyası, Ərəb xilafəti, sonralar isə Atabəylər, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin təsir dairəsinə daxil olmuşdur. Səfəvilər dövründə Sədərək də indiki Naxçıvan Muxtar Respublikasının ərazisi ilə birlikdə Çuxursəd bəylərbəyliyinin tərkibinə daxil idi.

Ticarət-karvan yollarının qovuşuğunda yerləşən Sədərək orta əsrlərdə şəhər səviyyəsinə yüksəlmiş, buraya saxsı borularla su çəkilmişdi. Övliya Çələbi "Səyahətnamə"sində Sədərək haqqında yazır: "Biz... Sədərək kəndinə çatdıq. Naxçıvan torpağında yerləşən... kənd gözəl və abaddır, 1000 gözəl evi, saysız-hesabsız bağ və üzümlükləri, xoş iqlimi var. Əhalisinin hamısı şiədir. Şəhərin arxasında, bağların yaxınlığındakı hündür təpənin ətəyində isti su çıxır".

Sədərək XVIII əsrin əvvəllərindən osmanlıların idarəsində olmuşdur. "İrəvan əyalətinin icmal dəftəri"ndə 24 kənddən ibarət Sədərək nahiyəsinin bu əyalətin tərkibində olduğu göstərilir. 1828-ci il Türkmənçay müqaviləsinə əsasən, Naxçıvan və İrəvan xanlıqları ilə birlikdə Sədərək də Rusiyanın tərkibinə qatıldı.

Erməni qəsbkarları Naxçıvan torpaqlarını mənimsəmək üçün dəfələrlə (1904-1905, 1918-1920, 1990-1993) Sədərəyə hücum etmiş, vəhşiliklər törətmişlər. A.Şadlinskinin başçılığı ilə yaradılan "Qırmızı tabor" özünümüdafiə batalyonunun əsas qərargahı Sədərəkdə yerləşirdi. 1921-ci ildə Naxçıvan, İrəvan, Dərələyəz, Zəngəzur, Şərur və s. bölgələrin silahlı daşnak dəstələrindən təmizlənməsində fərqlənmiş "Qırmızı tabor"un 500-ə yaxın döyüşçüsündən (onlardan 100-ə qədəri sədərəkli idi) 19 nəfəri (4-ü sədərəkli) "Qırmızı bayraq" ordeni ilə təltif olunmuşdu.

1990-1993-cü illərdə erməni silahlı qruplaşmaları Sədərək üzərinə 14 dəfə güclü hücum etmiş, 1990-cı il yanvarın 19-20-də Kərki kəndi zəbt olunmuş, Qanlı Yanvar faciəsinin ilk şəhidləri burada verilmişdir. 1990-cı il martın 28-də Sədərəyə Ermənistan tərəfdən 300-ə yaxın top mərmisi atılmışdı. Nəticədə 500-ə yaxın yaşayış evi, məktəblər, inzibati idarə binaları dağıntılara məruz qalmışdır. Ulu Öndər Heydər Əliyevin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə digər sərhəd bölgələri kimi, Sədərək də işğal təhlükəsindən xilas olmuşdur.

Son illərdə Sədərək rayonu bütün sahələrdə inkişaf və tərəqqiyə nail olmuşdur. Rayon mərkəzində və kəndlərdə yeni inzibati və ictimai obyektlər inşa edilmiş, bərpa, tikinti-quruculuq və abadlıq işləri aparılmışdır. Heydərabad qəsəbəsi salınmış, Araz çayı üzərində Türkiyə ilə Azərbaycanı birləşdirən Sədərək-Dilucu körpüsü – "Ümid körpüsü" tikilmişdir.

Heydərabad qəsəbəsində ermənilər tərəfindən dağıdılan 100-ə yaxın yaşayış binası təmir olunmuş, su, elektrik və rabitə xətləri bərpa edilmiş, yarımstansiya quraşdırılmışdır. Yeni içməli su xətti çəkilmiş, 12 subartezian quyusu qazılmış, ərazidə 15 bulaq-abidə tikilmişdir. Rayonun 2 məktəbəqədər, 3 ümumtəhsil, texniki - peşə məktəbində 2300-ə yaxın uşaq tərbiyə olunur və şagird təhsil alır. Bir mədəniyyət evi, 1 kənd mədəniyyət evi, 2 klub, mərkəzi kitabxana, 75 çarpayılıq mərkəzi xəstəxana (10 həkim, 35 orta tibb işçisi) fəaliyyət göstərir .







**Şükürova Səkinə Məşədi Qafar qızı** - 1933-cü il. Sədərək qəsəbəsi.
"Xalı toxumağı anam Əbülhəsənova Xədicə Məşədi Mahmud qızından (1891-1946) öyrənmişəm. Rəhmətlik yaxşı xalça, məfrəş, xurcun toxuyardı. Mən də anamın yanında oturub əllərinə baxardım. Xeyli qoyun-quzumuz vardı. Atam qoyunların yununu bizə verərdi, biz də anamla birgə yunu yuyar, cəhrədə əyirər, boyaqçı Əliyə boyadardıq. Toxuculuq işinə o qədər həvəsim vardı ki, ailə qurandan sonra rəhmətlik qayınanam Şükürova Zəhra Rza qızı (1900-2000) ilə də xalça toxuyardım".



**Nəcəfova Xatun Məhərrəm qızı** - 1938-ci il. Sədərək qəsəbəsi.
"Ailədə altı bacı, üç qardaş olmuşuq. Mənə və bacılarım Yaqubova Salatına (1941), Əliyeva Gülbəstiyə (1951), Əsgərova Tərlana (1958) toxuculuğun sirlərini anam İbrahimova Səkinə Hüseyn qızı (1915-2005) öyrədib. Yunu özümüz əyirib, boyaqçıda boyadardıq. Gəlin köçdükdən sonra qayınanam Nəcəfova Bilqeyis Məşədi Rza qızı ilə də xalçalar toxumuşam. Qayınatam hazır xalçanı tövləyə sərərdi. Bir müddət sonra xalçanı çayda yuyardıq ki, rəngləri qarışmasın".



**Quliyeva Müşgünaz Ağabala qızı** - 1950-ci il. Sədərək qəsəbəsi.
"Xalça toxumağı anam Mehdiyeva Tamam Mehdi qızından öyrənmişəm. Əl qabiliyyəti yaxşı olduğuna görə başqa kəndlərdən də gəlib ona cehizlik xalça toxutdurardılar. Xalça toxumağa çox həvəsli idim. Həvəslə öyrənirdim. Sonralar özüm təkcə hana qarşısında oturub kilim toxuyurdum. Çətinliyim olanda anamla məsləhətləşirdim. Gəlin köçdükdən sonra qayınanam Quliyeva Səlvi Əhməd qızı ilə də xalçalar toxumuşam".



**Yediyarova Çimnaz Məmməd qızı** - 1939-cu il. Sədərək qəsəbəsi.
"Mənə və bacılarıma toxumağı anam Səmədova Şirin Tağı qızı (1909-1984) öyrədib. Rəhmətlik bacılarım Həbibova Fatma (1929-2007), Həbibova Səkinə (1936-2003) peşəkar xalçatoxuyan idilər. Anam xalça toxuyanda onun yanında oturub barmaqlarına baxardıq. Xalçaları öz qoyunlarımızın yunundan hazırladığımız iplə toxuyardıq. Anamla birgə yunu yuyar, darayar, cəhrədə əyirər və boyaqçıda boyadardıq. Anamın əl işləri dillər əzbəri idi. Ona cehizlik xalça toxutdurmaq üçün növbəyə dayanardılar".





**Vəliyeva Mahirə Salman qızı** - 1973-cü il. Sədərək qəsəbəsi.
"Xalçaçılığı anam Vəliyeva Zöhrə Nəcəf qızından (1949) öyrənmişəm. Toxumağı öyrənəndən sonra xalça sexində işləməyə başlamışam. Ancaq evdə də anamla, bacılarımla birgə xalça toxuyurduq".



**Qurbanova Şura Cəmil qızı** - 1988-ci il. Sədərək qəsəbəsi.
"Toxumağı anam Məmmədova Solmaz Kamil qızından (1963) öyrənmişəm. Anam gözəl xalçatoxuyandır. Mən də onun yanında oturub ilmə atmağı, naxış salmağı öyrənmişəm. Anam da bu işi öz anası Məmmədova Fatmadan öyrənib. Anam indi də xalça sexində toxucu işləyir".



**Ələkbərova Gülxanım Kərbəlayı qızı** - (1913-1969). Kərki kəndi. Naxçıvanın məşhur xalçaçılarından olub.
Oğlunun dediklərindən: "Anam toxumağı nənəsi Fatmadan öyrənmişdi. Yadımdadır, o vaxt anamgildə 18 gəbə vardı, ancaq dolanışıq ucbatından onları Şərur, Sədərək bazarlarında satırdıq. Anam gündüz kolxozda işləyər, gecələr isə gəbə toxuyardı".



**Əhmədova Südabə Ələkbər qızı** - 1936-cı il. Kərki kəndi. 1990-cı ildə məcburi köçkün kimi Yeni Kərkidə məskunlaşmışdır.
"Mən kilim, gəbə toxumağı 8 bacımla birlikdə anam Şəhrəbanudan öyrənmişəm. Anamla birlikdə yun didər, daraqda darayar, kələf edərdik. Sonra anam bu kələfi otlardan hazırladığı boyaqda boyayıb sərərdi. Boyanmış iplərdən kilim, gəbə toxuyardıq. Toxuduğum kilim və gəbələrdən övladlarıma da hədiyyə etmişəm".

# Sədərək toxucularının əl işləri





**Cecim.** Toxucu: Yediyarova Çimnaz Məmməd qızı. Sədərək qəsəbəsi.



**Xalça.** Toxucu: Əhmədova Südabə Ələkbər qızı. Kərki kəndi.

**Xalça.** Toxucu: Şükürova Səkinə Məşədi Qafar qızı. Sədərək qəsəbəsi.



**Xalça.** Toxucu: Ələkbərova Gülxanım Kərbəlayı qızı. Kərki kəndi.



**Xalça.** Toxucu: Nəcəfova Xatun Məhərrəm qızı. Sədərək qəsəbəsi.



# ŞAHBUZ RAYONU

Şahbuz rayonu 1930-cu ildə təşkil edilmişdir. Mərkəzi Şahbuz şəhəridir. Rayon 1 şəhər, 1 qəsəbə və 22 kənddən ibarətdir. İri yaşayış məntəqələri Şahbuz şəhəri, Badamlı qəsəbəsi, Kolanı, Kükü və Keçili kəndləridir. Ərazisi 836,6 kv. km, əhalisi 23,6 min nəfərdir.

Şahbuz rayonu 1963-cü ildə ləğv edilib Naxçıvan rayonuna (indiki Babək rayonu) birləşdirilmiş, 1965-ci ildən isə yenidən müstəqil rayona çevrilmişdir. Rayon şimaldan və şərqdən Ermənistanla həmsərhəddir.

Rayonun relyefi, əsasən, dağlıqdır. Ən yüksək zirvələri Zəngəzur silsiləsində Şapuq (3204 m), Salvartı dağı (3162 m), Üçqardaş dağı (3156 m) və s.-dir. Ərazidə Badamlı, Biçənək, Batabat və Karvansara kimi mineral sular çıxır. Subalp və alp çəmənlikləri geniş yayılmışdır.

Şahbuzda Eneolit, Tunc, Dəmir dövrlərinə, antik dövrə və orta əsrlərə aid yaşayış yerləri, qəbir abidələri, Kükүçay boyunca e.ə. III minilliyə aid insan məskənləri aşkar olunmuşdur. Burada boyalı qablar, Xocalı-Gədəbəy mədəniyyətlərinin izlərinə rast gəlinir. Orta əsrlərə aid qaynaqlarda adı çəkilən Şahbuz qalası eramızın ilk əsrlərində inşa edilmişdir. Rayon ərazisində III-XVII əsrlərə aid yaşayış yerləri və qəbir abidələri tədqiq edilmişdir.

Orta əsrlərə aid Şapurqala, müdafiə istehkamları, karvansara və s. də Şahbuz ərazisindədir. 2006-2007-ci illərdə Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələri pasportlaşdırılarkən, Şahbuz rayonu ərazisində 137 belə abidə aşkar edilmişdir. Bunlardan 6-sı dünya əhəmiyyətlidir.

Şahbuz, əsasən, heyvandarlıq rayonudur. Bununla yanaşı, rayonda dənli-paxlalı, texniki bitkilər, meyvə və tərəvəz yetişdirilir. Rayonda aqrar islahatlar başa çatdırılmış (1999), əhali torpaq payları ilə təmin olunmuşdur.

Rayonun 12 məktəbəqədər, 24 ümumtəhsil, musiqi məktəbində 5 minə yaxın şagird təhsil alır. Rayonda 26 klub və mədəniyyət evi, 29 kitabxana, tarix-diyarşünaslıq muzeyi, 175 çarpayılıq, o cümlədən 70 çarpayılıq mərkəzi rayon xəstəxanası, 12 feldşer-mama məntəqəsi, 8 həkim ambulatoriyası (26 həkim, 240 orta tibb işçisi) və s. fəaliyyət göstərir.

Son illər Kükü, Mahmudoba, Qızıl Qışlaq kəndlərində, Batabat yolu üzərində bir neçə körpü tikilmiş və həmin yol yenidən qurulmuşdur. Rayonun kəndlərində 11 yeni məktəb binası tikilmiş, Şahbuz qəsəbəsi genişləndirilmiş, yenidən qurulmuş və şəhər statusu almış, Ulu Öndər Heydər Əliyevin adına park və prospekt salınmışdır. Şahbuz şəhərində rayon təşkilatları üçün inzibatı binalar, qaçqın və məcburi köçkünlər üçün 50-dən çox yaşayış evi tikilib istifadəyə verilmiş, şəhidlər kompleksi və rayonun simvolu olan giriş abidə-kompleksi ucaldılmışdır.





**Rüstəmov Teymur Həsən oğlu** – (1899-1975). Kolanı kəndi.
Həmkəndlilərinin verdiyi məlumata əsasən, Teymur kişi xalça, kilim, məfrəş ticarəti ilə məşğul olub. O, hər naxışın, hər çeşninin hansı bölgəyə aid olduğunu ilk baxışdan müəyyənləşdirirmiş. Hətta həmkəndlilərinin dediyinə görə, hansısa xalçanın yaşını müəyyənləşdirmək məsələsində mübahisəli məqam yaranında, son sözü Teymur kişi deyərmiş.



**Cəlilova Simuzər Təhməz qızı** - 1928-ci il. Kolanı kəndi.
"Bu sənəti anam Hacıyeva Şanı İldırım qızından öyrənmişəm. Onun da ustadı anası Adıgözəlova Tamam olub. Toxuculuğa o qədər həvəsim vardı ki, anam xalça toxuyanda yanında oturub əlinə baxır, naxış atmağı, ilmə vurmağı öyrənirdim. Atamın çoxlu qoyun-quzusu olardı; qoyunlarımızın yununu anamla bərabər yuyur, darayır, cəhrədə əyirirdik. Atam bu ipləri boyaqçıda boyatdırar, sonra hanada kilim, xalça toxumağa başlayardıq. Ailə qurandan sonra qayınanam Cəlilova Firuzə ilə də çoxlu xalça-palaz toxumuşam".



**Mədətova Zəlbab Məhəmməd qızı** - 1928-ci il. Kolanı kəndi.
"Ailədə bir qardaş, beş bacı olmuşuq. Toxumağı anam Bədəlova Səkinə Əli qızından öyrənmişəm. O, gözəl xalça toxuyardı. Öz qoyunlarımızdan qırxılmış yunu yuyub-təmizlədikdən sonra cəhrədə əyirər, ipləri boyaqçıda boyadardıq. Gəlin köçdükdən sonra qayınanam Bədəlova Abuhəyat İbrahim qızı ilə bərabər xalçalar toxumuşam. Qızlarım Mədətova Xurmaya və Gülzara da xalça toxumağı mən öyrətmişəm".



**Babayeva Leylan İci qızı** - 1923-cü il. Kolanı kəndi.
"Rəhmətlik nənəm Nəcəfova Nazı Nəcəf qızı gözəl xalçalar toxuyardı. Mənə də ilmə vurmağı, naxış atmağı o öyrədib. Ailə qurandan sonra qayınanam Babayeva Şərəf Məmiş qızı ilə də xalçalar toxumuşuq. Özümüz qoyun saxlamırdıq. Ona görə də yunu bazardan almalı olurduq. Bu yunu yuyub-qurutduqdan sonra qayınanam daraqda darayar, cəhrədə əyirib ip edərdi. İplərimizi boyaqçı Fatma boyayardı".





**Zeniyeva Gülər Əli qızı** - 1946-cı il. Kolanı kəndi.
"Anam İmanquliyeva Sona Abbas qızı 83 yaşında dünyasını dəyişib. Rəhmətliyin gözəl əl qabiliyyəti vardı. Toxumağı öz anası Kərimova Ballı Kərim qızından öyrənmişdi. Xalça toxuyanda məni yanına çağırar, ilmə vurmağı, naxış atmağı öyrədərdi. Qoyun-quzu saxladığımızdan yun qıtlığı çəkməzdik. Yunu yuyur, darayır, cəhrədə əyirir, ipləri boyaqçıda boyadardıq. Sonra anamla hana önündə oturub xalça, kilim, məfrəş toxuyardıq".



**Lazımova Şükufə Məmməd qızı** - 1961-ci il. Kolanı kəndi.
"1941-ci ildə anadan olmuş, 2009-cu ildə vəfat etmiş anam Abbasova Zeynəb Mürsəl qızı yaxşı xalçalar toxuyardı. Mən də bacılarımla birlikdə onun yanında oturar, əllərinə baxa-baxa öyrənərdik. Qoyunlarımızdan qırxılmış yunu bacılarımla təmizləyib cəhrədə əyirər, ipləri boyaqçıda boyadardıq. Mən ailə qurandan sonra rəhmətlik qayınanam Lazımova Fatimə Musa qızı ilə bərabər xalça, məfrəş toxumuşam. Qayınanam dünyasını dəyişəndə 79 yaşı vardı. Əl qabiliyyəti gözəl olduğundan, ona cehizlik xalça toxutdurardılar".



**Orucova Şücayət Məmməd qızı** - 1963-cü il. Kolanı kəndi.
"Ailədə üç qardaş, üç bacı olmuşuq. Toxuculuğun sirlərini 83 yaşında dünyasını dəyişən anam Mustafayeva Səkinə Mürsəl qızından öyrənmişik. Anam olduqca incə, aydın seçilən naxışlar vurardı. Özümə və bacılarıma cehizlik xalça, kilim toxumuşam. Gəlin köçdükdən sonra rəhmətlik qayınanam Əliyeva Zeynəb Abuzər qızı ilə də çoxlu xalça, kilim, məfrəş toxumuşam".



**İsmayılova Ziləxumar Məhəmmədəli qızı** - 1941-ci il. Kolanı kəndi.
"Toxuculuqda ustadım anam Yusifova Əsli Hacı Məhərrəm qızı olub. O da bu sənətin incəliklərini öz anası Hacıyeva Güllü Hacı qızından öyrənmişdi. Anam xalça toxuya-toxuya hər naxışın, hər ilmənin texnikasını mənə başa salardı. Beləcə, bir müddət sonra mən də xalça toxumağın yollarını öyrənmiş oldum. Qayınanam Novruzova Ballı ilə də xalça, kilim, məfrəş toxumuşam".



**Nəcəfova Nisə Əli qızı** - 1963-cü il. Kolanı kəndi. "Mənə və bacılarıma – Eyvazova Sədaqətə (1958), Nəcəfova Zöhrəyə (1983) xalça toxumağı 1931-ci il təvəllüdlü anam Nəcəfova Gülzar Əhmədxan qızı öyrədib. Uşaq ikən anamızın yanında oturub həm öyrənir, həm də ona kömək edirdik".



**Eylazova Fatma Hüseynəli qızı** - 1940-cı il. Aşağı Qışlaq kəndi. "Ailəmizdəki səkkiz qızdan üçü xalça toxumağı bacarırdı. 81 yaşında dünyasını dəyişən bacım Bədəlova Pəriyə, 1953-cü il təvəllüdlü Muradova Nabata və mənə xalça toxumağı 99 yaşında dünyadan köçən anamız Hüseynova Nazxanım İsmayıl qızı öyrədib. Sonralar rəhmətlik qayınanam Eylazova Sərvinaz Şirin qızı (1900-1978) ilə də xalça, məfrəş, xurcun toxuyardım".



**Rüstəmova Gülab Hüseynəli qızı** - 1942-ci il. Aşağı Qışlaq kəndi. "Biz xalça toxumağı anamız Hüseynova Nazxanım İsmayıl qızından öyrənmişik. Gəlin köçdükdən sonra da qayınanam Hüseynova Cəvahir Abduləli qızı ilə xalçalar toxuyardım".



**Əhmədova Bəyim Abbasqulu qızı** - 1930-cu il. Aşağı Qışlaq kəndi. "Anam Əhmədova Göyüm Mirzalı qızı (1887-1988) gözəl xalçalar toxuyardı. Ailədə dörd qardaş, iki bacı olmuşuq. Mən və 1934-cü il təvəllüdlü bacım Cabbarova Əsli xalça toxumağı anamızdan öyrənmişik. Anamın səliqəli, incə üslubu onun əl işlərini digərlərininkindən fərqləndirirdi. Məhz buna görə də ona cehizlik xalça toxumaq üçün sifariş verərdilər. Mən və bacım da anamıza kömək edər, xalça, məfrəş, xurcun toxuyardıq".





**Seyidova Aruzə Mirsalah qızı** - 1948-ci il. Aşağı Qışlaq kəndi. "Mənə və bacılarım Seyidova Tükəzbana (1942), Seyidova Çiçəyə (1976) xalça toxumağı 67 yaşında vəfat etmiş anam Seyidova Fatma Rüstəm qızı öyrədib. Anam gözəl xalça toxuyardı. Saxladığımız qoyunların yununu cəhrədə əyirər, ipləri boyaqçıya boyadardıq. İplər rəngini tutub hazır olduqdan sonra toxumağa başlayardıq. Toxuduğumuz xalçalardan, xurcunlardan bəzilərini bu gün də saxlayırıq. 86 yaşında dünyasını dəyişən qayınanam Eylazova Bəyim Qara qızı ilə də xalçalar toxuyardım".



**Cəlilova Səkinə Əyyub qızı** - 1933-cü il. Aşağı Qışlaq kəndi. "Anam Əhmədova Göycə Məşədi Məhəmməd qızı mənim ustadımdır. O, bu sənətə olan marağımı dəyərləndirdi, yavaş-yavaş naxış atmağı, ilmə vurmağı mənə öyrətməyə başladı. Beləcə, mən də toxuculuğun sirlərinə vaqif oldum və özüm sərbəst şəkildə hana qarşısında oturub toxumağa başladım. Qayınanam Əhmədova Zülfinaz da əl işlərimi çox bəyənərdi. Əl işlərimdən birini - gərdək başını sizə hədiyyə edirəm".



**Quliyeva Zərqələm Əvəz qızı** - 1948-ci il. Yuxarı Qışlaq kəndi. "Biz ailəlikcə toxucu olmuşuq. Mənə və bacılarım – Ələkbərova Fizzata (1955), Ələkbərova Firəngizə (1957) xalça toxumağı anam Ələkbərova Qiymət Cəbi qızı (1923-1996) öyrədib. O, ömrünün sonunadək bizdən bu sənətə dair məsləhətlərini əsirgəmədi. Yunu darayıb cəhrədə əyirərdik, atam da ipləri aparıb Kolanı kəndində boyaqçı Səkinəyə boyatdırardı".



**Hüseynova Sona Aydın qızı** - 1948-ci il. Yuxarı Qışlaq kəndi. "Çoxuşaqlı ailəmiz vardı – beş qardaş, dörd bacı olmuşuq. Mənə və bacılarım Qaybalıyeva Gülərə (1935), Hüseynova Tükəzbana (1952) toxumağı 83 yaşında dünyasını dəyişmiş anamız Əsədova Şaban Əli qızı öyrədib. Biz anamın həm tələbələri, həm də köməkçiləri idik. Sonralar özümüz üçün cehizlik xalça, kilim də toxuduq".



**Əsədova Sona Əsəd qızı** - 1946-cı il. Yuxarı Qışlaq kəndi.
"Xalı toxumağı mənə və 56 yaşında rəhmətə getmiş bacım Ramazanova Nərgizə, Səfərova Sərvinaza (1938) anamız Əsədova Səlvi Qara qızı öyrədib. Atamın çoxlu qoyun-quzusu olardı, qoyunlarımızın qırxılmış yununu cəhrədə özümüz əyirər, ipləri boyaqçıda boyadardıq. Sonra hana qurub xalça, xurcun toxuyardıq. Gəlin köçdükdən sonra qayınanam Ağamalıyeva Nisə Əli qızı ilə (1929-1999) bərabər çoxlu xalçalar toxumuşam".



**Həsənova Nənəş Mirlətif qızı** - 1963-cü il. Yuxarı Qışlaq kəndi.
"Anamın xalçaçılıq təcrübəsi mənim üçün böyük məktəb olub. Mənə və bacılarım Əliyeva Südabəyə, Əliyeva Bənövşəyə xalça toxumağı 1992-ci ildə dünyasını dəyişmiş anam Babayeva Nabat Novruz qızı öyrədib. Anam gözəl xalçalar, məfrəşlər, xurcunlar toxuyardı".



**Cəfərova Səkinə Novruz qızı** - 1929-cu il. Yuxarı Qışlaq kəndi.
"Biz ailəlikcə toxuculuğun vurğunu olmuşuq. Rəhmətlik bacılarım Babayeva Nabata, Babayeva Bəyaza da xalça toxumağı anam Babayeva Səmənnaz Dünyamalı qızı öyrədib. Anamın gözəl əl işləri vardı; nəfis xalçalar, məfrəşlər, xurcunlar toxuyardı. Biz də həmişə ondan naxış vurmağı, ilmə atmağı, incə toxunuşu öyrənərdik".



**Seyidova Müşgünaz Aslan qızı** - 1938-ci il. Biçənək kəndi.
"1933-cü il təvəllüdlü bacım Ramazanova Sevgili və mən xalça toxumağı çox sevərdik. Ustadımız anamız – gözəl xalçalar, məfrəşlər, xurcunlar ustası olan Dadaşova Zeynəb Ələkbər qızı olub. Anam bizim işimizə xüsusi nəzarət edir, ilməni səhv vuranda, ya da sapların rənglərini qarışıq salanda tez işi saxladır, zəruri məsləhətlər verərdi. Cehizlik xalçalarımızı, kilimlərimizi özümüz toxumuşuq. Ər evində də sevdiyim bu işi davam etdirdim. Qayınanam Seyidova Tutu Qara qızı ilə əl-ələ verib onlarla xalça, palaz toxumuşam".





**Cabbarova Maral Məhəmməd qızı** - 1938-ci il. Biçənək kəndi.
"Mənə və bacılarım – Qurbanova Mənsuməyə (1940), Qurbanova Səmayəyə (1951) xalça toxumağı anamız Seyidova Ülkər Seyid Zülfüqar qızı öyrədib. Onun saldığı ilmələr, vurduğu naxışlar təbii və aydın olurdu. Anamın əl işlərində zərgər dəqiqliyi vardı. Anam özündən yaşlılardan öyrəndiyi xüsusi naxışları və şəkilləri xalçalara köçürərdi. Ancaq bu gün biz o şəkillərin və işarələrin mənasından xəbərsizik. Anamızdan soruşanda deyərdi ki, bunlar bilənlər üçün məlumatdır, işarədir. Qayınanam Cabbarova Xədicə Abbas qızı da toxuculuğun sirlərinə bələd olan qadın idi".



**Dadaşova Həcər Xanlar qızı** - 1952-ci il. Biçənək kəndi.
"Mən və bacım Hacıyeva Gözəl toxumağı anamız Hacıyeva Şamama Şahvəli qızından (1930) öyrənmişik. O, gözəl xalçalar toxuyardı. Rəhmətlik çalışırdı ki, qızları da özü kimi yaxşı toxucu olsunlar. Ən azından ona görə ki, bu həm də bir sənət idi. Axı toxuculuğu yaxşı bacaranlar sifarişlə də xalçalar toxuyurdular. Beləcə, anamın istəyinə uyğun olaraq, mükəmməl toxucu olmuşuq. 1997-ci ildə dünyasını dəyişən 72 yaşlı qayınanam Dadaşova Güldəstə Xankişi qızı da çox bacarıqlı toxucu idi".



**Qurbanova Zəhra Alış qızı** - 1927-ci il. Biçənək kəndi.
"Anam Cəlilova Zinyət məşhur toxuculardan olub. Mən də, cavan yaşlarında dünyasını dəyişən rəhmətlik bacım Qurbanova Fatimə də (1922-1946) xalça toxumağı ondan öyrənmişik. Anamın gözəl naxışlarına baxdıqca doymaq olmurdu. Qoyunlarımızın yununu qırxıb yuyur, qurudur, sonra darayır, cəhrədə əyirir, iplərimizi isə boyaqçı Pəriyə boyadardıq. Bir çox qızlar kimi cehizlik xalılarımızı özümüz toxumuşuq. Qayınanam Qurbanova Səmayə Tanrıverdi qızı ilə də xalça, məfrəş, xurcun toxumuşam".



**Dadaşova Nubar Elbəyim qızı** - 1948-ci il. Biçənək kəndi.
"Toxuculuq zövq işidir. Mən də, 1940-cı il təvəllüdlü bacım Hüseynova Nargilə də xalça toxumağı anamız Hüseynova Gülnisə Abbas qızından öyrənmişik. Marağımız o qədər güclü idi ki, onun yanında oturub öyrənir, kömək etməyə çalışırdıq. İndiki kimi yadımdadır, cəhrədə əyirdiyimiz ipləri boyaqçı Davud kişiyə boyadardıq. Qayınanam Dadaşova Gülsüm Hümbət qızından da çox şeylər öyrənmişəm".



**Nuriyeva Səmənnaz İslam qızı** - 1939-cu il. Biçənək kəndi.
"Bacılarım Nuriyeva Səlvinaza (1923-2007), 73 yaşında vəfat etmiş Nuriyeva Zilfinaza xalça toxumağı anam Nuriyeva Ceyran Dadaş qızı öyrədib. O, işləyə-işləyə bizə naxış vurmağı, ilmə atmağı öyrədərdi. Uşaq olduğumuza görə anam bizə nisbətən asan toxuculuq üsullarını öyrətməyə çalışırdı. Bu halda qavramaq da asan olurdu. İşlədikcə digər mürəkkəb üsulları da öyrəndik. Sonralar bu işi qayınanam Nuriyeva Səlvinaz Qafar qızı ilə bərabər davam etdirdim".



**Şirinova Hülnisə Şərif qızı** - 1945-ci il. Qızıl Qışlaq kəndi.
"Xalça toxumağı mənə anam Hüseynova Gülüzar Adıxan qızı öyrədib; anam da öz anasından öyrənibmiş. Bəzən bilmədiyimi anamdan soruşardım, o da ətraflı izah edər və öyrədərdi. İpi özümüz hazırlayar, boyaqçı Dilbərə boyadıb, quru-lu hanadan asaraq, işə başlayardıq. Ərə getdikdən sonra qayınanam Şirinova Fatimə ilə xalçalar toxumuşam".



**Orucəliyeva Ağca Teymur qızı** - 1940-cı il. Güney Qışlaq kəndi.
"Mənə və bacılarım Əliyeva Əfruza (1945), Əliyeva Məryəmə (1951), Əliyeva Nailəyə (1959) xalça toxumağı anamız Əliyeva Bibixanım Əli qızı öyrədib. Anam hərdən deyirdi ki, mənə gəncliyimi xatırladırsınız, çünki mən də xalı toxumağa sizin yaşda başlamışam. Gəlin köçdükdən sonra qayınanam Orucəliyeva Gülnisə Haqverdi qızı ilə müxtəlif çeşnili xalçalar toxumuşam".



**Hüseynova Laləzar Əzim qızı** - 1945-ci il. Qızıl Qışlaq kəndi.
"Anam Məmmədova Zərifə Əliş qızının çox gözəl əl qabiliyyəti vardı. Toxuduğu xalıya vurduğu naxışların cazibəsindən çıxmaq mümkün deyildi. Rəng seçimi, üslubu fərqli və gözəl idi. Buna görə də ona cehizlik xalça sifariş verərdilər. Toxuculuq üçün lazım olan ipləri isə özümüz tədarük edirdik. Yunu daraqda da-rayar, cəhrədə əyirər, ipi məşhur boyaqçı Töhfə ustaya boyadardıq. Qayınanam Hüseynova Gülzar Adıxan qızı da çox istedadlı toxucu olub".





**İsgəndərova Lalə Behbud qızı** - 1949-cu il. Qızıl Qışlaq kəndi.
"Xalı toxumağı mənə anam Behbudova İmarət Cəfərqulu qızı öyrədib. Anamın güclü yaradıcılıq imkanları vardı. Ona görə də gözəl xalçalar, xurcunlar toxuyar-dı. Mən anamın davamçısı olsam da, özümü ondan qat-qat zəif toxucu hesab edirəm. Onun əl işlərini ilk baxışdan tanıyaram. Çünki o, xalçalarını xüsusi və yalnız özünün bildiyi rəmzlərlə, naxışlarla bəzəyərdi".



**Göyüşova Zibayət İbrahim qızı** - 1961-ci il. Qızıl Qışlaq kəndi.
"Mən və bacılarım Məmmədova Çiçək, Əliyeva Ruhgül anamın yetirmələriyik. Kiçik yaşlarımızdan anamızla bərabər yun yuyar, darayar, cəhrədə əyirərdik. Ha-zır olan ipləri atam aparıb boyaqçı Laləyə boyadardı. Rəngini tutmuş iplərdən isə çeşidli xalı, kilim, məfrəş toxuyardıq".



**Babayeva Qızbəsti Qulu qızı** - 1932-ci il. Güney Qışlaq kəndi.
"Mənə və bacım Babayeva Gülbəstiyə xalça toxumağı anam Babayeva Münəvvər Abbasqulu qızı öyrədib. Bu sənəti anam da öz anasından öyrənmişdi. Onun bir-birindən gözəl əl işlərinin bəzilərini hələ də qoruyuruq".

# Şahbuz toxucularının əl işləri





**Xalça.** Toxucu: Cəlilova Səkinə Əyyub qızı. Aşağı Qışlaq kəndi.



**Xalça.** Toxucu: Dadaşova Nubar Elbəyim qızı. Biçənək kəndi.



**Xalça.** Toxucu: Babayeva Qızbəsti Qulu qızı. Güney Qışlaq kəndi.

**Xalça.** Toxucu: Cabbarova Maral Məhəmməd qızı. Biçənək kəndi.



**Xalça.** Toxucu: Cəlilova Simuzər Təhməz qızı. Kolanı kəndi.





**Xalça.** Toxucu: İsgəndərova Lalə Behbud qızı.
Qızıl Qışlaq kəndi.



**Xalça.** Toxucu: Həsənova Nənəş Mirlətif qızı.
Yuxarı Qışlaq kəndi.



**Xalça.** Toxucu: Hüseynova Sona Aydın qızı.
Yuxarı Qışlaq kəndi.

**Xalça.** Toxucu: Hüseynova Lalәzar Əzim qızı.
Qızıl Qışlaq kəndi.



**Xalça.** Toxucu: Göyüşova Zibayət İbrahim qızı.
Qızıl Qışlaq kəndi.



**Xalça.** Toxucu: Eylazova Fatma Hüseynəli qızı.
Aşağı Qışlaq kəndi.







**Xalça.** Toxucu: Lazımova Şükufə Məmməd qızı.
Kolanı kəndi.



**Xalça.** Toxucu: Mədətova Zəlbəb Məhəmməd qızı.
Kolanı kəndi.



**Xalça.** Toxucu: Nuriyeva Səmənnaz İslam qızı.
Biçənək kəndi.

**Xalça.** Toxucu: Orucova Şücayət Məmməd qızı.
Kolanı kəndi.



**Xalça.** Toxucu: Nəcəfova Nisə Əli qızı.
Kolanı kəndi.



**Xalça.** Toxucu: İsmayılova Ziləxumar Məhəmmədəli qızı.
Kolanı kəndi.





**Xalça.** Toxucu: Quliyeva Zərqələm Əvəz qızı. Yuxarı Qışlaq kəndi.



**Xalça.** Tacir Rüstəmov Teymur Həsən oğlunun kolleksiyasından. Kolanı kəndi.



**Xalça.** Toxucu: Qurbanova Zəhra Alış qızı. Biçənək kəndi.

**Xalça.** Toxucu: Zeniyeva Gülər Əli qızı. Kolanı kəndi.



**Xalça.** Toxucu: Seyidova Aruzə Mirsalah qızı. Aşağı Qışlaq kəndi.



**Xalça.** Toxucu: Orucəliyeva Ağca Teymur qızı. Güney Qışlaq kəndi.







**Xalça.** Toxucu: Dadaşova Həcər Xanlar qızı. Biçənək kəndi.



**Gərdək başı.** Cəlilova Səkinə Əyyub qızının əl işi. Aşağı Qışlaq kəndi.

**Xalça.** Toxucu: Şirinova Hülnisə Şərif qızı. Qızıl Qışlaq kəndi.





**Xurcun.** Tacir Rüstəmov Teymur Həsən oğlunun kolleksiyasından. Kolanı kəndi.

**Xalça.** Toxucu: Seyidova Müşgünaz Aslan qızı. Biçənək kəndi.





# Şəxsi kolleksiyalarda saxlanılan Naxçıvan xalçaları



1



2



3



4

**1.** Məfrəş üzü. Yun. Xovsuz. 1880-ci il.
Babək rayonu, Çalxanqala kəndi.
**2.** Xalça. Yun. Xovlu. 1900-cü il.
Babək rayonu, Qahab kəndi.
**3.** Xalça. Yun. Xovlu. 1900-cü il.
Babək rayonu, Nehrəm kəndi.
**4.** Xalça. Yun. Xovlu. 1900-cü il.
Babək rayonu, Kərimbəyli kəndi.
**5.** "Namazlıq". Yun. Xovlu. 1900-cü il.
Babək rayonu, Qahab kəndi.



5

1



2



3



4





5

**1.** Xalça. Yun. Xovlu. 1944-cü il. Culfa rayonu, Ərəfsə kəndi.
**2.** Xalça. Yun. Xovlu. 1900-cü il. Culfa rayonu, Camaldın kəndi.
**3.** Zili. Yun. Xovsuz. 1850-ci il. Culfa rayonu, Yaycı kəndi.
**4.** Xalça. Yun. Xovlu. 1900-cü il. Culfa rayonu, Dizə kəndi.
**5.** “Namazlıq”. Yun. Xovlu. 1920-ci il. Culfa rayonu, Əlincə kəndi.


1


2


3


4


5


6


7

1. “Namazlıq”. Yun. Xovlu. 1870-ci il. Kəngərli rayonu, Şahtaxtı kəndi.
2. Xalça. Yun. Xovlu. 1890-cı il. Kəngərli rayonu, Xok kəndi.
3. Xalça. Yun. Xovlu. 1900-cü il. Kəngərli rayonu, Qıvraq kəndi.
4. Xalça. Yun. Xovlu. 1900-cü il. Sədərək rayonu.
5. Xalça. Yun. Xovlu. 1870-ci il. Sədərək rayonu.
6. Xalça. Yun. Xovlu. 1900-cü il. Sədərək rayonu.
7. Xalça. Yun. Xovlu. 1900-cü il. Sədərək rayonu.



1



2



3



4

1. Xalça. Yun. Xovlu. 1879-cu il. Naxçıvan şəhəri.
2. Xalça. Yun. Xovlu. 1870-ci il. Naxçıvan şəhəri.
3. Xalça. Yun. Xovlu. 1850-ci il. Naxçıvan şəhəri.
4. Zili. Yun. Xovsuz. 1870-ci il. Naxçıvan şəhəri.
5. Zili. Yun. Xovsuz. 1880-ci il. Naxçıvan şəhəri.



5



1



2



3



4



5



6

**1.** Xalça. Yun. Xovlu. 1910-cu il.
Ordubad rayonu, Aza kəndi.
**2.** Xalça. Yun. Xovlu. 1913-cü il.
Ordubad rayonu, Dizə kəndi.
**3.** Xalça. Yun. Xovlu. 1920-ci il.
Ordubad rayonu, Dırnıs kəndi.
**4.** Xalça. Yun. Xovlu. 1900-cü il.
Ordubad rayonu, Qoruqlar kəndi.
**5.** Duz torbası. Yun. Xovsuz. 1910-cu il.
Ordubad rayonu, Gənzə kəndi.
**6.** Xurcun üzü. İpək. Xovsuz. 1900-cü il.
Ordubad rayonu, Biləv kəndi.



1



2



3



4



5

**1.** At çulu. Yun. Xovsuz. 1900-cü il.
Şahbuz rayonu, Kolanı kəndi.
**2.** Şəddə. Yun. Xovsuz. 1900-cü il.
Şahbuz rayonu, Kolanı kəndi.
**3.** Kilim. Yun. Xovsuz. 1870-ci il.
Şahbuz rayonu, Kolanı kəndi.
**4.** Xalça. Yun. Xovlu. 1900-cü il.
Şahbuz rayonu, Nursu kəndi.
**5.** Xalça. Yun. Xovlu. 1900-cü il.
Şahbuz rayonu, Yuxarı Qışlaq kəndi.
**6.** Zili. Yun. Xovsuz. 1850-ci il.
Şahbuz rayonu, Kolanı kəndi.



6



1



2



3



4



5

**1.** Xalça. Yun. Xovlu. 1881-ci il. Şərur rayonu. Düdəngə kəndi.
**2.** Xalça. Yun. Xovlu. 1900-cü il. Şərur rayonu. Aşağı Aralıq kəndi.
**3.** Xalça. Yun. Xovlu. 1900-cü il. Şərur rayonu. Kosacan kəndi.
**4.** Xurcun üzü. Yun. Xovsuz. 1850-ci il. Şərur rayonu. Tumaslı kəndi.
**5.** Duz torbası. Yun. Xovsuz. 1870-ci il. Şərur rayonu. Aşağı Aralıq kəndi.
**6.** "Namazlıq". Yun. Xovlu. 1830-cu il. Şərur rayonu. Oğlanqala kəndi.
**7.** Zili. Yun. Xovsuz. 1900-cü il. Şərur rayonu. Maxta kəndi.
**8.** Xalça. Yun. Xovlu. 1900-cü il. Şərur rayonu. Axura kəndi.
**9.** Xalça. Yun. Xovlu. 1900-cü il. Şərur rayonu. Siyaqut kəndi.
**10.** Xalça. Yun. Xovlu. 1800-cü il. Şərur rayonu. Maxta kəndi.





6



7



8



9



10

# Naxçıvan MR-in xalçaçılıq məntəqələri

**Babək**
- Sirab — Zeynəddin — Naxışnərgiz — Çeşməbasar — Kərimbəyli — Qahab
- Qoşadizə — Nehrəm — Güznüt — Kültəpə — Yeniyol
- Məmmədrza Dizə — Xalxal — Cəhri — Vayxır

**Şərur**
- Aşağı Aralıq — Qarxun — Tənənəm — Axura — Danyeri — Dəmirçi
- Havuş — Şahbulaq — Yuxarı Yaycı — Yuxarı Aralıq — Dərvişlər

**Ordubad**
- Qoşadizə — Darkənd — Tivi — Biləv — Aza — Azadkənd
- Kələntər Dizə — Vənənd — Əylis — Gənzə — Aşağı Əylis — Nüsnüs

**Culfa**
- Camaldın — Ərəfsə — Ərəzin — Əbrəqunus — Ortakənd — Xoşkeşin
- Əlincə — Başkənd — Teyvaz — Xanəgah — Qazançı — Milax

**Kəngərli**
- Xincab — Xok — Yurdçu — Çalxanqala — Qarabağlar — Şahtaxtı
- Qıvraq — Qabıllı — Təzəkənd

**Sədərək**
- Sədərək — Kərki

**Şahbuz**
- Kolanı — Aşağı Qışlaq — Yuxarı Qışlaq — Biçənək — Qızıl Qışlaq — Güney Qışlaq



Vidadi Muradov

# NAXÇIVAN XALÇAÇILARI

Bakı - "ELM" - 2013